# ABŞ-nin Cənubi Qafqaz siyasətində paradoks

**Beynəlxalq siyasətdə hər bir addımın, xüsusən də qlobal hegemonluğa iddialı bir ölkə tərəfindən atılan addımın mütləq mənada rasional və məntiqi izahı olmalıdır.**

Gözləntilərin əksinə olaraq indiki ABŞ rəhbərliyinin Azərbaycanla bağlı siyasi demarşlarında belə bir rasionalizmi və məntiqi görmək mümkün deyil.

*(ardı 5-ci səhifədə)*




# Anti-Azərbaycan qüvvələr COP29-u təzyiq alətinə çevirməyə çalışırlar

**Noyabrın 11-22-də Bakıda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) ərəfəsində ölkəmizə qarşı xaricdəki bədxahlarımız tərəfindən idarə olunan kampaniya güclənib. Demək olar ki, hər gün Qərbdəki ayrı-ayrı dövlətlərin qanunverici orqanlarının üzvləri, siyasətçilər, özünü vətəndaş cəmiyyətinin nümayəndələri adlandıranlar və jurnalistlər ölkəmiz əleyhinə fikirlər səsləndirirlər.**




Sonuncu dəfə "meydangirlik" edən Avropa Parlamentinin yeni seçilmiş vitse-prezidenti, fransız diplomatı və siyasətçisi Natali Luazo olub. Xislətinə sadiqlik nümayiş etdirən xanım Luazo deyib: "COP29 Azərbaycanda keçiriləcək. Bu barədə danışmaq və burada – Avropa Parlamentində müzakirə etmək vaxtıdır. Mənim təşəbbüsümlə "Renew" qrupu ("Renew Europe" Avropa Parlamentində siyasi qrupdur–S.H.) plenar iclasda bu məsələ ilə bağlı müzakirələrin aparılmasını xahiş etdi. Planetin qorunması, əlbəttə ki, vacibdir, lakin COP-un Azərbaycanda keçirilməsi bir çox suallar doğurur. Birincisi, bu, karbohidrogenlərdən, o cümlədən Rusiya karbohidrogenlərindən asılı (?) ölkədir. Amma daha önəmlisi odur ki, Azərbaycan Fransaya qarşı düşmənçilik hərəkətlərinin – məsələn, Yeni Kaledoniyada – həyata keçirildiyi ölkədir. Üstəlik, bu ölkə hələ də Ermənistanla sülh müqaviləsi bağlamayıb və 100 min erməninin etnik təmizlənməsinə (?) görə məsuliyyət daşıyır".

*(ardı 3-cü səhifədə)*

Xalqın qəzeti!

# Xalq qəzeti

№ 224 (30628) 12 oktyabr 2024-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır Təsisçi: Azərbaycan Respublikasi Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Su ehtiyatlarından səmərəli istifadə strateji hədəfdir



**Prezident İlham Əliyev "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edilməsi haqqında sərəncam imzalayıb. Sənədə əsasən, nəzərdə tutulan tədbirlərin əlaqələndirilməsini "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi ilə bağlı tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 15 aprel tarixli sərəncamı ilə yaradılan komissiyanın həyata keçirməsi qərara alınıb.**

Sərəncamla Nazirlər Kabinetinə Milli Strategiyanın həyata keçirilməsi ilə bağlı görülən işlər, o cümlədən adıçəkilən strategiyada nəzərdə tutulan tədbirlərin icra vəziyyəti barədə ildə bir dəfə dövlət başçısına məlumat vermək və digər məsələləri həll etmək tapşırılıb. Xatırladaq ki, "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya" Azərbaycan Prezidentinin 2020-ci il 27 iyul tarixli sərəncamı ilə təsdiqlənən "Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsinə dair 2020–2022-ci illər üçün Tədbirlər Planı"nın 2.4-cü bəndinə əsasən hazırlanıb. Milli Strategiyada su ehtiyatlarının artırılması, keyfiyyətli içməli su və suvarma suyu ilə təminatın yaxşılaşdırılması, həmin sahədə idarəetmənin müasirləşdirilməsi, habelə beynəlxalq konvensiyaların tələblərinə riayət edilməsi istiqamətində müəyyən layihələrin həyata keçirilməsi nəzərdə tutulub.

*(ardı 7-ci səhifədə)*

# Ermənilər imza atdıqları sənədlərə hörmətlə yanaşmırlar



**Qars müqaviləsinin 103 illiyi münasibətilə hazırladığımız bu qeydlərə hayların həmin tarixi sənədin imzalanmasından bir ay sonra – 1921-ci il noyabrın 13-də "Hayk" qəzetində verdikləri "Pərdə götürülmüşdür" adlı məqalədəki qeydlərlə başlamaq istərdik.**

Təbrizdə çıxan erməni qəzeti Qars müqaviləsini, sözün həqiqi mənasında, faciə adlandırırdı. Erməni müəllif yazırdı ki, Qızıl ordunun komandanları Sovet federasiyasının tərkibinə daxil olan Ermənistanın mübahisəsiz (?!) hissəsini təşkil edən əraziləri qorumağı, 1914-cü il sərhədlərində belə dayanmağı bacarmadılar və hətta balaca Naxçıvanı kamalçıların (Atatürk Türkiyəsi nəzərdə tutulur – İ.M.) caynaqlarından qopara bilmədilər.

*(ardı 5-ci səhifədə)*

# Şuşalılar doğma yurda ruh cana qovuşduğu kimi qayıdırlar



Səhifə ⇨ 11

# Kino milli varlığımızın sənətdə canlı təcəssümüdür



Səhifə ⇨ 13

# COP29 "Freedom House"un da yuxusuna haram qatıb

**Azərbaycana qarşı qarayaxma kampaniyasının önündə gedənlərdən olan "Freedom House" öz ampluasındadır. Noyabr ayında ölkəmizdə keçiriləcək COP29 tədbiri bu təşkilatın əsassız iddialarını daha geniş auditoriyada yaya bilməsi üçün, necə deyərlər, göydəndüşmə fürsət olub. Dünən "Freedom House"un yaydığı və Ermənistan media orqanlarının gen-bol tirajladıqları hesabat belə deməyə əsas verir.**

(ardı 4-cü səhifədə)

FREEDOM HOUSE

# Buzlaqların əriməsi Şimal Dəniz Yoluna işləklik gətirir



**Şimal Dəniz Yolu Rusiya və bütün dünya iqtisadiyyatı üçün böyük əhəmiyyət kəsb edir. Bu, Avropa və Asiyanı birləşdirən ən mühüm ticarət yollarından biridir.**

Onun sayəsində yüklərin çatdırılması vaxtı və maya dəyəri əhəmiyyətli dərəcədə azalır. Məsələn, Sankt-Peterburqdan Vladivostoka qədər olan məsafə 14 min kilometrdir. Amma Süveyş kanalı ilə bu məsafə 23 min kilometrdən çoxdur.

Bundan əlavə, iqlim dəyişikliyi səbəbindən Arktika buzlarının əriməsi marşrutda buzqıran gəmilərin köməyindən asılılığı azaldır və onu tranzit daşımalarda daha səmərəli edir. "Rosatom"un baş direktoru Aleksey Lixaçev deyib: "Şimal Dəniz Yolu Rusiyanın Uzaq Şərqi ilə ölkənin qərb bölgələri, Asiya və Avropa arasında birləşdirici əlaqədir. O, Sibirin ən böyük çay arteriyalarını vahid nəqliyyat şəbəkəsində birləşdirir və dəniz limanlarının, dəmir yolu və çay kommunikasiyalarının infrastrukturu üçün şərait yaradır. Bu yol həm də yanacaq xərclərini azaltmağa imkan verir. Nəticədə ətraf mühitə atılan antropogen yük minimuma enir".

*(ardı 15-ci səhifədə)*

# Tunis Respublikasının Prezidenti Zati-aliləri cənab Kays Sayidə

**Hörmətli cənab Prezident!**

Tunis Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Tunis arasında dostluq və əməkdaşlıq münasibətlərinin genişlənməsi və möhkəmlənməsi yolunda bundan sonra da birgə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Tunis xalqının rifahı naminə məsul fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 11 oktyabr 2024-cü il**

# Ersin Tatar İlham Əliyevin mövqeyini alqışlayıb

**Şimali Kipr Türk Cümhuriyyətinin rəhbəri Ersin Tatar türk dövlətlərinin birliyinə xüsusi önəm verən Azərbaycan Prezidenti İlham Əliyevin mövqeyini yüksək qiymətləndirib.**

Ersin Tatar Türkiyənin "Sabah" qəzetinə müsahibəsində türk Kiprinin maraqlarını dəstəklədiyinə və Türk dünyasının birliyinə verdiyi töhfəyə görə Azərbaycan Prezidentinə minnətdarlığını bildirib.

Siyasətçi qeyd edib ki, Lefkoşa Bakı və Ankara ilə "Bir millət, üç dövlət" kəlamı ruhunda dialoq qurur.

ŞKTC Prezidenti Azərbaycana səfərlərini Şimali Kiprin tanınması istiqamətində mühüm addım adlandırıb.

Kipr türklərinin lideri bildirib ki, Azərbaycan dövlətinin başçısı ilə görüşündə Prezident İlham Əliyev türk dövlətlərinin birliyinə və həmrəyliyinə xüsusi əhəmiyyət verdiyini bəyan edib və təşkilatın gələcəyi üçün səylərin birləşdirilməsinin vacibliyini vurğulayıb.


SABAH GÜNDEM YAŞAM SAĞLIK DÜNYA
"TÜRK DÜNYASININ EN GÜNEY'DEKİ TEMSİLCİSİYİZ, MESELE BU KADAR MİLLİ VE DEĞERLİDİR"
Tatar, Türk Devletleri'nin birliğini çok önemsediklerine vurgu yaparak, "Azerbaycan Devlet Başkanı İlham Aliyev ile de bir araya geldik. Türk Devletleri Teşkilatı'nın geleceği açısından Kıbrıs'ın çok önemli olduğunu bana ifade etmişti. Türk dünyasının Doğu Akdeniz'de, en güneydeki temsilcisi bir devletiz. Mesele bu kadar milli ve değerlidir." dedi

# Azərbaycan–İspaniya siyasi məsləhətləşmələri

**Oktyabrın 11-də Madrid şəhərində Azərbaycan və İspaniya Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib.**

İclasda Azərbaycan nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, İspaniya nümayəndə heyətinə isə xarici və qlobal işlər üzrə dövlət katibi Dieqo Belio Martinez rəhbərlik ediblər.

İclas zamanı Azərbaycan və İspaniya arasında siyasi, iqtisadi, humanitar sahələrdə əlaqələrin hazırkı vəziyyəti və inkişaf perspektivləri müzakirə olunub.

Məsləhətləşmələrdə beynəlxalq gündəlikdə dayanan qarşılıqlı maraq kəsb edən məsələlər, o cümlədən çoxtərəfli formatlarda əməkdaşlığın davam etdirilməsi də diqqət mərkəzində olub. 2024-cü ilin noyabr ayında Azərbaycanda keçiriləcək BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının sessiyasına (COP29) hazırlıq və görülən işlərlə bağlı qarşı tərəfə məlumat verilib.

Görüşdə qarşı tərəfə postmünaqişə dövründə bölgədəki vəziyyət və davamlı sülhün bərqərar olunması istiqamətində Azərbaycanın atdığı addımlar barədə məlumat verilib.

***XQ***

# Mədəniyyət naziri Naxçıvanda qəbul keçirib



**Mədəniyyət naziri Adil Kərimli dünən Naxçıvan şəhərində vətəndaşlarla görüşüb.**

Muxtar Respublikasının Mədəniyyət Nazirliyində keçirilən qəbulda nazir Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarından olan vətəndaşların müraciətlərini dinləyib.

Adil Kərimli vətəndaşların xahiş və təkliflərini dinləyərək qaldırılan hər bir məsələnin operativ şəkildə araşdırılması, qanunvericiliyə uyğun həlli ilə bağlı addımlar atılacağını bildirib.

Qəbulda iştirak edən şəhid ailələri və qazilərin qeyd etdikləri məsələlərə xüsusi diqqətlə yanaşılması, vaxtında və obyektiv baxılması ilə bağlı tapşırıqlar verilib.

# Raket və artilleriya bölmələrində təlim



**Azərbaycan Ordusu Quru Qoşunlarının raket və artilleriya bölmələrində atəş tapşırıqları icra olunub. Bu barədə XQ-yə Müdafiə Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, 2024-cü ilin hazırlıq planına uyğun olaraq, atəş dəstəyi həyata keçirəcək bölmələr daimi dislokasiya məntəqələrindən cəmləşmə rayonlarına çıxarılaraq atəş mövqelərini tutublar.

Real döyüş şəraitinə uyğun keçirilən təlimdə şərti düşmən hədəflərinin aşkar olunaraq sərrast atəşlə məhv edilməsi üzrə tapşırıqlar yerinə yetirilib.

Təlimin keçirilməsində əsas məqsəd raket və artilleriya bölmələrində komandirlərin idarəetmə vərdişlərinin təkmilləşdirilməsi, hərbi qulluqçuların bilik və bacarıqlarının artırılması, eləcə də döyüş əməliyyatları zamanı fəaliyyətlərin planlaşdırılması və digər qoşun növləri ilə qarşılıqlı əlaqənin inkişaf etdirilməsidir.

# İqtisadi Şuranın növbəti iclası

**Oktyabrın 10-da İqtisadi Şuranın növbəti iclası keçirilib.**



Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasda Prezident İlham Əliyevin sədrliyi ilə sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirədəki tapşırıqlardan irəli gələrək "Azərbaycan Respublikasında idxal-ixrac əməliyyatlarının tənzimlənməsi Qaydaları", ixrac əməliyyatları zamanı əldə olunmuş vəsaitin qanunvericiliyə uyğun olaraq 180 gün ərzində ölkəyə gətirilməsinin vəziyyəti, ixrac edilən malların sektorlar və ölkələr üzrə təsnifatı, fiziki və hüquqi şəxslər üzrə ölkəyə qaytarılmayan valyuta vəsaitləri, xarici valyuta vəsaitlərinin xaricdən qaytarılmaması ilə əlaqədar inzibati-cinayət məsuliyyəti tədbirləri barədə geniş müzakirələr aparılıb.

Məsələ ətrafında Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov, Mərkəzi Bankın sədri Taleh Kazımov və Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev çıxış ediblər.

Gündəliyin ikinci məsələsi - "Cənub Qaz Dəhlizi" Qapalı Səhmdar Cəmiyyətinin fəaliyyəti ilə bağlı məsələlər də ətraflı müzakirə olunub. İqtisadiyyat naziri Mikayıl Cabbarovun, SOCAR-ın prezidenti Rövşən Nəcəfin və Dövlət Neft Fondunun icraçı direktoru İsrafil Məmmədovun məsələ üzrə məruzələri dinlənilib.

Təqdim olunan məsələlər üzrə İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb.

İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

***XQ***

# Sahibə Qafarova Tacikistanda




**Milli Məclisin sədri Sahibə Qafarova Düşənbəyə səfəri çərçivəsində oktyabrın 11-də Tacikistan Konstitusiyasının 30 illik yubileyinə həsr olunmuş beynəlxalq parlament konfransında iştirak edib.**

Milli Məclisin sədri çıxış edərək parlamentə və bütün Tacikistan xalqına Konstitusiyanın 30 illiyi münasibətilə təbriklərini çatdırıb.

Sahibə Qafarova Azərbaycanın Tacikistan Prezident Emoməli Rəhmonun rəhbərliyi ilə sosial, iqtisadi və digər sahələrdə əldə etdiyi bütün uğurları yüksək qiymətləndirdiyini bildirib.

O, möhkəm təməl üzərində qurulan dövlətlərarası münasibətlərimizin yaranmasında Ümummilli lider Heydər Əliyevin və Tacikistan Prezidenti Emoməli Rəhmonun xüsusi rolunu qeyd edib. Milli Məclisin sədri prezidentlər İlham Əliyevin və Emoməli Rəhmonun şəxsi dostluq münasibətlərinin və qarşılıqlı anlaşmanın ölkələrimiz arasında ikitərəfli əməkdaşlığın möhkəmləndirilməsinə, eyni zamanda, inkişafına mühüm töhfələrini xüsusilə qeyd edib.

Azərbaycan və Tacikistan parlamentləri arasında əlaqələrdən danışan Milli Məclisin sədri bildirib ki, bu gün qanunverici orqanlarımız arasında həm ikitərəfli səviyyədə, həm də Parlamentlərarası İttifaq, MDB Parlamentlərarası Assambleyası, İslam Əməkdaşlıq Təşkilatının Parlament İttifaqı, Asiya Parlament Assambleyası və İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Assambleyası kimi parlamentlərarası təşkilatlar çərçivəsində çox səmərəli əməkdaşlıq qurulub.

*

**Həmin gün Milli Məclisin sədri Sahibə Qafarova Düşənbədə Özbəkistan Ali Məclisi Senatının sədri Tənzilə Narbayeva ilə görüşüb.**

Görüşdə Tənzilə Narbayeva qarşıdakı dövrdə iki ölkənin qanunverici orqanları arasında yüksək səviyyəli əməkdaşlığın və sıx təmasların davam etdiriləcəyinə əminliyini bildirib.

Sahibə Qafarova Azərbaycan və Özbəkistan arasında münasibətlərin ölkələrimiz müstəqillik əldə etdikdən sonra yeni mərhələyə yüksəldiyini diqqətə çatdırıb. Tərəflər ölkələrimiz arasında bir çox sahələri əhatə edən geniş əlaqələrin inkişafında dövlət başçılarının rolunu xüsusi vurğulayıblar.

Söhbət zamanı dost ölkələrimiz arasında əməkdaşlığın dinamik inkişafının qanunvericilik orqanları arasında da əlaqələrin daha da genişlənməsini şərtləndirdiyi diqqətə çatdırılıb. Parlament sədrləri son illərdə həm Azərbaycanda, həm də Özbəkistanda keçirilən ikitərəfli görüşlərini məmnunluqla xatırlayaraq, qarşılıqlı təmasların, səfərlərin əlaqələrimizə verdiyi mühüm töhfələri vurğulayıblar.

*

**Dünən Milli Məclisin sədri Sahibə Qafarova Düşənbə şəhərində Qazaxıstan Respublikası Parlamenti Senatının sədri Maulen Aşımbayev ilə də görüşüb.**

Senatın sədri Maulen Aşımbayev Milli Məclisə seçkilərin uğurla keçirilməsi və yenidən Azərbaycan parlamentinin sədri seçilməsi münasibətilə Sahibə Qafarovanı təbrik edib. O, Azərbaycanın ölkəsi üçün çox mühüm və etibarlı tərəfdaş olduğunu və Qazaxıstanın Azərbaycanla münasibətlərin inkişafına böyük əhəmiyyət verdiyini bildirib.

Sahibə Qafarova təbriklərə görə minnətdarlığını bildirərək, Qazaxıstan Respublikası Parlamenti Senatının sədri ilə bundan əvvəl keçirdiyi görüşləri xatırladıb.

Görüşdə son illərdə parlament rəhbərləri səviyyəsində həyata keçirilən mütəmadi qarşılıqlı səfərlərin və görüşlərin əlaqələrin inkişafına xüsusi töhfəsi qeyd olunaraq, hər iki ölkənin parlamentlərində mövcud olan dostluq qruplarının fəaliyyəti də müsbət qiymətləndirilib.

***XQ***

# Azərbaycan–Mərakeş əlaqələri yeni mərhələdə

**Mərakeş Krallığının paytaxtı Rabatda "Mərakeş–Azərbaycan münasibətləri: tarix və çağırışlar" adlı seminar keçirilib. Məclisdə Azərbaycan ilə Mərakeş arasında əlaqələrin tarixinə və hazırkı vəziyyətinə nəzər salınıb, perspektivlər barədə danışılıb.**



İbn Zöhr Universitetinin müəllimi Casim Salah ölkələrimiz arasında möhkəm siyasi əlaqələrin mövcud olduğunu bildirib, iki dövlət arasında viza tələbinin ləğvinin iqtisadi mübadiləni intensivləşdirəcəyinə, birbaşa xarici investisiyaları stimullaşdıracağına və sərmayədarların fəaliyyətini asanlaşdıracağına, eləcə də turizmi təşviq edəcəyinə inandığını deyib.

Azərbaycanın Mərakeşdəki səfiri Nazim Səmədov ölkələrimiz arasında mövcud olan yüksək səviyyəli diplomatik münasibətlərin tarixindən danışıb, qəbul edilmiş ikitərəfli proqramlar çərçivəsində iqtisadi, siyasi və mədəniyyət sahələrində əməkdaşlıq üçün atılmış mühüm addımlar barədə məlumat verib.

Azərbaycan–Mərakeş Dostluq Cəmiyyətinin sədri Məhəmməd Fakiri iki ölkə arasında inkişaf edən elmi-mədəni əlaqələrə toxunub, burada qarşılıqlı səfərlərin, birgə tədbirlərin və akademik əməkdaşlıq üzrə razılaşmaların rolundan danışıb. Jurnalist Həsən əl-Yusifi iqlim dəyişikliyi mövzusunun işıqlandırılmasında medianın önəmli rolunu qeyd edib.

Seminar çərçivəsində noyabrda Bakıda keçiriləcək COP29 ilə bağlı təqdimat edilib. İqtisadçı Rizvan Həmdi çıxışında bu beynəlxalq tədbiri xüsusilə maliyyələşmə və beynəlxalq əməkdaşlıq məsələlərində əvvəlki müzakirələri davam etdirmək üçün mühüm platforma kimi qiymətləndirib.

Sonda iştirakçılar Azərbaycan ilə Mərakeş arasında diplomatik, mədəni və sosial əlaqələrin tarixinin mərhələlərini əks etdirən fotosərgi ilə tanış olublar.

***XQ***

# Anti-Azərbaycan qüvvələr COP29-u təzyiq alətinə çevirməyə çalışırlar




**(əvvəli 1-ci səhifədə)**

Bəli, bir müddət öncə "Dağlıq Qarabağ ermənilərinin etnik təmizlənməsi günü"nü Avropa Parlamentində qeyd etmək təşəbbüsü ilə çıxış edən N.Luazo son fikirləri ilə COP29-a qarşı çıxmasının gerçək səbəbini ortaya qoymuş olub. Aydın olur ki, ölkəmizə edilən bu hücumlar 44 günlük Vətən müharibəsinin və lokal xarakterli antiterror tədbirlərinin nəticəsidir.

Son vaxtlar Qərb mediasında ölkəmiz əleyhinə sifarişli yazıların sayı da artıb. Redaksiyası Vaşinqtonda yerləşən, daha çox siyasət, biznes və beynəlxalq münasibətlərə diqqət yetirən "The Hill" qəzetində dərc olunmuş qərəzli məqalədə isə qeyd edilib ki, "Dağlıq Qarabağda ermənilərin etnik təmizləməsindən sonra" Azərbaycanda keçiriləcək COP29 sammiti onun legitimliyini şübhə altına alacaq. Bildirilib ki, konfransın Bakıda keçirilməsinə Azərbaycanda saxlanılan 32 nəfər erməni əsilli şəxsin ötən ilin dekabrında azad edilməsi müqabilində Ermənistanın vetosunun götürülməsindən sonra qərar verilib. Lakin qalan məhbuslar (?) hələ də Azərbaycanın cəzaçəkmə müəssisələrində saxlanılır.

COP29 ərəfəsində verilən anti-Azərbaycan açıqlamaları, yazılan məqalələri ümumiləşdirdikdə əsas məsələnin Ermənistanın 44 günlük İkinci Qarabağ müharibəsində sarsıdıcı məğlubiyyətə uğraması və 2023-cü ildə qondarma rejimin süqut etməsi, separatçı "qlavarlar"ın saxlanılaraq, Bakıya gətirilməsi ilə bağlılığı aydın olur. Ancaq biz indiyədək bu cür fəaliyyətləri çox görmüşük. Onların heç bir nəticəsi olmayıb. Vətən müharibəsindən sonra ölkəmizin gücünün daha da artdığı, xarici siyasətimizdə daha sərbəst olduğumuz indiki dövrdə onların nəticəsi heç olmayacaq. Zənnimcə, bu yerdə Prezident İlham Əliyevin oktyabrın 10-da Pre-COP29 tədbirinin iştirakçılarına müraciətindən iqtibas gətirmək yerinə düşər: "Burada bəzi media qurumlarının Azərbaycanın imicini ləkələmək məqsədi daşıyan qarayaxma kampaniyasına toxunmaya bilmərəm. Bu cəhdlər əbəsdir və bizi iqlim dəyişmələrinin mənfi təsirləri ilə mübarizə aparmaq üçün nəcib missiyamızı həyata keçirməkdən çəkindirə bilməz".

Azərbaycanın karbohidrogen ehtiyatlarına malik olması da bizə qarşı ittiham kimi istifadə olunmamalıdır. Bu iddialara da ən tutarlı cavabı Prezident İlham Əliyev vermişdi. Dövlətimizin başçısı 2024-cü il iyulun 20-də Şuşada keçirilən II Qlobal Media Forumunda bu barədə demişdi: "Ədalətsiz və ikili standartlara əsaslanan işıqlandırmaya gəlsək, biz bilirik ki, COP tədbirinin biri Qlazqoda – Böyük Britaniyanın neft hasil etdiyi bölgəsində keçirilirdi və heç kəs o zaman Böyük Britaniyanı ittiham etmirdi ki, onların neft və qazı var. Bu, məhz bizim dediklərimizin həqiqi olduğunu sübut edir. Bu tədbirin əhəmiyyəti, əlbəttə ki, bütün bu mənfi hallardan qat-qat çoxdur. Çünki bu, qlobal miqyasda ən mühüm hadisələrdən biridir. Bu, dünyada beynəlxalq arenada bir nömrəli konfransdır və ilk dəfədir ki, postsovet məkanında keçirilir. Bizim üçün bu, misilsiz bir şansdır ki, ən yüksək liqaya daxil oluruq. Biz təkcə təşkilati baxımdan işlər görmürük, mahiyyət baxımından da təşəbbüslər irəli sürürük. Biz inkişaf etmiş ölkələrlə fəal şəkildə işləyirik. Biz Qlobal Cənub və Qlobal Şimal arasında körpülər qururuq. Bizim üstünlüyümüz ondan ibarətdir ki, dörd il ərzində Qoşulmama Hərəkatına sədrlik etmişik. 120 ölkənin iştirakı ilə orada yekdil şəkildə sədr seçilmişdik və sədrlik müddətimiz də uzadıldı. Sədrliyimiz dövründə biz böyük nüfuz qazandıq".

Ümumiyyətlə, iqlim dəyişikliyi qərbli siyasətçilər tərəfindən çox tez-tez siyasi təzyiq aləti kimi istifadə olunur. Bu, onların klassik taktikasıdır. Hər il növbəti COP konfransı öncəsi Qərb bu tədbirin sədri olan dövlətə təzyiqi artırır. Biz bunu 2022-ci ildə Şarm-əl Şeyxdə keçirilən COP27 öncəsi, ötən il Dubayda keçirilən COP28 tərəflərin konfransı zamanı da görmüşük. İndi də uydurulmuş bəhanə altında COP29-un sədr dövləti Azərbaycana təzyiqin artırıldığını müşahidə edirik. Amma bu dairələr birdəfəlik anlamalıdırlar ki, Azərbaycana təzyiq göstərmək faydasızdır.

**Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz Milli Məclisin deputatı Ceyhun Məmmədov** təəssüflə bildirdi ki, Azər-



baycanın yürütdüyü siyasətə qarşı bu gün Qərbin bir sıra dövlətləri tərəfindən qarayaxma kampaniyası həyata keçirilir. Onun sözlərinə görə, ölkəmiz məqsədli şəkildə hədəfə alınır: "Biz bu addımların qərəzli xarakter daşıdığının açıq-aydın şahidləriyik. Söhbət ondan gedir ki, ölkəmiz olduqca mötəbər tədbirə evsahibliyi etməyə hazırlaşır. Azərbaycan bunun üçün üzərinə düşən öhdəlikləri və vəzifələri ləyaqətlə yerinə yetirir. Bu gün Azərbaycan iqlim dəyişiklikləri və onun yaratdığı fəsadların qarşısının alınması ilə bağlı təşəbbüslərə dəstək verir. Çox böyük və olduqca önəmli silsilə tədbirlərin keçirilməsinə evsahibliyi edir. Amma biz bunun qarşılığında ölkəmizə qarşı haqsız, əsassız tənqidləri görürük. Cənab İlham Əliyev də bugünlərdə bildirdi ki, bu gün biz qlobal istiləşmə ilə bağlı günahkar axtarmağa yox, vəziyyətdən çıxış yolları tapmağa çalışmalıyıq. Yaxşı olar ki, dünya dövlətləri bu barədə düşünsünlər və əməkdaşlıq etsinlər".

C.Məmmədov dedi ki, bu gün planetin qarşısında dayanan missiya bundan ibarətdir. Bu gün urbisid, ekosid, kultursid, terror törədən ölkələrə qarşı heç bir addım atılmır. Ancaq Azərbaycana qarşı təxribat xarakterli addımların atıldığını görürük. Bu mənada üzərimizə vacib vəzifə düşür ki, biz missiyamızı uğurla davam etdirməliyik. Bütün bunlar bizi haqlı mövqeyimizdən çəkindirə və qarşımızı ala bilməz: "Biz, eyni zamanda, həmin qüvvələrə mesaj veririk ki, siz yanlış yoldasız. Bu gün Azərbaycanın qlobal istiləşməyə qarşı mübarizədə səyləri dəstəklənməli və yüksək qiymətləndirilməlidir. Çalışmalıyıq ki, planetimizi xilas edək. Bu gün Azərbaycanın istədiyi də planetin üzləşdiyi problemlərdən çıxış yollarının tapılmasıdır".

Müsahibimiz Azərbaycana qarşı aparılan bu qarayaxma, ölkəmizi ləkələmə kampaniyasının heç bir nəticə verməyəcəyini vurğuladı: "Düşünürəm ki, bu kampaniya heç bir nəticə verməyəcək. Çünki Azərbaycanın hansı yolla getməsi, hansı addımları atması bu gün bütün dünyanın gözü önündədir. Biz haqq yolundayıq və dünyaya töhfə verəcək işləri həyata keçirməyə çalışırıq. Ona görə də bu cür cəhdlər, addımlar, yanaşmalar bizi mövqeyimizdən çəkindirə bilməz. Biz bu siyasəti davam etdirəcəyik".

**Politoloq Ramiyə Məmmədova** isə XQ-yə açıqlamasında dedi ki, Azərbay-



canın beynəlxalq münasibətlər sistemində yeri möhkəmləndikcə, dünya dövlətləri arasında nüfuzu artdıqca bədxahlarımızın da sayı artır və fəaliyyətləri güclənir. Bu, bir həqiqətdir və bunu heç zaman unutmaq lazım deyil: "Son vaxtlar Azərbaycanın yürütdüyü aktiv siyasəti nəzərə almaq lazımdır. Bütün dünya ölkələri görürlər ki, Azərbaycan yalnız inkişaf edir. Ölkəmiz 44 günlük Vətən müharibəsindən sonra nəqliyyat-logistika sahəsində də dünya miqyasında ciddi rol oynamağa başlayıb. Yeri gəlmişkən, burada 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması da qeyd etmək lazımdır. Şuşa Bəyannaməsi dünyaya bir daha nümayiş etdirdi ki, Azərbaycan–Türkiyə qardaşlığı sarsılmazdır. Azərbaycan və Türkiyə arasındakı münasibətlərin yeni inkişaf mərhələsi məhz həmin gün başladı.

Həmçinin, Rusiya ilə də əlaqələr 2022-ci il fevralın 22-də Moskvada imzalanmış "Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında Bəyannamə" ilə üstün səviyyəyə qaldırılıb. Azərbaycan paytaxtı bu gün mühüm qlobal məsələlərin müzakirə olunduğu məkandır. Bakıda keçirilən tədbirlər isə Azərbaycanı sevməyən qüvvələrin əlində hər zaman ölkəmizə qarşı əsassız təzyiq alətinə çevrilib".

İndi də paytaxtımızda daha yüksək səviyyəli bir tədbirin keçiriləcəyini qeyd edən R.Məmmədova bildirdi ki, hazırda COP29-a hazırlığın son mərhələsinə qədəm qoymuşuq. Prezident İlham Əliyev bugünlərdə baş tutan Pre-COP29 tədbirinin iştirakçılarına müraciətində bəşəriyyət naminə konstruktiv şəkildə və xoş məramla əməkdaşlıq etməyə çağırdı: "Cənab İlham Əliyev qeyd etdi ki, dövlətlərin ümumi, lakin fərqli öhdəlikləri olsa da, onlar fikir ayrılıqlarını bir kənara qoymalı, bir-birini günahlandırmağı dayandırmalı və ortaq məxrəcə gəlməlidirlər. Qlobal istiləşmədə kimin günahkar olduğunu və ya kimin ətraf mühitə daha çox ziyan vurduğunu müəyyənləşdirmək üçün vaxt itirməyə haqqımız yoxdur".

Politoloq qeyd etdi ki, həqiqətən də, COP29 kimi bir tədbiri siyasiləşdirmək və ondan öz məqsədləri üçün istifadə etməyə çalışmaq bəşəriyyətin gələcəyini düşünməyən, yalnız xəbis niyyətli insanların işi ola bilər.

*Səxavət HƏMİD*
*XQ*

---

Günün sualı

**Saxta xəbərlərin kəmiyyət baxımından artması, qlobal informasiya məkanında yüksək paya malik olması ona qarşı mübarizə tədbirlərinin görülməsini zərurətə çevirir. "Feyk xəbər"lə mübarizə tədbirləri əsasən 3 istiqamət üzrə aparılır.**

# Dünya "feyk xəbər"lə necə mübarizə aparır?



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

İlk istiqamət maarifləndirmə və məlumatlandırma tədbirlərini ehtiva edir. Ehtimal olunur ki, yeni media vasitələrinin inkişafı, o cümlədən, sosial şəbəkə platformalarının çoxalması paralel olaraq saxta xəbərlərin artımını stimullaşdırır. Yəni, sosial şəbəkə istifadəçilərinin xəbər standartları barədə bilgilərinin aşağı olması, xəbərə yanaşma keyfiyyətini aşağı salır. Beləliklə, saxta xəbərlərin yayılması üçün şərait yaranır. Bu kontekstdə həm media savadlılığının, həm də informasiya savadlılığının artırılması tövsiyə edilir. Məlumat üçün deyək ki, media savadlılığı xəbər istehlakçılarının, informasiya savadlılığı isə xəbər istehsalçılarının maarifləndirilməsi, bilik və bacarıqlarının artırılmasını əhatə edir.

İnformasiya savadlılığının yüksəldilməsi üçün fərqli formatllarda maarifləndirici və tövsiyəverici sənədlər tərtib edilir. Məsələn, İnternet informasiya resurslarında etik prinsiplərin qorunması üçün "Netiket" adlandırlan qaydalar toplusu tətbiq olunur. Onun ilk nümunəsi 1980-ci illərin sonlarında məşhur "Fidonet" şəbəkəsinin üzvləri tərəfindən yaradılıb. Sonralar veb-şəbəkənin inkişafı nəticəsində bu qaydalar dəyişikliklərə uğrayıb. "İnternet Sosiety" təşkilatı 1995-ci ildə internet istifadəçiləri üçün təkmilləşdirilmiş kodeksi ("RFC-1855" Request for Comments) dərc edib. Bu kodeks internet informasiya resurslarında şəxsiyyət əleyhinə təhqir, plagiat halları ilə yanaşı, yalan informasiyaları da yasaqlayır.



Web-2 konsepsiyanın müəllifi Tim Oreyli və "Vikipediya" sisteminin yaradıcısı Cimmi Uels tərəfindən "Blogerin davranış kodeksi" adlı xüsusi kitabça tərtib olunub. 7 bənddən ibarət olan bu kodeks insanı təhqir və təhdid edən, üçüncü tərəfin şəxsi həyatına müdaxilə edən, müəllif hüququnu pozan və nəhayət, yalan məzmun daşıyan kontentin yayılmasını yolverilməz sayır.

Ötən illər ərzində "Netiket"lərlə yanaşı, "Etik xartiya"lar da tərtib olunub. Xəbər istehsalçıları üçün nəzərdə tutulan "Etik Xartiya" Beynəlxalq Jurnalistlər Federasiyası (JBF-IFJ) tərəfindən 12 iyun 2019-cu ildə yeniləşdirilib. "Jurnalistlərin Beynəlxalq Etika Xartiyası" adlandırılan bu sənəd təkcə media subyektlərində dərc edilən məlumatları deyil, yeni versiyası ilə həm də internet informasiya resurslarında yayılan məzmunu əhatə edir. Xartiya istənilən platformada yalan, saxta xəbərin tirajlanmasını pisləyir.

Beynəlxalq jurnalist təşkilatları bildirirlər ki, yeni texnologiyalar, xüsusilə, "süni intellekt" proqramları dezinformasiyaların yayılması üçün münbit şərait yaradır. Bu kontekstdə hazırlanmış "Paris Xartiyası" süni intellektdən xəbər istehsalında istifadə olunmasının etik standartlarını müəyyən edir. O da plagiat, "feyk xəbər", həmçinin dezinformasiyanın yayılmasına qarşıdır. "Süni intellekt və jurnalistika üzrə Paris Xartiyası" 10 noyabr 2023-cü ildə beynəlxalq jurnalist təşkilatının birgə fəaliyyəti ilə hazırlanıb. Xartiyanı 17 beynəlxalq jurnalist təşkilatı imzalayaraq qəbul edib və bununla da sənəd beynəlxalq status qazanıb. 10 maddədən ibarət olan xartiya yalan, qərəz və qeyri-dəqiq məzmundan ibarət olan məlumatların yayılmasını yolverilməz sayır.

Saxta xəbərlərin yeni media sferasında yayılmasının qarşısını almaq üçün "Netiket", "kodeks" və "xartiya"larla yanaşı, texniki vasitələrin tərtibinə də önəm verilir. Beləliklə, "feyk xəbər"lə mübarizə tədbirləri yönündə 2-ci istiqamət, yəni, texniki tətbiqlər gündəmə gəlir.

Məşhur "fakt yoxla" (Fact-checking) platforması bu məqsədlə yaradılıb. Fakt yoxlayan veb-saytlar həm siyasi, həm də qeyri-siyasi mövzular haqqında faktların yoxlanılmasına kömək göstərirlər. Platforma effektiv olduğu üçün inkişaf etdirilib və beynəlxalq şəbəkəyə çevrilib. "International Fact-Checking Network" bu sahədə örnəkdir. Bu platforma insanlara şübhəli yanaşdıqları informasiyaları araşdırmaq, yanlışlığı aşkarlamaq, həqiqəti bilmək üçün fürsət yaradır. Fakt yoxla funksiyası daşıyan milli saytın Beynəlxalq faktyoxlama şəbəkəsinin üzvü olması bu təşkilatın etibarlılığını müəyyən etməyə yardım göstərir. 2015-ci ildə Poynter İnstitutu tərəfindən yaradılmış Beynəlxalq fakt yoxlama şəbəkəsi (İFCN) faktların yoxlanılması ilə məşğul olan üzv təşkilatlar üçün etik kodeks tərtib edib. IFCN lokal fakt-yoxlayıcılarının fəaliyyətlərinin bu kodeksə uyğunluğunu nəzərdən keçirir və müsbət nəticə əldə edənlərə sertifikat verir. "Fakt-cheker"lər hər il təkrar yoxlamadan keçməlidirlər. IFCN 2024-cü ilin iyul ayına kimi 170 təşkilatı üzv kimi siyahıya alıb.

Beynəlxalq Kitabxana Assosiasiyaları və İnstitutlar Federasiyası (IFLA) isə insanlara saxta xəbərləri tanımaqda kömək etmək üçün diaqram şəklində xülasə hazırlayıb. Sənəddə əks olunmuş 14 bənddən 2-si xüsusilə diqqət çəkir. 1-ci bənddə qeyd edilir ki, "feyk xəbər"i gerçək xəbərdən fərqləndirmək üçün öncə müəllifin, sonra da istinad olunmuş mənbənin legitimliyinə diqqət yetirilməlidir . Əgər mənbə və müəllif legitimdirsə, onda xəbərin saxta olması yönündə şübhələr də azalır. 2-ci bənddə isə tövsiyə olunur ki, sensasiyalı və şübhəli görünən məlumatın digər KİV və sosial şəbəkə hesablarında paylaşılmasına diqqət yetirilsin. Xəbər digər resurslar tərəfindən paylaşılmayıbsa, onun şübhəlilik dərəcəsi artır.

Tətbiq edilən texniki proqramlar, maarifləndirmə tədbirləri də saxta xəbərlərin qarşısını almaq üçün kifayət etmir. İndiki dövrün ən böyük problemi odur ki, "feyk xəbər" həm də legitim qurumlar tərəfindən yaradılır və yayılır. Məsələn, əvvəlki məqalələrimizdə ABŞ, Fransa, Ermənistan rəsmilərinin dilindən səslənən saxta xəbərlərdən nümunələr vermişdik. Legitim mənbə hesab olunan bu təsisatların özlərinin dezinformasiya yayıcısı rolunda çıxış etmələri "feyk xəbər"i qarşısıalınmaz müşkülə çevirir. Problem qloballaşır və ona qarşı kompleks proqramların hazırlanması, qanunvericilik müstəvisində mübarizənin təşkil edilməsi zərurəti yaranır. Beləliklə, "feyk xəbər"lə mübarizə tədbirlərinin 3-cü istiqaməti hüquqi-inzibati yolla tənzimləmə metodu ortaya çıxır.

Bu baxımdan, ayrı-ayrı dövlətlər tərəfindən təşəbbüslər göstərilir. Məsələn, "Dezinformasiyaya qarşı mübarizə qanunu" formasında hüquqi aktlar tətbiq edilir. Yaxud, ayrı-ayrı ölkələrdə "Dezinformasiyaya qarşı mübarizə agentliyi" formasında rəsmi təsisatlar yaradılır. Fransa, Almaniya, Türkiyə, Çin, Rusiya və başqaları bu sahədə uğurlu modellər yarada biliblər.



# Siyasi varislikdən siyasi liderliyə

## *Böyük gələcəyin strategiyası*

**İsa HƏBİBBƏYLİ,**
**Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti, akademik**

### III HİSSƏ

**Yeni tarixi dövrün vəzifələrini və hədəflərini müəyyən etmək baxımından Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin andiçmə mərasimi xüsusi əhəmiyyətə malik olan mühüm siyasi hadisədir.**

Andiçmə mərasimi Azərbaycan dövlətinin müstəqillik tarixinin şərəfli bir dövrünün yekunu, ölkəmizin həyatında yeni tarixi mərhələnin başlanğıcıdır.

Prezident İlham Əliyev Azərbaycan Respublikasının Milli Məclisində 2024-cü il fevralın 14-də keçirilən andiçmə mərasimində müstəqil dövlətimizin keçdiyi keşməkeşli və şərəfli inkişaf yolunun əsas nəticələrini təhlil edərək obyektiv surətdə dəyərləndirmişdir. Azərbaycan xalqının lideri keçilmiş yola nəzər salarkən ilk növbədə, haqlı olaraq, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi sahəsindəki tarixi zəfərləri diqqət mərkəzinə çəkmişdir.

Dövlət başçısı mövcud reallığa uyğun olaraq ərazi bütövlüyünün təmin edilməsi məsələsinə bir-birini tamamlayan iki mərhələ üzrə qiymət vermişdir. İlk növbədə 44 gün ərzində Qarabağda qazanılan Zəfər "şanlı tarixi hadisə" kimi qiymətləndirilmişdir: "Verdiyim vədlər arasında, təbii ki, ilk növbədə, ərazi bütövlüyünün bərpası idi. O vaxt (2003-cü ildə - İ.H.) və ondan sonrakı illərdə... demişdim ki, heç vaxt Azərbaycan xalqı öz ərazisində ikinci erməni dövlətinin yaradılmasına imkan verməyəcək və nəyin bahasına olursa-olsun biz öz torpaqlarımızı azad edəcəyik... Azərbaycan xalqı bir yumruq kimi birləşərək Vətən müharibəsi nəticəsində torpaqlarımızın böyük hissəsini azad etmişdir. 300-dən çox şəhər və kənd azad olmuşdur, o cümlədən bizim mədəniyyət paytaxtımız Şuşa şəhəri işğaldan azad edilmişdir. Biz qan tökərək, şəhidlər verərək, tarixi ədaləti bərpa etdik. Allah şəhidlərimizə rəhmət eləsin. Biz onların və on minlərlə Azərbaycan gəncinin şücaəti, fədakarlığı sayəsində bu gün azad Qarabağda yaşayırıq, ərazi bütövlüyümüzü bərpa edən, öz ləyaqətini bərpa edən xalq kimi qururuq, yaradırıq... İkinci Qarabağ müharibəsi bizim şanlı tariximizdir... Biz döyüş meydanında cəmi 44 gün ərzində Ermənistan ordusunu tamamilə darmadağın etmişik."

Prezident nitqində Azərbaycanın ərazi bütövlüyünün təmin olunması üçün 2023-cü ilin sentyabr ayında keçirilmiş birgünlük hərbi əməliyyat haqlı olaraq "çoxəsrlik tariximizdə xüsusi yerə malik tarixi hadisə" hesab edilmişdir. İlk dəfə olaraq Azərbaycan Respublikasının bütün ərazisinin dövlətimizin nəzarətinə qaytarılması, üçrəngli dövlət bayrağımızın torpaqlarımızın hər yerində dalğalandırılması birgünlük antiterror tədbirlərinin "tarixi hadisə" adlandırılmasına tam əsas verir: "Sentyabr ayında keçirilmiş antiterror əməliyyatı bir daha Silahlı Qüvvələrimizin gücünü göstərdi. Cəmi bir neçə saat ərzində Ermənistan ordusunun təxminən 15 minlik ekspedisiya korpusu tamamilə iflic vəziyyətinə salınmışdır və onlar ikinci dəfə kapitulyasiya aktına imza atmağa məcbur olmuşlar. Bununla da Azərbaycan ərazisində separatizmin kökü kəsildi. Bununla da Azərbaycan həm ərazi bütövlüyünü, həm də dövlət suverenliyini tam bərpa etdi. Bu, tarixi hadisədir və bu tarixi hadisə bizim çoxəsrlik tariximizdə xüsusi yerə malikdir."

Prezident İlham Əliyevin qiymətləndirmələrində ərazi bütövlüyünün tam təmin edilməsinin mənbəyinin Azərbaycan xalqı olduğu xüsusi vurğu ilə qeyd edilmişdir. Bundan başqa, Prezidentimiz tərəfindən xalqımızın birliyi və həmrəyliyi, Azərbaycan Ordusunun gücü və qüdrəti, gənc əsgərlərin vətənpərvərliyi, multikultural dəyərləri kimi mühüm amillər Vətən müharibəsində Qələbəmizi təmin edən əsas faktorlar kimi dəyərləndirilmişdir.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan müxtəlif xalqların birliyi və həmrəyliyini həm Qarabağ müharibəsindəki tarixi Zəfərin qazanılması və həm də ölkəmizə xaricdən edilən təhdidlərin qarşısının alınması üçün ən zəruri faktorlardan biri hesab etmişdir. Dövlət başçımızın nitqində azərbaycançılıq ideologiyası əsas birləşdirici faktor kimi əsaslı şəkildə diqqət mərkəzinə çəkilmiş və bu sahədə qarşıda duran vəzifələrə işıq salmışdır: "Azərbaycançılıq ideologiyası, azərbaycançılıq prinsipləri Azərbaycanda çoxdan bərqərar olub."

Prezident İlham Əliyevin andiçmə mərasimindəki nitqi müstəqil dövlətimizin yeni tarixi dövrü üçün mükəmməl dövlət proqramıdır. Xalqımızın və dövlətimizin yeni tarixi dövrdəki strategiyası və taktikasını özündə əks etdirən dərinməzmunlu və praqmatik ruhlu bu nitqdə bütün istiqamətlər üzrə yaxın və uzaq dövr üçün xalqımızın və müstəqil Azərbaycan dövlətinin qarşısında duran ən mühüm vəzifələr əsaslandırılmış şəkildə bəyan olunmuşdur. Başqa sözlə, Prezident İlham Əliyevin irəli sürdüyü müddəalar Azərbaycan Respublikasının mükəmməl Yol Xəritəsidir.

Azərbaycan Respublikasında post-müharibə dövründə Silahlı Qüvvələrin inkişaf etdirilməsi, güclü hərbi-sənaye kompleksinin formalaşdırılması, sərhədlərimizin daha da möhkəmləndirilməsi prioritet məsələlərdən biri kimi həmin nitqdə irəli sürülmüşdür. İran İslam Respublikası ilə həmsərhəd olan işğaldan azad edilmiş ərazilərdə sərhədlərimizlə əlaqədar bütün məsələlərin həlli də orada öz əksini tapmışdır.

Çox əlamətdar haldır ki, Ermənistan Respublikası ilə də şərti sərhədlər müəyyən olunmuş və sərhədçəkmə işində mühüm bir nailiyyət baş tutmuşdur. Azərbaycan Respublikasının Qazax rayonu ilə Ermənistan Respublikasının sərhədlərinə ilk sərhəd dirəkləri basdırılmışdır. I Qarabağ müharibəsi zamanı Qazax rayonu ərazisində işğal edilmiş 4 kənd heç bir hərbi əməliyyat keçirmədən Azərbaycan Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin iradəsi ilə azad edilmişdir. Azərbaycan dövləti Ermənistanla razılaşdırmaqla Qazax rayonunun işğaldan sülh yolu ilə azad edilmiş kəndlərinin ətrafında olan ərazilərdə delimitasiya tədbirlərinin həyata keçirilməsini davam etdirməkdədir. Bu, postmüharibə dövrünün ən böyük hadisələrindən biri olub, Böyük Sülh sazişinin bağlanmasına doğru atılmış mühüm addımdır. Artıq həmin ərazilərdə Azərbaycan Respublikasının Sərhəd Qoşunlarının hərbi hissələri yerləşdirilərək əsgəri xidmətə başlamışlar.

Azərbaycan Respublikasının Prezidenti yeni tarixi mərhələnin zəruri çağırışlarından bəhs edərkən texnoloji inkişafla əlaqədar problemlərin həllini diqqət mərkəzinə çəkmişdir. Problemin dünya ölkələri üçün əhəmiyyətini nəzərə alan ölkə rəhbəri məsələnin aparıcı istiqamətlərini önə çəkməklə yanaşı, mövzuya kompleks şəkildə yanaşaraq, bu sahə üzrə bütün zəruri tədbirləri tam halda həyata keçirməklə müsbət nəticə əldə etməyin mümkünlüyünü diqqət mərkəzinə çəkmişdir: "Vacib vəzifələrdən biri texnoloji inkişafımızdır. Bu gün ...texnoloji inkişaf və üstünlük böyük əhəmiyyət daşıyır. ...Biz, əlbəttə ki, ...texnoloji inkişafa böyük dəstək veririk, ancaq ... kadr hazırlığı olmadan heç bir texnoloji yenilik kifayət etməyəcək.

...Texnoloji inkişaf, rəqəmsallaşma, kibertəhlükəsizlik, süni intellektin tətbiq edilməsi – bütün bunlar bizim gündəlik həyatımızın əlamətlərinə çevrilməlidir. Dövlət qurumları, özəl sektor və cəmiyyətin bütün digər seqmentləri buna hazır olmalıdırlar. Əks-təqdirdə, biz geridə qalacağıq.

... Hesab edirəm ki, bütün qurumlar və eyni zamanda, cəmiyyət bunu da vəzifə kimi bilməlidir və görməlidir."

Azərbaycan Respublikasında IV Sənaye İnqilabının çağırışlarının ölkə reallıqları ilə əlaqəli şəkildə dəyərləndirilərək, həyata keçirilməsi istiqamətində atılan addımlar bütün sferalarda texnoloji proseslərin miqyasının genişləndirilməsini şərtləndirir. Bu proses iqtisadiyyatda və xüsusən də yeni sənayeləşmə hərəkatında daha aydın şəkildə müşahidə olunur. Süni intellekt artıq Azərbaycan iqtisadiyyatına və yeni sənayeləşməyə doğru irəliləməkdədir. Ölkəmizdə rəqəmsal transformasiyaların tətbiqi imkanlarının genişlənməsi nəqliyyat, avtomatik idarəetmə sistemləri, müdafiə sənayesi, rabitə sektoru və digər sahələrdə yeniləşmə və inkişafa stimul verir. Elm sahəsində süni intellektə və rəqəmsal inkişafa, smart texnologiyalarına diqqətin artması bu istiqamətdə məqsədyönlü proqnozlaşdırılmaların aparılması və yüksək ixtisaslı mütəxəssislərin hazırlanması yolunda perspektivlər açır.

Məlum olduğu kimi, Azərbaycan Respublikasında həmişə Türk dünyası ilə əlaqələr müstəqil dövlətimizin diqqət mərkəzində olmuşdur. Türk Dövlətləri Təşkilatının 3 oktyabr 2009-cu il tarixdə Naxçıvanda keçirilən Zirvə toplantısında təsis edilməsi təsadüfi olmayıb, bu məsuliyyətli və zəruri vəzifənin həyata keçirilməsində ölkəmizin aparıcı rolunun ifadəsi aydın görünür. Ulu öndər Heydər Əliyevin Azərbaycan – Türkiyə münasibətlərinə aid irəli sürdüyü "Bir millət – iki dövlət" formulunun genişlənərək Türk dünyası ölkələrində qarşılıqlı inteqrasiyasının düsturuna çevrilməsi də ölkəmizin türk dövlətləri ilə əlaqələrə göstərilən böyük diqqətin ifadəsidir. Prezident İlham Əliyev andiçmə mərasimində bu barədə demişdir: "Türk Dövlətləri Təşkilatı çərçivəsində səylərimizi davam etdirməliyik. Bu, bizim üçün prioritetdir. Çünki, bu, bizim ailəmizdir. Bizim ailəmiz Türk dünyasıdır".

Mərasimdə səsləndirilmiş strateji əhəmiyyətə malik bu fikirlərdən cəmi 5 ay sonra Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə 6 iyul 2024-cü il tarixdə Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Zirvə görüşünün işğaldan azad edilmiş və böyük sürətlə yenidən qurulmuş Şuşa şəhərində keçirilməsi böyük siyasi tədbirdir. Türk Dövlətləri Təşkilatı Dövlət başçılarının Şuşa Zirvə görüşü Prezident İlham Əliyevin Türk Dünyası Proqramının növbəti təntənəsidir.

Prezident İlham Əliyev Türk dövlətləri arasında inteqrasiyanı daha da genişləndirmək və möhkəmləndirmək baxımından 14 fevral 2024-cü ildə Milli Məclisdə "Türk dünyası ailəsi" haqqındakı strateji hədəfləri Türk Dövlətləri Təşkilatının Dövlət başçılarının qeyri-rəsmi Şuşa Zirvəsində əldə etdiyi mühüm nəticələrlə mükəmməl şəkildə həyata keçirmişdir. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin Şuşa Zirvə görüşündə müzakirə etdikləri məsələlər Prezident İlham Əliyevin bu istiqamətdə irəli sürdüyü çağırışların Azərbaycan üçün olduğu qədər Türk dünyası üçün də, ümumən dünya birliyi üçün də əhəmiyyətli olduğunu nümayiş etdirir. Xüsusən, Azərbaycan xalqının lideri İlham Əliyevin Türk Dövlət başçılarının 6 iyul 2024-cü il tarixli qeyri-rəsmi Şuşa Zirvəsində səsləndirdiyi aşağıdakı müddəalar Türk dünyasını daha mühüm hədəflərə doğru inkişaf etdirməyə ünvanlanmışdır: "Türk dövlətləri ilə əlaqələrin genişləndirilməsi, TDT-nin gücləndirilməsi Azərbaycanın xarici siyasətinin prioritet istiqamətidir... Türk Dövlətləri Təşkilatı dünya miqyasında güc mərkəzlərindən birinə çevrilməlidir. Biz böyük coğrafi məkanları əhatə edirik, üzv dövlətlərdə müsbət demoqrafik dinamika müşahidə olunur. Hərbi potensialımız döyüş meydanında özünü dəfələrlə göstərmişdir. Zəngin təbii sərvətlərimiz, onların nəqli üçün müasir infrasturuktur, ...nəqliyyat dəhlizləri vardır. Zəngin və qədim tariximiz, mədəniyyətimiz bizim böyük sərvətimizdir. Xalqlarımızın ənənəvi dəyərlərə sadiqliyi və eyni etnik köklərə malik olmaları ölkələrimizi sıx birləşdirir. XXI əsr Türk dünyasının inkişafı əsri olmalıdır."

Türk Dövlətləri başçılarının Şuşa Zirvəsində 6 iyul 2024-cü il tarixdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə türk respublikalarının liderləri tərəfindən imzalanmış Qarabağ Bəyannaməsi Türk dünyasının inteqrasiyası və birliyi baxımından əldə olunmuş ən böyük nailiyyətdir. Bu, Türk Dövlətləri Təşkilatına üzv ölkələrinin dövlət başçılarının Türk dünyasında inteqrasiya proseslərinin sistemli və məqsədyönlü şəkildə həyata keçirilməsini təmin edən ilk kollektiv bəyannamədir. Qarabağ Bəyannaməsi Türk Dövlətləri Təşkilatının yeni tarixi mərhələdəki strategiyası və taktikasını müəyyən edən sənəd kimi də mühüm əhəmiyyətə malikdir. Bütün bunlara görə, obrazlı şəkildə demək olar ki, Qarabağ Bəyannaməsi Türk dünyasının Birlik, həmrəylik və əməkdaşlıq manifestidir.

# COP29 "Freedom House"un da yuxusuna haram qatıb

**(əvvəli 1-ci səhifədə)**

Bildirlib ki, noyabrın əvvəllərində dünya liderləri, ətraf mühit fəalları və tədqiqatçılar COP29 üçün Azərbaycanda toplaşacaqlar. Ardıcıl üçüncü ildir ki, konfransa ənənəvi yanacaq növlərindən əhəmiyyətli dərəcədə asılı olan dövlət evsahibliyi edəcək.

Hesabata belə yüngülvari müqəddimə verdikdən sonra "Freedom House" əsas mətləbə gəlib. Necə deyərlər, sözünün "mustafasını" deyib. Qeyd edib ki, Azərbaycan silahlı qüvvələri bir ildən çoxdur əvvəllər özünü idarə edən (?) Dağlıq Qarabağ ərazisinə hərbi hücuma keçərək, faktiki olaraq, bütün etnik erməni əhalini sıxışdırıb çıxarıb. Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınmış ərazisini azad etməsi, dövlət suverenliyinin təmin olunması istiqamətində ötən ilin sentyabrında atdığı addımlar "Dağlıq Qarabağ"ın (?) zorakılıqla ələ keçirilməsi" kimi qələmə verilib. Bildirilib ki, belə mötəbər tədbirin Azərbaycanda keçirilməsi potensial olaraq aktual qlobal problemlərin və çağırışların həlli səylərini, eləcə də çoxtərəfli forumların etibarını sarsıdır (?).

Beləliklə, bir daha aydın olur ki, COP29 yaxınlaşdıqca məlum anti-Azərbaycan qüvvələr insan hüquqları bəhanəsi ilə Azərbaycana qarşı hücumlarını intensivləşdiriblər. Erməni lobbisi ilə sıx əlaqəli olan "Freedom House" əvvəllər ermənipərəst motivlərini gizlətməyə çalışırdısa, artıq bunu açıq şəkildə edir. Bu hücumları həmin təşkilatın erməni mənşəli əməkdaşlarının özlərinin həyata keçirdikləri də çoxdan sübut olunub. Eyni zamanda, "Freedom House" irqçi düşüncəyə malik digər erməni aktivistlərin bütün hücumlarını dəstəkləyir.

Bu istiqamətdə fikirlərini öyrəndiyimiz **"Cənubi Qafqaz" politoloqlar klubunun rəhbəri, iqtisadiyyat üzrə fəlsəfə doktoru, siyasi şərhçi İlqar Vəlizadə**



bildirdi ki, "Freedom House", "Human Rights Watch", Demokratiyanın İnkişafı Fondu və İnsan Hüquqları üzrə Beynəlxalq Tərəfdaşlıq kimi təşkilatların son addımları bir daha göstərir ki, Azərbaycana qarşı aparılan kampaniya planlı, sistemli, koordinasiya olunmuş prosesdir və müxtəlif vasitələrlə həyata keçirilir.




Onun sözlərinə görə, bu təşkilatlar ABŞ-nin USAID təşkilatı tərəfindən maliyyələşdirilir. Burada müəyyən sifariş də özünü göstərməkdədir: "Əslində, tarixi təcrübə bu tipli addımların nə bir təsirinin, nə də nəticəsinin olduğunu göstərir. Sadəcə olaraq, onlar öz mövcudluqlarını, gərək olduqlarını, ayrılan vəsaitlərin "məqsədyönlü şəkildə" xərcləndiyini göstərmək üçün müxtəlif hesabatlar hazırlayıb yayırlar".

İ.Vəlizadənin fikrincə, burada təəssüf doğuran hal ondan ibarətdir ki, beynəlxalq, yəni, dünya miqyasında fəaliyyət göstərən hüquq-müdafiə təşkilatı olduqlarını bəyan edən bu qurumlar bir dəfə də olsun Azərbaycanın qaçqın və məcburi köçkün probleminə diqqət yetirməyiblər. Onlar heç vaxt bu məsələ ilə bağlı açıqlama verməyib, hesabatlar hazırlamayıb. Heç bir beynəlxalq tədbir öncəsi belə bir addım atmayıblar. Azərbaycanın təbii sərvətlərinin uzun illər mənimsənilməsi, istismar olunması, maddi və mədəni irs nümunələrinin dağıdılması, talan edilməsi ilə bağlı hər hansı çağırış etməyiblər: "İndi isə onlar ermənilərin, necə deyərlər, könlünü almaq, xoşlarına gəlmək üçün dəridən-qabıqdan çıxırlar. Yeri gəlmişkən, burada əsas məqsəd təkcə ermənilərin xoşlarına gəlmək deyil. Onlar haylardan istifadə edərək regionda məkrli planlarını həyata keçirmək niyyətindədirlər. Amma bütün hallarda əsas məsələ bundadır ki, bu siyasət mötəbər, müəyyən təsirə malik dairələr tərəfindən dəstəklənir. Bu da xoşagəlməz və təəssüf doğuran haldır".

Müsahibimiz qeyd etdi ki, ölkəmiz indiyədək bu qarayaxma kampaniyalarının heç birinə fikir verməyib və bundan sonra da verməyəcək. Əgər onlar ədalətli araşdırma aparmaq, hesabat hazırlamaq istəyirlərsə, təkcə erməni dostlarına deyil, eyni zamanda, Azərbaycan tərəfinə, yəni zərərçəkmiş tərəfə də müraciət etməlidirlər. Həmçinin, hesabat hazırlanarkən, baş vermiş hadisələrlə bağlı rəyləri soruşulanlar arasında təkcə ermənilər yox, azərbaycanlılar da olmalıdır. Yəni, obyektiv araşdırma bütün tərəflərin iştirak etdiyi araşdırmadır. Azərbaycanın iştirakı olmadan obyektiv araşdırma aparılmasından söhbət gedə bilməz.

***Səxavət HƏMİD***
***XQ***

# ABŞ-nin Cənubi Qafqaz siyasətində paradoks

**(əvvəli 1-ci səhifədə)**

Bu günlərdə Vaşinqtondan Azərbaycana açıq təzyiq siqnalları gəlməkdədir. Primitiv məzmunlu bu siqnalların birbaşa ölkənin yüksək səviyyəli siyasi şəxslərindən yox, onlara yaxın siyasi fiqurlardan gəlməsi də asan başa düşülən taktikadır. ABŞ siyasətçiləri ölkəmizə qarşı təzyiq siyasətini həm də 5-ci kolonun vasitəsilə aparır. Lakin Amerika siyasətçiləri bir şeyi anlamırlar ki, ABŞ-a və Avropaya sığınaraq onun büdcəsindən maliyyələşən və "insan hüquqları və söz azadlığı" pərdəsi altında gizlənən heç bir agent və ya onların xaricdə təsis etdikləri media qurumları Azərbaycan cəmiyyətini ABŞ-nin haqqın tərəfində olduğuna inandıra bilməz.

Buna hər şeydən əvvəl ABŞ-nin bölgəmizdə apardığı siyasət imkan yaratmır. ABŞ-nin həmişə birtərəfli qaydada Ermənistanın xeyrinə addımlar atdığını və Azərbaycanın maraqlarını nəzərə almadığını göstərən çoxsaylı təkzibedilməz faktlar var. Azərbaycan torpaqlarının işğala məruz qaldığı halda, Şuşanın və Laçının işğalı ərəfəsində, Xocalıda dinc azərbaycanlı əhaliyə qarşı ermənilər tərəfindən törədilmiş soyqırımı ərəfəsində Amerika Konqresində Azadlığa dəstək Aktına 907-ci düzəlişin qəbul edilməsini Azərbaycan xalqı hələ də anlamır və bunu siyasi əxlaqsızlıq aktı kimi qəbul edir. BMT üzvü olan müstəqil dövlətin ərazi bütövlüyünü dəstəkləmək əvəzinə Qarabağ separatçılarına ABŞ-dən hər il maliyyə yardımının ayrılması da Azərbaycanın suverenliyinə qarşı təcavüzə dəstək aktı kimi anlaşılır. ABŞ ideoloqlarının və onların Azərbaycanda və ABŞ-nin özündəki 5-ci kolonun isə buna inandırıcı izah və ya hər hansı əks arqument gətirmək imkanı yoxdur. Dünyada demokratiyanı və azadlığı dəstəklədiyini iddia edən ABŞ qonşu ölkənin 20% ərazisini işğal etmiş və etnik təmizləməyə məruz qoymuş, bölgədə Rusiyanın maraqlarını təmsil edən Ter-Petrosyan, Koçaryan və Sarqsyan hökumətlərinə dəstək verməsini hansı şüarlarla ört-basdır edə və ya izah edə bilər?!

Həmin illərdə Azərbaycan cəmiyyəti məhz BMT-dən, ABŞ-dən, NATO-dan və ümumiyyətlə, özünü ədalət etalonu adlandıran kollektiv Qərbdən beynəlxalq qanunlara istinad edərək dövlətimizin haqlı mövqeyinə dəstək verilməsini gözləyirdi. Lakin törətdiyi etnik təmizləməyə, ölkəmizin ərazilərinin 20%-nin işğalına, təbii sərvətlərimizin vəhşicəsinə talan edilməsinə, məscidlərimizin, mədəniyyət abidələrimizin dağıdılmasına, şəhərlərimizin, yurd yerlərimizin xarabazarlığa çevrilməsinə görə Ermənistana qarşı heç bir sanksiya tələbi ortaya çıxmadı. Azərbaycan Ermənistanı təkbaşına məğlub etdikdən, özünün suverenliyini və ərazi bütövlüyünü bərpa etdikdən sonra isə amerikalı konqresmenlər tərəfindən ölkəmizə qarşı fasiləsiz hücumlar başlandı. Azərbaycan cəmiyyəti aydın başa düşür ki, onların bir çoxu ABŞ-dəki erməni diasporu ilə sıx əlaqədə olan və erməni lobbizmi vasitəsilə külli miqdarda qeyri-qanuni gəlir əldə edən Robrt Menendes, Frank Pallone, Adam Şiff kimi korrupsionerlərdir. Onların arasında hətta Ermənistan maraqlarına xidmətlərinə görə Ermənistanın dövlət mükafatlarına layiq görülənlər də var.



Bütün bunlara görə Azərbaycan ictimaiyyəti haqlı olaraq bizdən ABŞ-nin Azərbaycan əleyhinə apardığı siyasətə Milli Məclis və hökumət tərəfindən adekvat cavab verilməsini gözləyir. Milli Məclis üzvlərinin Azərbaycan Respublikasının Xarici İşlər nazirinə rəsmi müraciət etməsinin səbəbi də elə budur. Biz torpaqlarımızın işğaldan azad edilməsi və bununla da beynəlxalq hüququn həyata keçirilməsi və ədalətin təntənəsi üçün canlarını fəda etmiş qəhrəmanlarımızın şücaətini və zəfərini sanksiya təzyiqləri ilə dəyərdən salmaq cəhdlərinə göz yuma bilmərik.

Təxminən 30 il ərzində ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin (ABŞ, Fransa və Rusiya) bölgədəki status-kvonu saxlamaq cəhdlərinə baxmayaraq, Azərbaycan öz gücünə erməni işğalına son qoyub. Məhz həmsədr ölkələrin yerinə yetirməli olduğu BMT qətnamələrini Azərbaycan dövləti və Ordusu təkbaşına icra edib. Ermənistan isə cəmi son iki il ərzində ABŞ başda olmaqla Rusiyaya qarşı formalaşmış Qərb koalisiyası tərəfindən qoyulmuş sanksiyalardan yan keçməklə Rusiya ilə ticarət dövriyyəsini 15 milyarda yaxınlaşdırıb. Bunu Rusiya prezidenti Vladimir Putinin Ermənistanın baş naziri Nikol Paşinyanla sonuncu Moskva görüşündə açıqladığı rəqəmlər də sübut edir. "Ticarət dövriyyəsi ötən il 7,4 milyard dollara çatıb, bu ilin birinci yarısında isə 2,5 dəfə artıb. Əgər biz bu templə hərəkət etsək, bu o deməkdir ki, bu il ticarət dövriyyəsi 14-16 milyard dollara çata bilər ki, bu da rekord göstəricidir". Ermənistan kimi cırtdan bir dövlətin Rusiya ilə 15 milyard dollarlıq ticarət dövriyyəsinin nədən ibarət olduğunu anlamamaq mümkün deyil. Aydındır ki, praktiki olaraq heç bir istehsalı olmayan kiçik Ermənistanla Rusiya arasında bu həcmdə ticarət dövriyyəsi yalnız erməni tərəfinin Qərbin sanksiyalarından yan keçməsində iştirakı ilə mümkündür. Bütün bunların Vaşinqtondan görünməməsi mümkün deyil. Onların Ermənistanla İran arasındakı sıx əlaqələrdən də kifayət qədər xəbəri var. Əslində, İrəvan və Tehran özləri də isti münasibətlərini heç vaxt gizlətməyiblər. Deməli, Rusiya və İrana qarşı kimi görünən ABŞ əslində Rusiya ilə ticarət dövriyyəsini sürətlə artıran, İranla hərbi-siyasi müttəfiqliyini dərinləşdirən Ermənistanı dəstəkləyir. Paradoks göz qabağındadır.

Bütün bunlardan yalnız bir nəticə çıxarmaq mümkündür: ABŞ və Avropa Birliyinin Ermənistanın işğalçı – revanşist maraqlarına uyğun olaraq Azərbaycana təzyiq göstərmək cəhdləri siyasi ikiüzlülükdən başqa bir şey deyil. Belə bir paradoksal vəziyyətdə Azərbaycan hökumətinin addımları daha praqmatik və daha təsirli olmalıdır. Mövcud reallıqları nəzərə alaraq Azərbaycan ABŞ-la siyasi münasibətlərini minimum səviyyəyə endirməlidir. Cənubi Qafqaz bölgəsinin ümumi iqtisadiyyatının 80%-dən çox hissəsinin Azərbaycana məxsus olduğunu nəzərə aldıqda bu ABŞ üçün bütün Cənubi Qafqazın faydalı tərəfdaş qismində itirilməsi anlamına gəlir. Şərq-Qərb və Şimal-Cənub tranzit yollarının Azərbaycanda kəsişməsi bütövlükdə Avrasiyanın vahid siyasi, iqtisadi və mədəni məkanda birləşməsinə xidmət edən bir dəyərdir və bu Azərbaycanın üstünlüyüdür. ABŞ isə erməni lobbisinin dayağında gedərək antiazərbaycan isteriyasını gücləndirməklə bu üstünlükdən qarşılıqlı şəkildə faydalanmaq fürsətini əldən verə bilər. Əgər ABŞ-la Azərbaycan arasında münasibətlərin harmoniyasını və praqmatikliyini dağıdan qüvvələrin son məqsədi budursa, rəsmi Vaşinqtonun "strateji dühasına" ancaq heyrətlənmək olar.

*Cavanşir FEYZİYEV,*
*Milli Məclisin deputatı,*
*fəlsəfə doktoru*

**Qars müqaviləsi – 103**

# Ermənilər imza atdıqları sənədlərə hörmətlə yanaşmırlar

## *Daşnak tör-töküntüsü Qars müqaviləsindən sonra da vay-şivən qoparmışdı*

**(əvvəli 1-ci səhifədə)**

Bu adamlar tarix boyu daim şərəfsiz yol keçdiklərinə görə həmin müqaviləni imzalayanları da şantaj etməkdən çəkinmirdilər. Bu, az imiş kimi, sənədə imza atmış Rusiyanı yeni münaqişəyə təhrik etməyə çalışır, Moskvanı Türkiyə, Azərbaycan və Gürcüstana təzyiq etməyə çağırırdılar. Hayların fikrincə, Qars müqaviləsi nəinki Ermənistana, elə Rusiyanın özünə də heç nə vermirdi. Məqalə müəllifi Moskvanı daha çox qıcıqlandırmaq üçün yazırdı ki, bu vəziyyət türk qoşunlarının təntənə ilə Moskvaya daxil olması, məğlub Rusiyaya öz iradələrini diktə etdirmələri təsəvvüratını yaradır: "Erməni xalqının "xilaskar Rusiyaya" bəslədiyi ümidlər, sadəcə yalandır və Rusiya digər imperialist dövlətlərindən özünün fərsizliyi və kütlüyü ilə fərqlənir, Ermənistan da onun qurbanıdır".

Müraciət etdiyimiz daha bir neçə materialda da qeyd edilir ki, ermənilər və ruslar sonrakı illərdə də Qars müqaviləsinin ləğvinə cəhd edəmiş və o çapalamalar həmişə uğursuzluqla nəticələnmişdi. Hətta İkinci dünya müharibəsindən sonra SSRİ Qars müqaviləsinin ləğv olunmasına və "Türkiyəyə verilmiş" əraziləri geri qaytarılmasına cəhd göstərmişdi. Belə ki, 1945-ci ilin iyununda SSRİ-nin Xarici işlər naziri Molotov Moskvadakı Türkiyə səfirinə Türkiyəyə verilmiş əraziləri geri qaytarılması tələbi ilə müraciət etmişdi. Bildirilir ki, həmin tələb Türkiyəni çıxılmaz vəziyyətdə qoyurdu. Çünki bir tərəfdən faşizm üzərində qələbədən sonra beynəlxalq nüfuzunu daha da artırmış SSRİ ilə münasibətləri korlamaq istəmir, digər tərəfdən isə mübahisəli ərazilərdən əl çəkmək ağlabatan deyildi.

Xatırladaq ki, Britaniya diplomatları hələ 1939-cu ildə SSRİ-nin Qars müqaviləsinin ləğvi məsələsini gündəmə gətirəcəyini söyləmişdilər. Ancaq Türkiyə müharibədən sonra fövqəlgüc kimi meydana çıxan Sovet İttifaqı ilə müharibəyə başlamaq istəmirdi. Bildirilir ki, hətta, 1945-ci ilin payızında Qafqazdakı Sovet qoşunları Türkiyəyə hücuma başlamaq üçün əmr gözləyirdilər.

Bu zaman bir məqamı xüsusilə vurğulamaq zərurəti var. Belə ki, İngiltərənin baş naziri Uinston Çörçill Moskvanın Türkiyəyə təzyiqlərinə qarşı çıxış etmişdi. Çünki əlavə ərazilərin əldə edilməsi onsuz da müharibədən sonra nüfuzunu artırmış SSRİ-nin öz təsirini daha da möhkəmləndirməsinə təkan verə bilərdi. ABŞ rəhbərliyi isə "məsələnin başqa tərəflərə aidiyyəti olmamasına" əsaslanaraq bitərəflik nümayiş etdirməyi üstün tutmuşdu. Nəticədə SSRİ Türkiyəyə qarşı olan ərazi iddialarından əl çəkmişdi.

Bəs Qars müqaviləsində nələr, hansı razılaşmalar var idi? Xatırladaq ki, bu müqavilə 1921-ci ilin sentyabr və oktyabrında Qarsda keçirilmiş konfransdakı danışıqların nəticəsi olaraq imzalanmışdı. Sənədi imzalayan tərəflər Cənubi Qafqaz respublikaları, Sovet Rusiyası və Türkiyə hökuməti idi. Həmin il oktyabrın 13-də imzalanmış müqavilə ilə Türkiyə və Cənubi Qafqaz respublikaları arasında digər məsələlərlə yanaşı, ərazi-sərhəd problemi də həll olunmuşdu. Bu müqavilənin əsas müddəaları Moskva müqaviləsinin (1921-ci il martın 16-da RSFSR ilə Türkiyə arasında imzalanmış "Dostluq və qardaşlıq haqqında" müqavilə nəzərdə tutulur) müvafiq maddələri ilə üst-üstə düşürdü. Ona görə də Qars müqaviləsinin Moskva müqaviləsi ilə müəyyənləşdirilmiş müddəaların təsdiq edilməsi üçün imzalandığını da deyirlər. Müqaviləyə görə, Türkiyənin şimal-şərq sərhədləri dəyişilməz qaldı. Türkiyə ərazi verilməsi baxımından heç bir güzəştə getmədi. Elə Naxçıvanla bağlı məsələ də həmin sənədlə öz ədalətli həllini tapdı. Qars müqaviləsinə qədər ermənilər həyasızcasına Naxçıvana iddia edirdilər.



Tarixi mənbələrdə oxuyuruq ki, daşnak Ermənistanının Türkiyəyə qarşı qaldırdığı ərazi iddiaları nəticəsiz qaldığına – ermənilərin məğlubiyyətinə görə Türkiyənin regionda hərbi və siyasi nüfuzu kifayət qədər artmışdı. Ona görə də, Sovet Rusiyası Ermənistanı təzliklə sovetləşdirməyə tələsirdi. Ermənistan rəhbərliyi isə Naxçıvanı Azərbaycandan qoparmaq üçün bütün rəzil vasitələrdən istifadə etməyə çalışırdı.

Məlum olduğu kimi, 1918-1920-ci illərdə erməni silahlı qüvvələri Naxçıvanda qırğınlar törətsələr də, əhalini ram edə bilmədilər. 1920-ci il oktyabrın 28-də Sovet Rusiyası ilə daşnak Ermənistanı arasında bağlanmış müqavilə ilə Azərbaycanın rəyi nəzərə alınmadan Zəngəzur və Naxçıvan Ermənistana verildi. 1920-ci il noyabrın 29-da Ermənistanda bolşevik hakimiyyəti yaradıldı. Bu münasibətlə Azərbaycan Hərbi İnqilab Komitəsi 1 dekabr 1920-ci ildə bəyanatla çıxış etdi.

Çox təəssüf ki, Rusiyanın diktəsi ilə yazılmış həmin sənəd iki sovet respublikası arasında ərazi mübahisələrinin Azərbaycanın milli mənafeyinə zidd şəkildə həll edilməsinə yönəlmişdi. Tarixçilər yazırlar ki, məhz həmin səbəbdən də Azərbaycan Hərbi İnqilab Komitəsinin bəyanatı Naxçıvan və Zəngəzurun müsəlman əhalisinin güclü narazılığına səbəb olmuşdu. Odur ki, ermənilərin alçaq niyyətlərinə yaxşı bələd olan Naxçıvan əhalisi bu diyarın Azərbaycandan qoparılmasına qarşı etiraza qalxmışdı. Həmin sənəd Türkiyə nümayəndələrinin də etirazı ilə qarşılanmışdı.

Vəziyyətin xoşagəlməz məcraya yönəldiyini görən Azərbaycan rəhbərliyi Behbud ağa Şahtaxtinskini Naxçıvana göndərdi. Behbud ağa Şahtaxtinski buradakı türk nümayəndələri ilə münasibətləri normallaşdıraraq, onlarla birgə Naxçıvanın Ermənistan tərəfindən nəzarətə götürülməsinin qarşısını almaq ideyası üçün lazım olan bütün addımları atdı. Nəticədə Ermənistan rəhbərliyi Naxçıvan əhalisinin iradəsi qarşısında dura bilməyib diplomatik fənd işlətdi və Naxçıvanı 1920-ci il 28 dekabr bəyanatı ilə müstəqil sovet respublikası kimi tanıdığını bildirdi. Yəni ermənilər Naxçıvana olan ərazi iddiasından, guya, əl çəkmiş oldular.

Başqa mühüm məqam ondan ibarətdir ki, o zaman Naxçıvan ərazisini Azərbaycandan ayıran Zəngəzur mahalının Ermənistana verilməsi Naxçıvanın muxtariyyət məsələsini zəruriləşdirdi. Bu iddia ortaya çıxanda isə Ermənistan rəhbərliyi Naxçıvanı ilhaq etmək üçün yeni cəhdlər göstərdi. Lakin 1921-ci ilin yanvarında keçirilmiş rəy sorğusunda Naxçıvan əhalisinin 90 faizdən çoxu mahalın muxtariyyət statusunda Azərbaycan SSR-in tərkibində qalmasına səs verdi.

> ***Naxçıvanın muxtariyyəti mühüm hadisədir. Bu, çətin bir dövrdə böyük mübarizənin nəticəsi olubdur. Naxçıvanın statusunu qoruyub saxlamaq üçün Moskva müqaviləsinin və xüsusən Qars müqaviləsinin böyük əhəmiyyəti olubdur. Naxçıvan Azərbaycanın əsas torpağından ayrı düşdüyünə görə Naxçıvanın bütövlüyünü, təhlükəsizliyini, dövlətçiliyini, muxtariyyətini gələcəkdə də təmin etmək üçün Qars müqaviləsi bizim üçün çox böyük, əvəzi olmayan bir sənəddir.***
>
> ***Heydər ƏLİYEV,***
> ***Ümummilli lider***

Yəni Qars müqaviləsinədək olan vəziyyət bundan ibarət idi. 1921-ci ildə aparılan diplomatik danışıqlar və yazışmalardan sonra isə Türkiyə ilə üç Cənub Qafqaz respublikası arasında Rusiya nümayəndəsinin iştirakı ilə Qars şəhərində konfrans keçirilməsi razılaşdırıldı. AK(b)P MK Siyasi Bürosunun 1921-ci il 26 avqust tarixli qərarı ilə Xalq fəhlə-kəndli nəzarəti komissarı Behbud ağa Şahtaxtinski Azərbaycan SSR-in konfransdakı nümayəndəsi təyin olundu. Azərbaycan diplomatiyası çalışırdı ki, Qarsda güclü təmsil olunsun. Behbud ağa Şahtaxtinskinin konfransda iştirakı faktının özü Sovet Azərbaycanı rəhbərliyinin bu məsələyə böyük əhəmiyyət verdiyini göstərirdi. Lakin Azərbaycan Kommunist Partiyasının rəhbərliyində olan S.Danielyan, L.Mirzoyan, A.Mikoyan S.Orconikidze ilə birlikdə hələ 1921-ci ilin iyununda Behbud ağa Şahtaxtinskini danışıqlardan uzaqlaşdırmağa və onu özləri üçün daha əlverişli adamla əvəz etməyə can atırdılar. Nəriman Nərimanovun bu məsələ ilə bağlı prinsipial mövqeyi sayəsində Behbud ağa Şahtaxtinski danışıqlarda fəaliyyətini davam etdirə bildi.

Məlum olduğu kimi, Qars konfransı 1921-ci il sentyabrın 26-dan oktyabrın 13-dək keçirildi. Danışıqlar çox gərgin və prinsipial keçdi, tərəflər çoxlu mülahizə və təkliflərlə çıxış etdilər. Türkiyə nümayəndə heyəti üç Cənubi Qafqaz respublikası ilə ayrı-ayrılıqda müqavilə bağlamağı təklif etdi. RSFSR-in nümayəndəsi bir ümumi müqavilənin bağlanmasında israr edir və xeyli sayda dəlillər gətirirdi. Əslində isə Moskva təmsilçisinin gətirdiyi dəlillər Rusiyanın bu respublikaları xarici siyasətini ləğv etmək, özünə birləşdirmək, gələcəkdə isə vahid dövlət yaratmaq niyyətlərinə xidmət edirdi. Təəssüf ki, sonralar buna nail oldular.

Sovet Rusiyası nümayəndəsinin iştirakı ilə Türkiyə üç Cənubi Qafqaz respublikası arasında imzalanan müqavilə 20 maddə və 3 əlavədən ibarət idi. Bu müqavilənin bir sıra müddəaları Moskva müqaviləsinin müvafiq maddələrinə uyğun idi. Ümumilikdə isə bu sənəddə qeyri-bərabər hüquqlu müqavilələr, zorla qəbul etdirilən müqavilələr və Sevr müqaviləsi rədd edilirdi. Müqavilə Qars və Batumun ərazi məsələləri üzrə bütün müddəalar kompleksini, nəqliyyat kommunikasiyalarının fəaliyyətini və vətəndaşların azad hərəkətinin təmin edilməsi, milli və dini mənsubiyyətindən asılı olmayaraq, vətəndaş hüquqlarının sarsılmazlığı kimi məsələləri əhatə edirdi. Onun xeyli hissəsi qaçqınlar probleminin nizamlanması və hərbi əsirlərin dəyişdirilməsi, razılığa gələn tərəflər arasında iqtisadi, mədəni və konsulluq əlaqələrinin əsas inkişaf istiqamətlərinin müəyyənləşdirilməsinə həsr edilmişdi.

Müqavilənin 5-ci maddəsi bilavasitə Naxçıvanın taleyi ilə bağlı idi. Burada yenə də Naxçıvanın Azərbaycanın tərkibində saxlanması və muxtariyyət verilməsi məsələsi təsbit olunmuşdu. Moskva müqaviləsindən fərqli olaraq, Qars müqaviləsinin 5-ci maddəsində Naxçıvanın statusu məsələsində razılığa gələn tərəflər müəyyən edilmişdi. Bunlar Türkiyə, Azərbaycan və Ermənistan hökumətləri olmuşdular. Müqavilənin bu maddəsində göstərilirdi ki, "Türkiyə hökuməti, Azərbaycan və Ermənistan Sovet Respublikaları müqavilənin III əlavəsində göstərilən sərhədlər daxilində Naxçıvan vilayətinin Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsi haqqında razılığa gəlirlər".

Bütün bunlardan sonra hansısa erməninin durub Naxçıvan mövzulu cəfəngiyat danışması, sözün həqiqi mənasında, xəstəlik göstəricisidir. İrəvanda unutmasınlar ki, Azərbaycan tərəfi köhnə mif xəstələrindən beş-on nəfərini müalicə etmək üçün gətirib Bakıda çay içirir. Əgər müalicə olunmaq istəyən erməni çoxdursa, onda Bakıda yer az deyil.

*İttifaq MİRZƏBƏYLİ*

# “Müasir mediada yeni trendlər: informasiya təhlükəsizliyi və peşəkarlıq meyarları”





**Dünən Azərbaycan Mətbuat Şurasının təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində “Müasir mediada yeni trendlər: informasiya təhlükəsizliyi və peşəkarlıq meyarları” mövzusunda konfrans keçirilib.**

Mətbuat Şurasının İdarə Heyətinin üzvlərinin, Medianın İnkişafı Agentliyinin rəhbərliyinin, baş redaktorların qatıldıqları konfransda MŞ sədri Rəşad Məcid, Prezident Administrasiyasının sektor müdiri Elmir Vəlizadə və Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov açılış nitqləri ilə çıxış ediblər. Onlar müzakirəyə çıxarılan mövzu ilə bağlı fikirlərini bölüşərək Azərbaycan dövlətinin və cəmiyyətinin media ilə bağlı gözləntilərindəki ayrı-ayrı məqamları vurğulayıblar.

Toplantıda əsas məruzəçi MŞ sədrinin müavini, Bakı Dövlət Universitetinin jurnalistika fakültəsinin dekanı Vüqar Zifəroğlu olub. V.Zifəroğlu siyasi ideoloji müstəvidə Azərbaycana qarşı aparılan informasiya müharibəsi və cəmiyyətin informasiya təhlükəsizliyinin təmin edilməsində medianın rolu mövzusunda çıxış edib.

Sonra MŞ İdarə Heyətinin üzvü, Jurnalistlərin Həmkarlar İttifaqının rəhbəri Müşfiq Ələsgərli dezinformasiya ilə mübarizədə tətbiq edilən mexanizmlər, inzibati və hüquqi modellər barədə söz açıb. MŞ İdarə Heyətinin üzvləri – Technote Media Şirkətinin rəhbəri Fərid Pərdəşünas Azərbaycan mediasının rəqəmsal transformasiyası şəraitindəki üstünlüklər və çatışmazlıqlar, “Azxeber.com” saytının baş redaktoru Hacıbəy Heydərli isə sosial media ilə rəqabətdə mediadan gözləntilər mövzusunda fikirlərini səsləndiriblər.

Tədbirdə, həmçinin Bakı Dövlət Universitetinin Jurnalistika fakültəsinin doktorantları Nurşərəf Tağıyevanın və Sünbül Zalovanın ölkə mediasında beynəlxalq jurnalistika trendlərinin tətbiqi problemləri mövzusunda birgə təqdimatları olub.

Toplantıda sadalanan mövzular ətrafında fikir mübadiləsi aparılıb. Müzakirələrin yekununda Azərbaycan Mətbuat Şurasının media subyektlərinə tövsiyələri açıqlanıb.

*

**Mətbuat Şurası “Müasir mediada yeni trendlər: informasiya təhlükəsizliyi və peşəkarlıq meyarları” mövzusunda 2024-cü il oktyabrın 11-də keçirdiyi konfransının nəticəsi olaraq aşağıdakıları tövsiyə edir:**

**Ümumi müddəalar**

**1. Jurnalistlər məzmun yaradıcılığında hansı vasitələrdən istifadə edilməsinə fərq qoymadan, “Azərbaycan Jurnalistlərinin Etik Davranış Qaydaları”na əsaslanmalı, ilk növbədə, dəqiq, qərəzsiz və tərəfsiz olmalı, ayrı-seçkiliyə yol verməməli, informasiya mənbələrinin məxfiliyini qorumalı, şəxsi həyatın toxunulmazlığına, müəllif hüquqlarına hörmətlə yanaşmalıdırlar. Bu cəhətlər informasiya istehsalçısı missiyasına sadiqlikdir, eyni zamanda, operativ şəkildə düzgün məlumatların yayılması dezinformasiyaya qarşı ən effektiv vasitədir;**

**2. Yeni medianın operativlik, sərhədsizlik, interaktivlik və s. kimi üstünlükləri nəzərə alaraq, informasiya istehsalının daha da gücləndirilməsinə təkan verilməsi günümüzün aktual tələbidir. Dezinformasiyaya qarşı mübarizə, etibarlı məlumatın təmin edilməsi üçün məlumatların yoxlanılmasına ciddi fikir verilməlidir. Yanlış və yalan məlumatlandırma, süni sensasiya yaratmaq meylləri, birtərəfli təqdimatlar və digər jurnalist etikasına zidd hallar yolverilməzdir;**

**3. Dünyada gedən müasir texnoloji inkişafa uyğunlaşmaq və beynəlxalq jurnalistikada xüsusilə, Qərb jurnalistikasındakı yeni trend və tendensiyaların (araşdırma, elmi və vətəndaş jurnalistikası, multimedia, konvergensiya, hipermətn və s.) mənimsənilməsi mütləqdir. Daha çox qısa xəbər yayımına köklənən onlayn media subyektlərində müsahibə, reportaj, analitika, publisistika, araşdırma, ümumən klassik janrlara marağın (multimedia nümunələri əlavə etməklə) artırılması təmin edilməlidir;**

**4. Dövlətin və cəmiyyətin maraq və mənafelərindən irəli gələn, onların uzlaş-dırılmasına xidmət edən materialların sayının çoxaldılması və keyfiyyətinin yüksəldilməsi təmin olunmalıdır;**

**5. Azərbaycan dövlət dilinin normalarına əməl edilməsi, əsasən proqramlar vasitəsi ilə hazırlanan tərcümə materiallarının keyfiyyətinə diqqətin artırılması şərtdir.**

**Xüsusi müddəalar**

**1. Sosial şəbəkələrdə yayımlanan materialların həqiqətə uyğunluğu, səhihliyi ciddi şəkildə yoxlanılmalıdır. Nəzərə alınmalıdır ki, süni intellekt vasitəsilə istənilən foto və video məlumat, səs yazısı təhrif edilə bilər. Media nümayəndələri sosial şəbəkə istifadəçisindən fərqli olaraq, bu kimi hallarla qarşılaşdıqda dəqiqləşdirmə aparmalı və məlumatları yoxlamadan yaymamalıdırlar. Onlar yeni texnologiyaların, süni intellekt sistemlərinin dezinformasiya yayımında vasitə olduğunu unutmamalıdırlar. Xarici qüvvələrin sosial mediada yaratdığı təxribat və manipulyasiyalara qarşı effektiv şəkildə mübarizə aparılmalı, Azərbaycan cəmiyyətində milli maraqları qoruyan ictimai rəy formalaşdırılmalıdır;**

**2. Jurnalist cəmiyyətin etimadlı xəbər əldə etməsində vasitəçidir. Buna görə də məzmun yaradıcılığında yeni texnologiyalardan, o cümlədən süni intellekt proqramlarından asılı duruma düşməməli, onlara vəzifəsinin icrasında yardımçı vasitə kimi yanaşmalıdır;**

**3. Azərbaycan mediası milli maraqların qorunması üçün ölkədə vahid və güclü ictimai rəy formalaşdırmalıdır. Milli maraqların əhəmiyyəti barədə məlumatlandırma və maarifləndirmə aparılmalı, həmçinin ölkənin suverenliyini təbliğ edən proqramlar, xəbərlər və məqalələr yayılmalıdır;**

**4. Azərbaycan mediası beynəlxalq mediada daha fəal iştirak etməli və ölkə ilə bağlı məsələlərə doğru və obyektiv prizmadan yanaşmalıdır. Beynəlxalq media qurumları ilə əməkdaşlıq əlaqələrinin gücləndirilməsi, Azərbaycanın mövqelərini müdafiə edən məqalələrin və reportajların hazırlanması vacibdir;**

**5. Azərbaycan mediası regional və beynəlxalq səviyyədə digər dost ölkələrin media orqanları ilə əməkdaşlıq etməli, informasiya müharibəsi şəraitində təcrübə mübadiləsi həyata keçirməlidir.**

*XQ*

# Baş prokurorun Gəncədə vətəndaş qəbulu

**Oktyabrın 11-də Baş prokuror Kamran Əliyev Gəncə şəhər prokurorluğunun inzibati binasında Gəncə şəhər və digər bölgələrdən olan vətəndaşları qəbul edib.**



Qəbulda iştirak edən 149 vətəndaşın müraciətində konkret cinayət işlərinin istintaqı və törədilmiş cinayətlər barədə məlumatların araşdırılması zamanı yol verilmiş qanun pozuntuları, məhkəmədə baxılan cinayət işləri üzrə dövlət ittihamının müdafiəsi, habelə mülki xarakterli mübahisələr və sosial problemlərə dair qeyd olunan məsələlərin bilavasitə prokurorluqda və ya aidiyyəti icra orqanlarında operativ həlli üçün müvafiq göstərişlər verilib.

Sonra prokurorluq əməkdaşları ilə görüş keçirən Kamran Əliyev vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbul işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdığını diqqətə çatdırıb. Həmçinin “Elektron prokurorluq” informasiya sisteminin fəaliyyəti ilə yerində tanış olub.

*XQ*

# Separatçıların həbs müddəti uzadıldı

**Azərbaycanın Qarabağ bölgəsinin və digər suveren ərazilərinin Ermənistanın hərbi təcavüzü nəticəsində işğal olunduqdan sonra yaradılmış qondarma qurumun “prezidentləri” olmuş Arkadi Qukasyan, Bako Sahakyan, Araik Arutyunyan, sabiq “xarici işlər naziri” David Babayan, eləcə də “parlament sədri” David İşxanyan, generallar David Manukyan və digərlərinin barəsində seçilmiş həbs qətimkan tədbirlərinin müddətinin uzadılması ilə bağlı Baş Prokurorluğun İstintaq idarəsinin vəsatətlərinə və Baş prokurorun təqdimatlarına Binəqədi Rayon Məhkəməsində baxılıb.**

Bu barədə Baş Prokurorluğunun mətbuat xidməti daxil olmuş sorğulara cavab olaraq bildirib.

İstintaqı Baş Prokurorluğun rəhbərlik etdiyi, Hərbi Prokurorluq, Dövlət Təhlükəsizliyi Xidməti, Daxili İşlər Nazirliyi və digər istintaq qurumlarının peşəkar əməkdaşlarından ibarət birgə istintaq qrupu tərəfindən aparılan cinayət işi üzrə separatçı rejimin ümumilikdə 14 nəfər üzvü Cinayət Məcəlləsinin müxtəlif maddələri ilə məsuliyyətə cəlb olunub.

Məhkəmənin qərarına əsasən, qeyd olunan şəxslərin barəsində seçilmiş həbs qətimkan tədbirinin müddəti uzadılıb.

*XQ*

**Zəfər marafonunun 16-cı günü**

# Vətən müharibəsinin xronikası: 12 oktyabr



**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan “Dəmir yumruq” adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

• Müdafiə Nazirliyinin yaydığı məlumat görə, Azərbaycan Ordusu bütün cəbhəboyu əməliyyat üstünlüyünü qoruyub. İşğalçı itirdiyi mövqeləri geri qaytarmaq məqsədilə cəbhənin Ağdərə–Ağdam və Füzuli–Cəbrayıl istiqamətlərində bir neçə dəfə kiçik qruplarla Ordumuzun mövqelərinə hücum etməyə cəhd göstərib.

Həyata keçirilən əməliyyatlar nəticəsində cəbhənin müxtəlif istiqamətlərində düşmənin xeyli sayda canlı qüvvəsi, 3 ədəd BM-21 “Qrad” yaylım atəşli reaktiv sistemi, 1 ədəd T-72 tankı, bir neçə avtomobil texnikası sıradan çıxarılıb.

Ermənistan silahlı qüvvələrinin 9-cu alayının artilleriya bölməsi Hadrut qəsəbəsi istiqamətindən geri çəkilib, alayın 5-ci taborunun şəxsi heyəti isə hərbi texnikasını döyüş mövqelərində qoyub qaçıb. Qırmızı Bazar istiqamətinə endirilən artilleriya zərbəsi nəticəsində düşmənin yeraltı sığınacağı dağıdılıb. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb.

• Azərbaycan Prezidenti İlham Əliyev Türkiyənin “Haber Global” televiziya kanalına müsahibə verib. Dövlətimizin başçısı müsahibədə ölkəmizin erməni diasporunun qara təbliğat ilə uzun illərdir ki, üzləşdiyini diqqətə çatdırıb: “Bunun bir neçə səbəbi var, onlardan biri də bəzi ölkələrdə erməni diaspor təşkilatlarının fəaliyyətidir. Onların fəaliyyətinin hədəfində Azərbaycan dayanır. Azərbaycanı ləkələmək, Azərbaycan haqqında yalanlar yaymaq və beləliklə, ölkəmizin imicinə zərbə vurmaq məqsədləri daim onların gündəliyində olan məsələlərdir”.

Ölkə rəhbəri daha sonra bildirib ki, son döyüşlərlə əlaqədar erməni diaspor təşkilatları və onların havadarları, dünya erməniliyi Azərbaycana qarşı mətbuat savaşına başlayıb. Bunun nəticəsidir ki, hazırda dünya mətbuatında bir çox hallarda təhrif edilmiş məlumatlar yer alır. Ona görə Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün bizim böyük səylər göstərməyimiz gərəkdir. Bu baxımdan Türkiyənin mətbuat nümayəndələrinə xüsusi təşəkkürümü bildirmək istəyirəm. Çünki demək olar, hər gün gecə-gündüz qardaş ölkənin aparıcı televiziya kanalları, digər mətbu orqanları bu münaqişə ilə bağlı həqiqətləri dünyaya çatdırır.

Prezident İlham Əliyev müsahibədə vurğulayıb ki, atəşkəs rejimi tətbiq olunandan sonra Ermənistan demək olar ki, dərhal öz çirkin əməllərini davam etdirib: “Biz bir müddət ara vermişdik, çünki biz sözümüzə sadiqik. Bir halda ki, bu atəşkəs haqqında açıqlama verilmişdir, biz ümid edirdik ki, bundan sonra Dağlıq Qarabağ məsələsi siyasi yollarla həll ediləcək. Çünki hesab edirdik ki, hərbi mərhələ artıq başa çatıb, təcavüzkar döyüş meydanında dərsini alıb və bundan sonra reallıqlara hesablaşıb, diplomatik müstəvidə müsbət yanaşma göstərəcək. Ancaq təəssüf ki, biz bunu görmədik və saat 12-dən qüvvəyə minməli olan atəşkəs Ermənistan tərəfindən pozulub”.

Müsahibədə diqqətçəkən bir məqama da toxunulub. Bildirilib ki, Ermənistan atəşkəsi pozduqdan sonra gecə saatlarında mülki şəxslərə qarşı dəhşətli cinayət törədib. Gəncə şəhəri bombardman edilib. Şəhər “Toçka-U” raketləri ilə atəşə məruz qalıb və bunun nəticəsində mülki vətəndaşlar həlak olub və yaralanıblar: “Bu, erməni faşizminin eybəcər sifətinin növbəti təzahürüdür. Artıq dünya erməniliyi, Ermənistanın havadarları, onların hamiləri və islamofob dairələr bu cinayəti gizlədə bilməyəcəklər. Çünki artıq hər şey göz qabağındadır”.

• Müdafiə Nazirliyi Cəbrayıl rayonunun işğaldan azad edilmiş Süleymanlı kəndinin videogörüntülərini paylaşıb.

• Ermənistan ordusuna məxsus üç pilotsuz uçuş aparatını Azərbaycanın Hava Hücumundan Müdafiə bölmələri məhv ediblər.



• Baş Prokurorluğun məlumatına görə, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində sentyabrın 27-dən oktyabrın 12-si saat 12:00-dək 41 mülki şəxs həlak olub, 207 nəfər xəsarət alıb, 1185 ev, 57 çoxmənzilli yaşayış binası və 148 mülki obyekt yararsız vəziyyətə düşüb. Düşmənin atəşi nəticəsində Tərtərdə məcburi köçkünlər üçün salınan yaşayış kompleksinə böyük ziyan dəyib.

Rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.



*XQ*

# Su ehtiyatlarından səmərəli istifadə strateji hədəfdir

*Dövlət proqramında su təchizatının yüksəldilməsi, itkilərin azaldılması nəzərdə tutulur*

**(əvvəli 1-ci səhifədə)**



Milli Strategiya 2024–2040-cı illəri əhatə etməklə 3 mərhələdə həyata keçiriləcək. Birinci mərhələdə (2024–2027-ci illər) su ehtiyatlarından səmərəli istifadə üçün zəruri infrastruktur və idarəetmə təkmilləşdiriləcək. Bu çərçivədə su ehtiyatlarının yenidən qiymətləndirilməsi, artırılması, inteqrasiyalı idarə edilməsi, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından istifadə, suyun keyfiyyətinin yaxşılaşdırılması, su təsərrüfatı obyektlərinin genişləndirilməsi və su itkilərinin azaldılması gerçəkləşdiriləcək.

İkinci mərhələdə (2028–2030-cu illər) təməl şərtlərin möhkəmlənməsi əsasında "təmiz su və sanitariya", "iqlim dəyişikliyinə qarşı mübarizə", "dəniz və torpaq ekosistemlərinin mühafizəsi" kimi Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının qəbul etdiyi Dayanıqlı İnkişaf Məqsədlərinə yaxınlaşma reallaşdırılacaq. Nəhayət, 2031–2040-cı illər ərzində –sonuncu mərhələdə hidroekoloji böhranların innovativ texnologiyalar əsasında səmərəli idarə olunması, su ehtiyatlarının artırılması, habelə alternativ su mənbələrindən istifadəni genişləndirməklə dayanıqlı və keyfiyyətli suya tələbatın ödənilməsi təmin ediləcək.

Milli Strategiyada bildirilir ki, dünya ölkələri iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşib. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə mühüm təsir göstərib.

Beynəlxalq təşkilatların su ehtiyatlarının vəziyyətinə dair 2024-cü ildə dərc etdiyi hesabata görə dünyada su çatışmazlığı davamlı artır. BMT-nin məlumatına görə, dünyada, təxminən, 2,2 milyard nəfər əhalinin təmiz içməli suya, 3,5 milyard nəfərin isə sanitariya xidmətlərinə çıxışı yoxdur. 2050-ci ilədək suya tələbatın, təxminən, 40 faizdən çox artacağı gözlənilir ki, bu da su qıtlığı problemini daha da kəskinləşdirə bilər.

Sözügedən strategiyada dünyada davamlı iqlim dəyişikliyi nəticəsində quraqlığın artdığı, hazırda 1,4 milyarddan çox insanın bu fəsaddan əziyyət çəkdiyi bildirilib. Bundan əlavə, yağıntıların Cənub–Şərqi Asiya və digər ərazilərdə daşqınların artmasına səbəb olduğu, kənd təsərrüfatı və içməli su hövzələrinə mənfi təsir göstərdiyi, vurğulanıb.

Qeyd edilənlərlə yanaşı, Türkiyə, Gürcüstan, Rusiya, İran, Qazaxıstan və Türkmənistan kimi qonşu dövlətlərdə iqlim dəyişikliyindən, o cümlədən hava temperaturunun artmasından və yağıntı normalarının azalmasından irəli gələn su ehtiyatlarında dəyişmə, su təchizatı və irriqasiya infrastrukturunda mövcud problemlər, müasir texnologiyaların zəif tətbiqi kimi amillər ölkəmizdə su ehtiyatlarının formalaşmasına mənfi təsir göstərir.

Milli Strategiyada bildirilir ki, ölkəmizin bərpaolunan şirin su ehtiyatları 26,2 milyard kubmetr təşkil edir. Bunun 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri yerli çay axınlarından və 13,2 milyard kubmetri transsərhəd yerüstü sulardan formalaşır. Bərpaolunan şirin su ehtiyatının 17,8 milyard kubmetri (67,9 faizi) isə yerüstü şirin su ehtiyatları hesabına yaranır. Azərbaycanın su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur və bütün regiondakı su ehtiyatının, təxminən, 15 faizini təşkil edir. Eyni zamanda, respublikamızda adambaşına düşən su ehtiyatı da qonşu ölkələrlə müqayisədə ən aşağı səviyyədədir.

Yerüstü su ehtiyatları, əsasən, çaylarda cəmlənir. Azərbaycanda mövcud çayların əksəriyyəti kiçik (uzunluğu 5 kilometrdən az) və azsuludur. Ölkə ərazisinin, təxminən, 75 faizi Kür çayı hövzəsinə daxildir. Çay suları ehtiyatlarının, təxminən, 70 faizi qonşu ölkələrin ərazisində, qalanı isə (yerli axım) daxili çaylardan formalaşır.

Quraqlıq illərində transsərhəd su ehtiyatlarının həcmində kəskin azalma müşahidə edilir. Eyni zamanda, Kür və Araz çaylarının su ehtiyatı qonşu ölkələrin ərazisində sugötürücü qurğularla mənimsənilmə nəticəsində xeyli səviyyədə azalır. Bu isə respublikada suya tələbatın ödənilməsində ciddi çətinliklər yaradır.

Azərbaycanda 140-dan çox su anbarı var. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 15,7 milyard kubmetr), Şəmkir (həcmi 2,7 milyard kubmetr), Araz çayı üzərindəki Xudafərin (həcmi 1,6 milyard kubmetr) və Araz (həcmi 1,3 milyard kubmetr), habelə Tərtər çayı üzərindəki Sərsəng (həcmi 0,56 milyard kubmetr) su anbarlarıdır. Su anbarlarının ümumi həcmi isə 24 milyard kubmetrə yaxındır.

Ölkə ərazisində mövcud 700-ə yaxın gölün əksəriyyəti də yay aylarında quruyur. Qurumayan təbii göllərin sayı, təxminən, 250-dir. Sahəsi 1 kvadratkilometrdən çox olan və böyük təsərrüfat əhəmiyyəti daşıyan göllərin sayı 25-dir. Göllərin ümumi su ehtiyatı 0,9 milyard kubmetrə, şirinsulu göllərin ehtiyatı isə 0,03–0,05 milyard kubmetrə yaxındır.

Azərbaycanda qrunt (yeraltı) suları yüksək keyfiyyəti ilə seçilir. Çaylara axan suyun 16–17 faizi yeraltı suların payına düşür. Yeraltı suların hər il 2 milyard kubmetrdən artığı əkin sahələrinin suvarılmasına və yaşayış yerlərinin su təchizatına sərf edilir. İstismara yararlı qrunt sularının ümumu tutumu bir il üçün 8–9 milyard kubmetr arasında hesabır. Ən çox ehtiyata malik yeraltı sular Qusar maili düzənliyindədir və ehtiyatı 1,3 milyard kubmetr təşkil edir. Yeraltı sularla ən az təmin olunan ərazi Abşeron yarımadasıdır.

Milli Strategiyada Dövlət Statistika Komitəsinin məlumatına əsaslanaraq qeyd edilir ki, 2010–2023-cü illərdə təbii mənbələrdən götürülən suyun həcmi 10,7 faiz, su istehlakı isə 26,7 faiz artıb. İllik su təsərrüfatı balansının göstəricilərinə görə, ölkə üzrə su mənbələrindən əkin sahələrini suvarma məqsədilə götürülən suyun 50 faizi, əhalinin içməli su təchizatı üçün ayrılan suyun isə 37 faizi son istehlakçıya çatmır. Su itkilərinin orta illik həcmi, təxminən, ölkə ərazisində formalaşan yerüstü su ehtiyatları (4,6 milyard kubmetr) qədərdir.

Qiymətləndirmələrə görə, su itkilərinin yaranmasının səbəblərinə əksər suvarma kanallarının torpaq məcralı olması (75 faiz), müasir suvarma sistemlərinin məhdud tətbiqi (5 faiz), içməli su infrastrukturunun köhnəlməsi, fiziki itkiləri və suların dövlət uçotunun mükəmməl olmaması (sayğaclaşmanın başa çatmaması), suların dövlət uçotundan yayınma, nəzarətdənkənar qoşulmalar nəticəsində yaranan kommersiya itkiləri daxildir.

Milli Strategiyada ölkədə su itkilərinin yaranma səbəblərinin aradan qaldırılması istiqamətində son illər ərzində bir sıra layihələrin həyata keçirilməsi vurğulanıb. Eyni zamanda, perspektivdə də görüləcək işlər diqqətə çatdırılıb. Məsələn, suyun dövlət uçotu sisteminin təkmilləşdirilməsi və qanunsuz müdaxilələrin qarşısının alınması, müasir suvarma üsullarının tətbiqinin genişləndirilərək 2027-ci ildə ölkə üzrə 10 faizə çatdırılması, şirin su ehtiyatlarının artırılması məqsədilə 4 yeni su anbarının yaradılması, su təchizatı infrastrukturunun genişləndirilməsi nəticəsində içməli su təminatının 85 faizə, suvarma suyu təminatının isə 90 faizə çatdırılması, alternativ su mənbələrindən istifadənin təşviq edilməsi, sayğaclaşma səviyyəsinin 100 faizə qaldırılması, içməli su təchizatı üzrə itkilərin 33 faizə və suvarma suyu təchizatı sahəsində itkilərin isə 42 faizə qədər azaldılması qarşıya mühüm vəzifə kimi qoyulub.

Bütün bunlarla bərabər, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının su ehtiyatlarından və hidroenerji potensialından "ağıllı" su sistemlərinin tətbiqi ilə rasional istifadə təmin ediləcək. Bölgədə 28 su elektrik stansiyasının tikintisi başa çatdırılacaq, yerüstü suların hidroenerji potensialı qiymətləndirilərək su elektrik stansiyaları, o cümlədən su təsərrüfatı obyektlərinin imkanları nəzərə alınmaqla kompakt enerji stansiyası yaradılacaq.

Sənəddə sağlamlıq, sahil və su turizmi imkanları üzrə qiymətləndirmənin aparılması, əhalinin içməli su ilə təchizatının daha da yaxşılaşdırılması, əkin sahələrinin suvarma suyuna tələbatının ödənilməsi və su ehtiyatları potensialından səmərəli istifadə olunmasının hövzələrarası su transferini həyata keçirməyə imkan verəcəyi, beləliklə də iqtisadi rayonlarda 300 min hektardan çox torpaq sahəsinin suvarma suyu ilə təmin ediləcəyi diqqətə çatdırılıb.

# Sağlam gələcəyin zəruri təminatı



**İqlim dəyişikliyinə qarşı mübarizə tədbirlərinin gerçəkləşdirilməsi, qlobal temperaturun 2100-cü ilə qədər 2ºC altında saxlanılması insanlığın gələcəyi üçün mühüm önəm daşıyır. Paris iqlim sazişi ilə razılaşdırılan həmin hədəf hazırda dünya ölkələrinin diqqət mərkəzindədir.**

Bu məqsədi gerçəkləşdirmək üçün qlobal səviyyədə fəaliyyətlər intensivləşdirilməli, hökumətlər, korporasiyalar, qeyri-hökumət təşkilatları ilə yanaşı, fərdi vətəndaşlar da həmin prosesi dəstəkləməlidirlər. Bu yazıda isə qarşıya qoyulan vəzifənin əhəmiyyətinin sadə vətəndaşların həyatına necə təsir göstərə biləcəyi barədə fikirlər diqqətə çatdırılır.

ADA Universitetinin müəllimi, "yaşıl" enerji üzrə ekspert Orxan Kərimzadə daha sonra qeyd edir ki, bəzi insanlar üçün iqlim dəyişikliyi abstrakt problem kimi görünə bilər. Ancaq məsələnin dərindən təhlili qlobal temperaturun 2ºC-dən yuxarı qalxması ilə ekstremal hava hadisələrinin, o cümlədən daşqınlar, quraqlıqlar, məhsul itkisi və digər ciddi iqlim problemlərin də artacağını söyləməyə əsas verir. Belə şəraitdə isə təkcə ekosistemlər deyil, həm də iqtisadiyyat təhdidlərlə üzləşir. Məsələn, su ehtiyatları getdikcə tükənir, qida təhlükəsizliyi tədricən pozulur, bir çox regionlarda isə məcburi köçkünlük halları artır. Təkrar edirəm, bu cür təhlükələrin baş verməməsi, problemlərin qarşısının alınması üçün, ilk növbədə, qlobal temperaturun 2ºC altında saxlanılması strateji prioritetdir.

Yuxarıda vurğuladığım kimi, bu istiqamətdə sadə vətəndaşların məlumatlandırılması və maarifləndirilməsi çox vacibdir. İqlim dəyişikliyi təsirlərinin azaldılmasında hər bir insanın rolu olduğunu vurğulamaq, onlara enerji səmərəliliyi, su ehtiyatlarının qorunması, tullantıların azaldılması və təkrar emal kimi gündəlik fəaliyyətlərdə iştirak etməyin əhəmiyyətini diqqətə çatdırmaq lazımdır. Bununla yanaşı, iqlim dəyişikliyinə uyğunlaşmaq və davamlılıq yaratmaq üçün milli strategiyalar hazırlanmalı, enerji sektorunda təmiz texnologiyaların istifadəsi genişləndirilməli və istixana qazı emissiyalarının balansını gerçəkləşdirmək məqsədilə daha səmərəli tədbirlərin görülməsi zəruridir.

İqlim dəyişikliyinin təsirlərinə qarşı davamlılığın yaradılmasını hökumətlər və böyük təşkilatlarla bərabər, cəmiyyətin hər bir fərdinin də dəstəkləməsinin önəmini vurğulayan Orxan Kərimzadə qlobal istiləşməni 2ºC altında saxlamaqda beynəlxalq əməkdaşlıq, texnoloji inkişaf və sosial dəyişikliklərin də böyük əhəmiyyət daşıdığını vurğulayıb.

Ekspert sonda fikirlərini yekunlaşdıraraq qeyd edib ki, Bakının evsahibliyi edəcəyi COP29 məhz hər bir şəxsin dünyamız üçün ata biləcəyi addımları önə çıxarmaq, bu istiqamətdə qələbəni reallaşdırmaq məqsədi daşıyır. Sevindirici haldır ki, az bir müddətdən sonra hər kəs bu problemlərə Azərbaycanın gözü ilə baxacaq, proqnozlaşdırılan təhlükələrə qarşı mübarizədə planet sakinlərinə ölkəmizdən çağırışlar ediləcək. Odur ki, bu il nəhəng ölkələrin, dünya ictimaiyyətinin Yer kürəsini gələcək bəlalardan xilas etməsi üçün Azərbaycanı mərkəz seçməsi hər birimizin məsuliyyətini daha da artırır.

# Azərbaycanla BƏƏ-nin birgə layihələri



**İqtisadiyyat naziri Mikayıl Cabbarov Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) sənaye və qabaqcıl texnologiyalar naziri Sultan Əhməd Əl-Cabiri ilə görüşündə ölkəmizin təmiz ətraf mühit və "yaşıl" enerji ölkəsinə çevrilməsinin qarşıya hədəf kimi qoyulduğu vurğulanıb, enerjidən səmərəli istifadə olunması, yeni dayanıqlı enerji mənbələrinin yaradılması istiqamətində həyata keçirilən layihələr və onların icra vəziyyəti barədə məlumat verilib.**

Nazirliyin məlumatında daha sonra Dövlət Neft Şirkətinin BƏƏ-nin "ADNOC" və "Masdar" şirkətləri ilə birgə layihələri, onların icrası istiqamətində perspektivdə duran məsələlərin müzakirə edildiyi də bildirilib.

Görüşdə Azərbaycanla BƏƏ-nin iqtisadi sahədə birgə fəaliyyətinin perspektivləri, energetika sahəsində fəal əməkdaşlığın təşviqi və COP29 çərçivəsində ölkəmizlə tərəfdaşlıq barədə müzakirələr də aparılıb.

# "Rəqəmsal körpü" sisteminə inteqrasiya

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Samir Məmmədov "IN-Merge İnnovasiya Sammiti"ndəki çıxışında hazırda Azərbaycanın 70-dən çox dövlət qurumu və 100-dən çox informasiya sisteminin "Rəqəmsal körpü" sisteminə inteqrasiya olunduğunu, nəticədə 1 milyarddan çox tranzaksiya həyata keçirməyə imkan yarandığını bildirib.**

S.Məmmədovun sözlərinə görə, rəqəmsal sənəd dövriyyəsi Azərbaycanda sənədsiz idarəetməyə doğru daha bir uğurlu addımdır.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# Ekoloji fəlakətin miqyası genişlənir

**Böyük Britaniyanın “Climate Home News” saytında COP29-un təyin olunmuş prezidenti Muxtar Babayevin iqlim sammiti ilə bağlı məqaləsi dərc olunub. Məqalədə bu həftə Bakıda BMT-nin iqlim danışıqlarının texniki və siyasi aspektlərinin müzakirəsinin iqlim sammiti ərəfəsində dönüş nöqtəsi olduğu və iqlim dəyişikliyinə qarşı qlobal mübarizədə lakmus kağızı rolu oynadığını bildirib.**




Məqalədə deyilir: “COP28 keçirildiyi ilin ilk 6 ayında ekstremal hava hadisələri ölkələrə 41 milyard dollar ziyan vurdu ki, bu, qətiyyətli tədbirlərin görülməsinin vacibliyini təsdiqlədi. BMT-nin iqlim danışıqlarının texniki və siyasi aspektləri arasında qarşılıqlı əlaqənin sürətləndirilməsi vacibdir, çünki texnoloji tərəqqi siyasi qərarları məlumatlandırır və siyasi iradə texnoloji irəliləyişlərə imkan verir. Pre-COP öz işinə 2030-cu ilə qədər 250 milyard dollara qədər qənaəti təmin edə biləcək səmərəli karbon bazarların üçün çərçivə olan COP29-da 6-cı maddənin razılaşdırılması ilə bağlı texniki məsələlərdə irəliləyişlə başladı”.

COP29-un təyin olunmuş prezidenti daha sonra qeyd edib ki, iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədi COP29 danışıqları üçün əsas prioritet olaraq qalır. Xüsusilə inkişaf etməkdə olan ölkələr üçün iqlim tədbirlərinin gerçəkləşdirilməsi vacibdir və burada problemin həm aktuallığı, həm də miqyası nəzərə alınmalıdır. Paris Sazişi üzrə öhdəliklərə uyğun şəffaflıq da eyni dərəcədə zəruridir. Bir sıra kritik məsələlərdə mövqelərin yaxınlaşmasının çox ümidverici əlamətləri var.

Muxtar Babayevin sözlərinə görə, iqlim dəyişikliyi idarəetmənin və cəmiyyətin bütün aspektlərinə təsir göstərir, buna görə də bütün müvafiq dövlət idarələri bu prosesdə maliyyə, enerji, kənd təsərrüfatı və səhiyyəyə mövzularında keçirilən müzakirələrdə fəallıq göstərməli, əsasən, COP28-də razılaşdırılmış iqlim fəaliyyətinə dair ilk qlobal hesabatın nəticələrinə əsaslanmalıdır.

“Hər şeydən əvvəl ədalətli iqlim maliyyəsini gerçəkləşdirmək üçün birlikdə işləməliyik. Biz, eyni zamanda, davamlılıq yaratmalıyıq və emissiyaları azaltmalıyıq. Bu, enerji sistemlərində qalıq yanacaqlardan uzaqlaşmanın ədalətli və nizamlı şəkildə təşviq edilməsini əhatə edir. Hər bir töhfə önəmlidir”, – məqalədə vurğulanıb.

Məqalədə bildirilib ki, iqlim sammiti ərəfəsində COP29-un Sədrliyi aparıcı rol oynayır və Azərbaycan Milli Səviyyədə Müəyyən Edilmiş Töhfələr üzərində genişmiqyaslı tədbirlər həyata keçirir. Şübhəsiz ki, bu məsələdə Birləşmiş Ərəb Əmirliyi və Braziliyadan olan həmkarların da rolu əvəzsizdir.

COP29-un Sədrliyi, həm də vədləri konkret fəaliyyətə çevirməyə diqqət yetirir. BMT-nin “Yaşıl iqlim” və “Adaptasiya” fondlarına töhfələrin əhəmiyyətli dərəcədə artırılmasına təcili ehtiyac var. İstixana qazları emissiyalarına dair iki illik şəffaflıq hesabatlarının vaxtında təqdim edilməsi də Paris Sazişinin bütün bəndləri üzrə ambisiyaların artırılması üçün mühüm önəm daşıyır.

“Azərbaycan COP29-da ölkələr arasında körpü rolunu oynamaq üçün əlindən gələni edəcək. Bu iqlim konfransı uğur sammitinə çevriləcək və hamımız böyük çağırışa cavab vermək üçün əlimizdən gələni əsirgəməyəcəyik. Danışıqlar zamanı bütün tərəflər bir-birinə necə yaxınlaşa biləcəkləri barədə düşünməlidirlər. Çünki biz birlikdə ambisiyaları yüksəltdiyimiz və fəaliyyət üçün şərait yaratdığımız uğurlu konfransa yol aça bilərik. Biz sabahı xilas etmək üçün bu günə sərmayə qoya bilərik”, – məqalədə qeyd olunub.

# “İqlim üçlüyü”nün yol xəritəsi

**Pre-COP29 konfransı çərçivəsində COP28, COP29 və COP30 sədrliklərinin birgə təşkilatçılığı ilə keçirilən “Troyka ölkələri”nin “1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi" mövzusunda keçirilən yan tədbirdə Keniyanın Ətraf Mühit, İqlim Dəyişikliyi və Meşə Təsərrüfatı Nazirliyinin baş katibi Festus Ng’eno bildirib ki, beynəlxalq əməkdaşlıq iqlim dəyişikliyi ilə mübarizənin səmərəliliyini artırır. COP29 bu istiqamətdə olduqca ideal platformadır.**



O qeyd edib ki, Afrika ölkələri arasında beynəlxalq əməkdaşlıq genişləndirilməlidir: “Afrika ölkələri iqlim dəyişikliyinin təsirlərinə ən ağır formada məruz qalan ölkələrdir. Qida təhlükəsizliyi, su problemləri ilə mübarizə bizim xalqların mövcud reallığıdır. Əməkdaşlıq bizim yeganə çıxış yolumuzdur”.

# “Sıfır karbon” üçün elmi araşdırmalar

**Pre-COP29 konfransı çərçivəsində keçirilən “Troyka ölkələri”nin “1,5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi” mövzusunda yan tədbirdə çıxış edən Avropa İttifaqının iqlim fəaliyyəti üzrə komissarı Vopke Hoekstra geosiyasi problemlərin çox mürəkkəb məsələ olduğunu, Dubayda əldə olunan nailiyyətlərin Bakıda da genişləndiriləcəyinə böyük ümid bəslənildiyini bildirib. O, “bizim 2050-ci ilədək xalis sıfır karbon emissiyasına nail olmaq məqsədimiz var”, –deyə vurğulayıb.**



Komissar qeyd edib ki, bu sahədə elmi araşdırmalar üçün digər ölkələrə dəstək olmaq vacibdir: “Bir sıra layihələr var ki, bunların icrası mütəxəssislərin iştirakı ilə sürətləndirilməlidir. İqlim dəyişikliyinin Yer kürəsinə təsiri və ölkələrin bu istiqamətdə görməli olduğu işlər müzakirə olunmalıdır. Biz hədəflərimizin 90 faizini 2040-cı ilə qədər yekunlaşdırmaq istəyirik”.

# Türkiyə iqlim savaşında da Azərbaycanın yanındadır

**COP29 günlərində Türkiyə qardaş Azərbaycana hər cür dəstək verəcək. Bu sözləri Türkiyənin ətraf mühit, şəhərsalma və iqlim dəyişikliyi naziri Murat Kurum mətbuat nümayəndələrinə açıqlamasında deyib. Respublikamızın dost və qardaş ölkə olduğunu vurğulayan M.Kurum iqlim konfransının dünya üçün əhəmiyyətli qərarların qəbul ediləcəyi bir platforma olmasını dilədiyini də diqqətə çatdırıb.**



Türkiyəli nazir COP29-da inkişaf etməkdə olan ölkələrin iqlim dəyişikliyi ilə mübarizələrində maliyyə resurslarına çıxışını asanlaşdıracaq addımların atılmasını gözlədiklərini də vurğulayıb. Prezident Rəcəb Tayyib Ərdoğanın “2053–sıfır emissiya” hədəfinin dünya ilə paylaşıldığını xatırladan M.Kurum rəhbərlik etdiyi nazirliyin iqlim dəyişikliyi ilə mübarizə və adaptasiya sahəsində çox önəmli addımlar atdığını bildirərək “istəyirik ki, gələcək nəsillər üçün təmiz bir dünya yaradaq”, – deyib.

Nazir bərpaolunan enerji mənbələrindən istifadə edərək Türkiyənin enerji tələbatını qarşılayacaqlarını və bu sahədəki gücü hər keçən gün artırdıqlarını bildirib. O, İqlim Qanununun bu il Türkiyə Böyük Millət Məclisindən keçəcəyini və bu mövzudakı qərarlı mövqelərini ortaya qoyacaqlarını da qeyd edib.

# Şəffaflıq hesabatlarının hazırlanması günün tələbidir

**Pre-COP29 konfransı çərçivəsində “Ümumdünya iqlim şəffaflığına qlobal dəstəyi gücləndirmək” mövzusunda keçirilən yan tədbirdə COP29-un İqlim şəffaflığı üzrə yüksək səviyyəli həmkarı, İtaliyanın iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Françesko Korvaro BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına bütün mərhələlərdə, o cümlədən potensialın gücləndirilməsi üzrə təlimlərin keçirilməsində öz dəstəyini göstərməyə hazır olduğunu bildirib.**



F.Korvaro ötən il 2 mindən çox ekspert üçün keçirilən təlimlərin təşkilində fəal çalışdığını, inkişaf etməkdə olan ölkələrə ikiillik şəffaflıq hesabatlarının hazırlanması və yekunlaşdırılmasında dəstək göstərməyə hazır olduğunu da vurğulayıb.

Xüsusi nümayəndənin sözlərinə görə, genişləndirilmiş şəffaflıq çərçivəsində universal iştirakı təşviq etmək məqsədi daşıyan Bakı Qlobal İqlim Şəffaflığı Platforması olduqca əhəmiyyətlidir: “Mən bütün ölkələri şəffaflığa olan sadiqliklərini bir daha vurğulamağa və ən qısa zamanda öz ikiillik şəffaflıq hesabatlarını təqdim etməyə çağırıram. Çünki bu, bütün ölkələrin ümumi maraqlarına xidmət edir”.

# Dünya Bankının Azərbaycanda “yaşıl” yatırımı

## *Enerji səmərəliliyi 509 milyon dollar gəlir gətirəcək*

**Dünya Bankının (DB) energetika üzrə baş mütəxəssisi Yasemin Orucu Azərbaycanda enerji səmərəliliyi mövzusunda keçirilən təqdimatda ictimai binalarda enerjidən səmərəli istifadə olunması ilə elektrik enerjisi istehsalına sərf edilən əlavə təbii qaz həcmləri ixracının ölkəyə ildə 509 milyon dollar gəlir gətirə biləcəyini vurğulayıb.**




Y.Orucunun sözlərinə görə, ictimai binalarda enerji səmərəliliyinin gerçəkləşdirilməsi ilə bağlı indiki tədbirlər hesabına Azərbaycanın elektrik enerjisinə qənaət üçün texniki potensialı istehlakın 50 faizini təşkil edir ki, bu da enerji təchizatı xərclərinə ildə 154 milyon ABŞ dollarına qədər qənaət etməyə imkan verəcək.

Baş mütəxəssis qeyd edib ki, söhbət ümumi sahəsi 40 milyon kvadratmetr olan 45 min ictimai binanın enerji səmərəliliyinin artırılmasından gedir: “Biz yaşayış sektorunda binaların enerji səmərəliliyinin artırılması üzrə tədbirlərin həyata keçirilməsinə başlamağı və onların əhatə dairəsini tədricən digər sektorlarda da genişləndirməyi təklif edirik. DB-nin qiymətləndirməsinə görə, ictimai binalarda enerji səmərəliliyi tədbirləri sayəsində illik ümumi enerji istehlakının 0,9 faizdən 3,1 faizə qədər enerjiyə qənaət etmək mümkündür. Bu, öz növbəsində, ildə əlavə 644 milyon kubmetr təbii qazın (hazırda elektrik enerjisi istehsalı üçün sərf olunur) ixracı və 509 milyon dollara qədər əlavə gəlirin təmin edilməsi deməkdir”.

Y.Orucu qeyd edib ki, bu tədbirlərin həyata keçirilməsinə pilot layihələrdən başlamaq olar. Hökumətin bu istiqamətdə görəcəyi çox iş var. Ölkədə Enerji Səmərəliliyi Fondunun yaradılması zəruridir. Bundan başqa, enerjiyə qənaət edən avadanlıqların əlçatanlığı məsələsi də həllini tapmalıdır.

Baş mütəxəssis onu da bildirib ki, DB-nin qiymətləndirməsinə görə, Azərbaycanda enerji səmərəliliyi tədbirlərinin həyata keçirilməsi (binaların izolyasiyası və səmərəli istilik cihazlarının istifadəsi) 2060-cı ilə qədər xalis sıfır emissiyası ssenarisi çərçivəsində 2050-ci ildə yaşayış sektorunda binaların isidilməsi və soyudulması üçün enerji tələbatını 60 faizdən çox azalda bilər.

Onun sözlərinə görə, 2030-cu ilə qədər yekun tələbin 5 faiz, 2050-ci ilə qədər isə 15 faiz azalmasına nail olmaq üçün elektrik enerjisinin bütün son istehlak sektorlarında enerji səmərəliliyinin artırılması siyasəti tətbiq edilməlidir.

# 8 milyard insan Bakı konfransından xilas yolu gözləyir

**COP29 kollektiv məqsədin müəyyənləşdirilməsi istiqamətində bir testdir. Dünyanın belə tədbirlərə böyük ehtiyacı var. Beynəlxalq aləm bacardığımızı görməlidir. Qarşıdakı aylar çox önəmlidir. Cəsarətli olmağa, fəaliyyəti gücləndirməyə ciddi ehtiyac duyulur. Geriyə yol yoxdur, yalnız irəli getmək tələb olunur.**



Bu sözləri BMT Baş katibinin birinci müavini Amina Mohammed PRE-COP29 konfransı çərçivəsində COP28, COP29 və COP30 sədrliklərinin birgə təşkilatçılığı ilə keçirilən “Troyka ölkələri”nin “1.5 dərəcə Selsi missiyası üçün Yol xəritəsi” mövzusundakı tədbirdə deyib.

“Troyka ölkələri” bizdən iqlim dəyişikliyi ilə mübarizədə müsbət nəticələrin qeydə alınması üçün koordinasiya olunan dəstək tələb edir. Biz lazımi dəstəyi üzərimizə götürməklə bütün sektorların hökumət səviyyəsində əməkdaşlığını istəyirik. Vaxt tükənir. Beynəlxalq ictimaiyyətin götürdüyü öhdəliklər yerinə yetirilməlidir. “Troyka ölkələri” çərçivəsində milli öhdəliklərin necə həyata keçirilməsini monitorinq etmək və milli iqtisadiyyatlardakı dəyişiklikləri izləmək niyyətindəyik. Digər vacib məsələ maliyyə dəstəyinin təmin edilməsi istiqamətində birgə işləməkdir. Bir sıra ölkələr keçid ərəfəsindədir və onlara dəstək göstərilməlidir. 8 milyard insanın gözləntisini həyata keçirmək üçün ambisiyalı olmalıyıq və qlobal əməkdaşlıq lazımdır”, – deyə Amina Mohammed qeyd edib.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*



# “Yaşıl dünya” naminə həmrəylik

## İqlim Maliyyəsi Fondunun yaradılması ölkəmizin təşəbbüsüdür

**COP29-un baş danışıqçısı Yalçın Rəfiyev mediaya açıqlamasında İqlim Maliyyəsi Fondunun yaradılmasının Azərbaycanın təşəbbüslərindən biri olduğunu bildirib və yeni maliyyə mexanizminin qurulmasında əsas məqsədin iqlim dəyişikliyi ilə mübarizəyə töhfə vermək olduğunu vurğulayıb. O, bunun üçün qrant əsaslı 1 milyard dollar vəsait toplanılmasının zəruriliyini xatırladıb.**



Baş danışıqçısı Y.Rəfiyev bildirib ki, İqlim Maliyyəsi Fondu Azərbaycan fondu olmayacaq, çoxtərəfli bir maliyyə qurumu kimi fəaliyyət göstərəcək. Fondun işində tərəfdar dövlətlər də iştirak edəcək və rəhbərlər bu sahəyə töhfə verən ölkələrdən seçiləcək. Çoxtərəfli maliyyə təşkilatları onun fəaliyyətinə nəzarət edəcək. Bakı sadəcə, bu fondun katibliyinə evsahibliyi edəcək.

Onun sözlərinə görə, indiyədək kiçik ada dövlətlərinin şikayətlərindən biri o idi ki, təbii fəlakət baş verəndə onlar beynəlxalq təşkilatlara müraciət etsələr də bu, nəticəsiz qalır. Ona görə də Azərbaycan alternativ maliyyə qurumunun yaradılması təşəbbüsünü irəli sürdü və bu, müsbət dəyərləndirildi.

Y.Rəfiyev bildirib ki, ayrılacaq vəsaitin 50 faizi iqlim fəaliyyətinə və “yaşıl” enerji texnologiyalarına yönəldiləcək. İnvestisiyalardan gələn gəlirlərin 20 faizi isə “2R2F” adlandırılan maliyyə mexanizmi vasitəsilə inkişaf etməkdə olan ölkələrə istiqamətləndiriləcək. İqlim Maliyyəsi Fondu kiçik və orta bərpaolunan enerji istehsalçılarına da dəstək göstərəcək.

“Biz hamımız o fikirdəyik ki, indi hərəkətə keçməliyik. İqlim üzrə maliyyənin hazırkı miqyası kifayət qədər deyil. 1,5 ºC-yə gedən yol Bakıdan keçir. Bu, asan həll yolu deyil. Biz inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr, qlobal Cənub və qlobal Şimal arasında, ada və qitə ölkələri arasında inam yaratmalıyıq. COP29-u hər kəsin səsinin eşidildiyini hiss edəcəyi əhatəli mühit olmasını təmin etməyəkdə qərarlıyıq”, - deyə baş danışıqçı bildirib.

Yeri gəlmişkən, Prezident İlham Əliyev iyulun 13-də ATƏT-in baş katibi xanım Helqa Mariya Şmidini qəbul edərkən də bu barədə fikirlərini diqqətə çatdırıb. Dövlətimizin başçısı ölkəmizin “yaşıl” keçid siyasəti və bu istiqamətdə görülən tədbirlərdən danışaraq inkişaf etməkdə olan kiçik ada dövlətlərinin Azərbaycanın gündəliyində prioritet istiqamətlərdən biri olduğunu deyib və “Commonwealth” təşkilatı ilə birlikdə kiçik ada dövlətləri ilə əlaqədar xüsusi fondun yaradılması istiqamətində iş aparıldığını bildirib.

COP29-un prezidenti, Azərbaycanın ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev də ayrı-ayrı çıxışlarında iqlimlə bağlı bütün səylərin dəstəklənməsində maliyyənin mühüm rol oynadığını vurğulayıb. O, bu sahədə irəliləyişlərin əldə olduğunu qeyd edərək, eyni zamanda, qlobal maliyyə institutlarına məqsəd və fəaliyyətlərində daha da irəliləmək barədə çağırışlarını bildirib.

“Qlobal maliyyə institutları bizim yaşamaq üçün əlverişli planet və yoxsulluqdan azad bir dünya yaratmaq niyyətimizlə bağlı artıq müsbət mesajlar veriblər və onlar iqlimlə bağlı öhdəliklərini konkret fəaliyyətlərlə gücləndirirlər”,– deyə COP29-un prezidenti xatırladıb. Onun sözlərinə görə, iqlim maliyyəsini daha geniş miqyasda əlçatan etmək üçün bu qurumlar genişmiqyaslı tədbirlər görməlidirlər. Biz fəaliyyətlərimizi ən mümkün yüksək məqsədlər səviyyəsində aktivləşdirməliyik. Biz dünən həyata keçirilməsi mümkün olmayanları bu gün gerçəkləşdirməliyik. Tərəfləri bir araya gətirmək, keçmiş vədlərin yerinə yetirilməsinə əmin olmaq və geridə heç nə qoymamaq üçün əlimizdən gələni etməkdən usanmamalıyıq.

COP29-un baş danışıqçısı Yalçın Rəfiyev qeyd edib ki, İqlim Maliyyəsi Fondu 1 milyard ABŞ dolları həcmində kapitallaşdırmaq məqsədi daşıyan ilkin fandreyzinq mərhələsi başa çatdıqdan və 10 iştirakçı ölkə səhmdar kimi öhdəlik götürdükdən sonra fəaliyyətə başlayacaq.

## AZAL ekoloji layihələri dəstəkləyir

**Azərbaycanın milli aviadaşıyıcısı AZAL sərnişinlərinə karbon emissiyalarının kompensasiyası proqramında iştirak edərək səyahətlərinin ekoloji cəhətdən daha əlverişliliyi imkanı yaradır.**




Bu könüllü təşəbbüs iqlim dəyişikliyi ilə mübarizəyə və aviasiyanın ətraf mühitə təsirini azaltmağa yönəlib. Proqram çərçivəsində AZAL karbon emissiyalarının kompensasiyası sahəsində tanınmış lider şirkətlərdən biri olan “CarbonClick” ilə əməkdaşlıq edir.

Bu proqram vasitəsilə AZAL-ın hər bir sərnişini ekoloji layihələrə dəstək verməklə öz uçuşlarının ətraf mühitə təsirini azalda bilər. Kompensasiya prosesini aviabilet alarkən və ya alındıqdan sonra həyata keçirmək mümkündür.

İqlim dəyişikliyinin ciddiliyini nəzərə alaraq AZAL bu problemin həllinə töhfə vermək üçün addımlar atır. Karbon emissiyalarının kompensasiyası proqramı çərçivəsində AZAL-ın sərnişinləri “Gold Standard” və VCS kimi beynəlxalq təşkilatların sertifikatlaşdırılmış layihələrini dəstəkləyirlər. Bu layihələr karbon emissiyalarını azaltmağa və təmiz enerji mənbələrinin istifadəsini artırmağa kömək edir. AZAL aviadaşımalar zamanı CO2 emissiyalarını azaltmaq məqsədilə ekoloji təşəbbüslərini daha da genişləndirməyi planlaşdırır.

## Dünyada bərpaolunan enerji 30 faizə çatıb



**2022-ci ildə yeni enerji güclərinin 83 faizi bərpa olunan mənbələrdən əldə edilib. Onların ümumi gücü 9,6 faiz və ya 295 giqavat artıb. Bu artımın böyük hissəsi–192 giqavatı günəş və 75 giqavatı külək hesabına əldə edilib.**

Hazırda dünyanın elektrik enerjisinə tələbatının təxminən 30 faizi artıq bərpa olunan mənbələr hesabına ödənilir və 1,5 dərəcədən çox olmayan istiləşmə məqsədinə nail olmaq üçün onların gücü 2030-cu ilə qədər üç dəfə artırılmalıdır. Bu məlumat Ümumdünya Metereoloji Təşkilatla Beynəlxalq Bərpa Olunan Enerji Agentliyinin ilk birgə hesabatında yer alıb.

Ekspertlər qeyd edirlər ki, alternativ enerjinin inkişafında əsas çətinliklərdən biri təbii iqlim dəyişkənliyidir (məsələn, El Niño kimi hadisələr səbəbindən). Onun üzündən külək enerjisi istehsalında mövsümi və illərarası enmə və qalxmalar 15 faizə çata bilər. Bərpa olunan enerji mənbələrinə arxayınlaşmaq üçün iqlim dəyişikliyini daha dəqiq proqnozlaşdırmağı öyrənməliyik, çünki dünyada gedən istiləşmə fonunda elektrik istehlakı artacaq, soyutma üçün daha çox enerji tələb olunacaq. Hesabatın müəllifləri ən perspektivli regionlardan biri kimi Afrika ölkələrini qeyd ediblər: onlar hazırda dünyada bərpa olunan enerjinin təxminən iki faizini istehsal edirlər, lakin optimal təbii şəraitə görə onun həyata keçirilməsi üçün bu regionun böyük potensialı var.

## Yeni nəslə təmiz gələcək!

**İqlim dəyişikliyinin fəsadları sərhədləri aşır. Buna görə də mövcud problemin həlli məqsədilə ölkələr birgə fəaliyyət göstərməklə düzgün strategiya yaratmalı və çətinliklər aradan qaldırılmalıdır.**



PRE-COP29 konfransı çərçivəsində keçirilən yan tədbirdə Birləşmiş Şəhərlər və Yerli Hökumətlər Təşkilatının baş katibinin xüsusi müşaviri Firdaous Oussidhoum daha sonra qeyd edib ki, iqlim probleminin həlli beynəlxalq əməkdaşlıq ilə mümkündür: “Ölkələr arasında əməkdaşlıq bütün sahələrdə olduğu kimi, iqlim probleminin həlli üçün də vacibdir. COP29-da müzakirə olunan məsələlər çox aktualdır. Düşünürəm ki, artıq hərəkətə keçmək vaxtıdır. Müzakirələr zamanı əsas prioritetimiz gələcək nəsil olmalıdır. Onlara planetin daha təmiz gələcəyini vəd etməliyik”.

## Azərbaycanın COP29-a sədrliyi razılıqla qarşılanır

**COP29-un sədri kimi Azərbaycan ona həvalə edilmiş çətin vəzifənin öhdəsindən uğurla gəlir.**



Bu sözləri COP29-un İqlim şəffaflığı üzrə yüksək səviyyəli həmkarı, İtaliyanın iqlim dəyişikliyi üzrə xüsusi nümayəndəsi Françesko Korvaro Pre-COP29 ilkin konfransı çərçivəsindəki çıxışında deyib.



F.Korvaro qeyd edib ki, Bakıda keçiriləcək COP29-da çətin vəzifələr həll edilməli olacaq. O, tərəflərin razılığa gələ biləcəyinə əminliyini ifadə edib: “Bizim qarşımızda iqlim maliyyəsi üzrə Yeni Kollektiv Kəmiyyət Məqsədinin müzakirəsi dayanır. İnanıram ki, tərəflər ümumi fikrə gələ və iqlim fondlarının gələcəyi üçün bu istiqamətdə növbəti addımları razılaşdıra biləcəklər”.

## Bakı konfransından nikbin gözləntilər



**Beynəlxalq İqlim və İnkişaf İnstitutu Bakıda keçiriləcək COP29 konfransında iqlim maliyyəsi ilə bağlı danışıqlardan yaxşı nəticələr gözləyir.**

Bu barədə institutun nümayəndəsi Una Mey Qordon bildirib. O, Pre-COP29 çərçivəsində nazirlərin görüşünü mühüm hadisə kimi dəyərləndirib, eyni zamanda, bu toplantının önəmli platforma olaraq tərəflər arasında etimadın möhkəmləndirilməsi üçün nəzərdə tutulduğunu , COP29-un yekunları üzrə iqlim maliyyəsinin, xüsusilə İtki və Zərər Fonduna ayırmaların artacağını gözlədiyini vurğulayıb.

## İstiləşməyə soyuq münasibət yolverilməzdir

**COP29-un müəyyən edilmiş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Bakıda keçirilən Pre-COP29-un ikinci günü çərçivəsində iqlim və inkişaf üzrə nazirlərin görüşündə iqlim dəyişikliyinə uyğunlaşma ilə bağlı fəaliyyətin bu gün artıq insan həyatını xilas etdiyini bildirib. O, qlobal istiləşmənin 1,5 dərəcə ilə məhdudlaşdırılacağı təqdirdə belə, hələ də bütün dünyada bu problemin ciddi nəticələri ilə mübarizə aparılmasının zəruri olduğunu vurğulayıb.**



O qeyd edib ki, Ümumdünya Meteorologiya Təşkilatının məlumatına görə, Afrikanın cənub-şərq hissəsində ötən 10 il ərzində uyğunlaşma dəyəri ildə 50 milyard qiymətləndirilir. Uyğunlaşma üzrə maliyyə həcmi həyatın tələblərindən xeyli geri qalır: “COP29 Sədrliyinin ambisiyaları artırmaq və hərəkətə keçmək barədə planı var. Bu plan iqlim maliyyələşdirilməsi ilə Paris Sazişinin bütün istiqamətlərində əhəmiyyətli irəliləyişi təmin edəcək”.

COP29 prezidenti “Yaşıl” İqlim Fondunu qarşıya qoyulan vəzifələrin həyata keçirilməsində ölkələrə dəstəyi sürətləndirməyə çağıraraq bu məsələdə investisiyaların istiqamətləndirilməsinin də mühüm önəm daşıdığını diqqətə çatdırıb və yalnız bu yolla ölkələrin iqlim maliyyəsinin yaxşılaşacağına əminliyini deyib.

## Karbon artımı itkiləri də yüksəldir



**Vanuatunun iqlim dəyişikliyi və uyğunlaşma üzrə naziri Con Salonq Bakıda Pre-COP29-un ikinci günü çərçivəsində keçirilən iqlim və inkişaf üzrə nazirlərin görüşündə bildirib ki, uyğunlaşma fəaliyyətinin sürətləndirilməsi iqlim dəyişikliyinə ən həssas olan ölkələr, xüsusən də kiçik ada dövlətləri və ən az inkişaf etmiş ölkələr üçün vacibdir.**

Onun sözlərinə görə, dünya birliyi uçurumun astanasındadır və bu, yeni reallıqlara uyğunlaşmanı daha da vacib edir: “Əlavə maliyyə uyğunlaşması olmadan irəliyə doğru atılan bir addım ölkələrimiz üçün iqlimlə bağlı geri dönüşü olmayan ziyan və itkilərə səbəb olur. Söhbət mövcud olmaq üçün vasitələr, mədəni identiklik və əslində, öz həyatımızdan gedir”.

C.Salonq Azərbaycana COP29-da sədrliyi çərçivəsində fəallığa görə təşəkkür edib və tərəfləri iqlimin maliyyələşdirilməsini artırmağa çağırıb: “Mən sizi həll yollarına diqqət yetirməyə, öhdəliklər və real fəaliyyət arasındakı fərqi aradan qaldırmağa çağırıram. Ölkələrimizdə uyğunlaşmanın maliyyələşdirilməsində daha səmərəli irəliləyiş əldə etməyə imkan verəcək islahatların həyata keçirilməsinin vaxtı çatıb”.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

# Leyla və Arzu Əliyeva gənclər düşərgəsində







Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva Qəbələ rayonunda keçirilən “Gənclərin Yaşıl Təşəbbüsləri” ekoloji düşərgəsinin qonağı olublar.

“Gənclərin Yaşıl Təşəbbüsləri” ekoloji düşərgəsi IDEA İctimai Birliyi və Gənclərin İnkişaf və Karyera Mərkəzi tərəfindən COP29 çərçivəsində təşkil edilib və oktyabrın 10-da və 11-də Qəbələ rayonunda keçirilib. Düşərgədə Qəbələ və ətraf rayonlardan olan, ümumilikdə 40 gənc iştirak edib. Məqsəd COP29 tədbiri öncəsində gənclərin ekoloji məsələlərlə bağlı fikirlərini, gözləntilərini və təkliflərini dinləmək, onların bu sahədə fəallığını artırmaqdır.

İki gün ərzində gənclər iqlim dəyişikliyi, ətraf mühitin mühafizəsi və ekoloji təmiz həyat tərzi kimi mühüm mövzularda müxtəlif təlim və vörkşoplarda iştirak edərək ekoloji problemlərə dair yeni yanaşmalar əldə ediblər.

Səfər zamanı Leyla Əliyeva və Arzu Əliyeva düşərgənin proqramı ilə yaxından tanış olub, iştirakçıların yaşadıqları çadır şəhərciyini ziyarət edərək onların gündəlik fəaliyyəti və düşərgə həyatına dair təəssüratlarını öyrəniblər. Sonda Leyla Əliyeva və Arzu Əliyeva gənclərlə birgə xatirə şəkli çəkdirərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıblar. Gənclər isə öz növbələrində düşərgənin təşkilində göstərdikləri dəstək və diqqət üçün Leyla Əliyevaya və Arzu Əliyevaya təşəkkür ediblər.

*

**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva oktyabrın 10-da Qəbələdə “Gənc arıçı” layihəsinin iştirakçısı Rəfiqə Maxsudovanın evində ziyarət ediblər.**

Leyla Əliyeva görüşdə gənc arıçı ailə ilə səmimi söhbət edib, fəaliyyəti ilə maraqlanıb, arıçılıq sahəsindəki ilk təcrübə və



məhsuldarlıqla bağlı təəssüratlarını dinləyib.

Öz növbəsində, layihə iştirakçısı Rəfiqə Maxsudova Leyla Əliyevaya göstərdiyi diqqət və dəstəyə görə minnətdarlığını bildirib, süzdüyü ilk balı xüsusi qablaşdırmada hədiyyə edib.

Qeyd edək ki, 2021-ci ildən başlayaraq IDEA İctimai Birliyinin təşəbbüsü və Azərbaycan Respublikasının Gənclər Fondu, Dövlət Məşğulluq Agentliyi və ABAD publik hüquqi şəxsin tərəfdaşlığı ilə həyata keçirilən “Gənc arıçı” layihəsinin növbəti mərhələsi çərçivəsində Qəbələ rayonunda 20 gənc arıçı dəstəklənib və onlar artıq öz ilk məhsullarını əldə etməyə başlayıblar.

Məqsədi biomüxtəlifliyin qorunmasına töhfə vermək, arıçılıq təsərrüfatının ekosahibkarlıq növü kimi yayılmasını təşviq etmək, təbii bal istehsalını dəstəkləmək və gənc ailələrin maddi rifahını yaxşılaşdırmaq olan layihə çərçivəsində seçilən 20 gəncə peşəkar mütəxəssislərin iştirakı ilə bir aylıq təlim keçirilib. Sonra gənclər arıçılıq təsərrüfatı üçün lazımi arı ailəsi və pətəkləri, arıçı geyimi, balsüzən aparat və digər ləvazimatlarla tam təchiz olunublar.

Gənc arıçılar, həmçinin məhsulların sertifikatlaşdırılması, brendləşdirilməsi, dizaynı və satışın təşkili dəstəyi ilə təmin ediləcəklər.

**Film təqdimatı**

# Şəhid kapitan ekranda ölməzlik qazandı

**Nizami Kino Mərkəzində Vətən müharibəsi şəhidi kapitan Həmid Cəfərlinin döyüş yolundan bəhs edən sənədli filmin təqdimatı keçirildi. Yeni ekran əsərinin ilk tamaşaçıları dövlət qurumlarının nümayəndələri, şəhid ailələrinin üzvləri, qazilər, tanınmış elm və sənət adamları, media təmsilçiləri idilər.**






Filmdə şəhidin ailə həyatı, məktəb illəri və hərbi xidmət dövrü ilə bağlı kadrlar aparıcı yer tutur. Həmid Cəfərlinin valideynlərinin, döyüş yoldaşlarının, komandiri - Vətən Müharibəsi Qəhrəmanı Nizami Mövlanovun açıqlamaları onun bitkin ekran obrazına mənalı epizodlar əlavə edir. Filmdə igid kapitanın keçdiyi döyüş yolunu və qəhrəmanlığını əks etdirən videoxronikadan, fotolardan və səs yazılarından da istifadə olunub.

Bütün bunlardan məlum olur ki, Həmid Cəfərli hərbçi olmaq arzusu ilə 2004-cü ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseyə, 2007-ci ildə isə Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə daxil olub. 2011-ci ildə həmin məktəbi “Qoşun kəşfiyyatı” ixtisası üzrə bitirən leytenant Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində kəşfiyyatçı tağım komandiri kursunda ixtisaslaşma keçərək 2012-ci ildən N saylı hərbi hissənin kəşfiyyat bölüyünün tağım komandiri vəzifəsinə təyin olunub.

Orduda xidmət illərində gənc zabit döyüş və ictimai hazırlıqda, nizam-intizamında yüksək nailiyyətlər əldə etdiyinə görə Fəxri fərman, “Azərbaycan Ordusunun 95 illiyi” yubiley medalı ilə təltif olunub və baş leytenant hərbi rütbəsi alıb. O, yüksək hərbi bilik, bacarıq nümayiş etdirdiyinə görə kapitan rütbəsinə qədər yüksəlib.

Təqdimat mərasimində Həmid Cəfərlinin valideynlərindən və komandirindən müsahibələr aldıq.

**Kərim Cəfərli, şəhidin atası:**

– Bütün şəhid ataları kimi, övlad acısı yaşasam da, təsəllim odur ki, oğlum Qarabağın erməni quldurlarından təmizlənməsində iştirak edib və torpaq uğrunda şəhid olub. Hər



gün övladımla ürəyimdə danışıram. Ona deyirəm ki, sənin övladların bizimlə birgə böyüyür, səninlə qürur duyurlar. Oğlun Cabbar məktəbdə əla qiymətlərlə oxuyur.

Mən tez-tez şəhid ata-anaları ilə birgə onlara həsr edilən görüşlərdə oluram. Bu tədbirlər bizim təsəllimizdirsə, gənclər üçün Vətənə xidmət örnəyidir. Biz qəhrəman oğullarımızla fəxr edirik.

**Zenfurə Cəfərli, şəhidin anası:**

– Oğlumdan əvvəl əmisi oğlu Orxan şəhid oldu. Az sonra Həmid zəng vurdu. Telefonda kövrək səslə dedi ki, ana, əmim oğlunun qisasını aldım: “Düşmən böyük itkilər verərə geri çəkilir. Bu gün Cəbrayılın Nüzgar kəndinə bayrağımızı sancdım. Bayraqlarımız bütün Qarabağda dalğalanacaq. Ana, mənə bir şey olsa, ağlama. Bu döyüşdür. Biz qalib gəlməliyik. Bütün Azərbaycan bizdən qələbə xəbəri gözləyir. Hər an hər şeyə hazır olun”.

Oktyabrın beşi idi. Səhərdən ürəyim çox narahat idi. Axşam oğlumun şəhid olmasının xəbərini aldım. Biz analar oğulları dünyaya gətirmişdik ki, Vətənə arxa olsunlar, yeri gələndə torpaqlarımızı yağı düşməndən xilas etsinlər. Onlar şəhid olsalar da, qəhrəmanlıqları ilə ölməzlik qazandılar.

**Cabbar Cəfərli, şəhidin oğlu:**

– Mənim 8 yaşım var. Oxuduğum məktəbdə müəllimlərim şəhidləri hörmətlə anır və onların döyüş yolu haqqında bizə danışırlar. O döyüşçülərdən biri də mənim atamdır. Mən qəhrəman atamla fəxr edirəm.

**Nizami Mövlanov, polkovnik, Vətən Müharibəsi Qəhrəmanı:**

– Həmid mənim zabitim olub. O, heç nədən qorxmayan, cəsur bir döyüşçü idi. Həmid həm də son dərəcə savadlı, hərbi bilik və təcrübəsi olan zabit idi. Mən ona baxanda gələcəyin böyük hərbçisini görürdüm. Həmidin yaşı az olsa da, müdrik idi. Əsgərlərini doğma qardaş kimi sevirdi. Döyüşlər zamanı onun göstərdiyi şücaət gerçək dastandır. Onun haqqında nə qədər yazılsa, neçə film çəkilsə azdır. Çünki belə oğullar bu Vətənə hər zaman gərəkdir. Vətən oğulları ilə qürrələnir. Həmidin yoxluğunun acısını yaşasam da, bilirəm ki, o, Azərbaycanına Vətən müharibəsində zəfər qazandıran igidlərdən biridir.

*Kəmalə ABDİNOVA,*
*Fidan SALMANOVA,*
*Elşən AĞALAROV (foto)*
*XQ*

# “Regionlarda ali təhsil: reallıqlar və perspektivlər”




**Dünən Azərbaycan Dövlət Pedaqoji Universitetinin Quba filialında “Regionlarda ali təhsil: reallıqlar və perspektivlər” mövzusunda IV beynəlxalq elmi konfrans işə başlayıb. Konfrans “Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunub.**

Rəsmi hissə, bədii proqram və üç paneldən ibarət olan, iki gün davam etməsi planlaşdırılan konfrans çox sayda yerli və xarici təhsil müəssisələrinin təşkilati dəstəyi ilə həyata keçirilir.

Rəsmi açılış mərasimində ADPU-nun rektoru professor Cəfər Cəfərov, Milli Məclisin deputatı, professor Əlibala Məhərrəmzadə, Elm və Təhsil Nazirliyinin Coğrafiya İnstitutunun baş direktoru professor Zakir Eminov, ADPU-nun Quba filialının direktoru dosent Yusif Alıyev, Bişkek Musiqi Pedaqoji İnstitutunun (Qırğızıstan) professoru Ulanbek Mambetakunov, Stavropol Dövlət Pedaqoji İnstitutunun Yessentuki filialının (Rusiya Federasiyası) dosenti Marina Çotçayeva, Pəncab Universitetinin (Pakistan) professoru Safdar Ali Şirazi və başqaları iştirak ediblər.

Məlumat verilib ki, konfransa ümumilikdə 74 məqalə təqdim olunub. Onlardan 54-ü Təşkilat Komitəsinin redaksiya heyəti tərəfindən təsdiqlənib. Məqalələrin qəbulu 2024-cü il noyabrın 12-dək davam edəcək. Məqalələrdə qlobal məkanda aktual olan beynəlxalq problemlərə toxunulur.

Ümumilikdə konfransın təşkilinə 7 ölkədən 12 ali məktəb dəstək verib.

Konfrans çərçivəsində filialda Vətən müharibəsi şəhidi, kapitan Aqil Məlikovun adını daşıyan auditoriyanın da açılışı olub.

*XQ*

# Azərbaycan–Çin elmi əməkdaşlığı

## Strateji inkişaf kursu kontekstində

II MƏQALƏ

**Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir.**

**Heydər ƏLİYEV,**
**Ümummilli lider**

### Elmi əməkdaşlığın çoxşaxəliliyi

Müasir dövrdə hər bir dövlət üçün əlaqələrin çoxşaxəli olması müsbət hal sayılır. Burada, təbii ki, müxtəlif istiqamətlərdə əlaqələrin kompleks halında səmərəli və faydalı olması mühüm şərtdir. Azərbaycanın xarici siyasəti bu baxımdan bir nümunədir. Sözün həqiqi mənasında, həmin siyasət multilateraldır və beynəlxalq miqyasda yalnız qarşılıqlı faydalı əməkdaşlığa fokuslanmışdır. Çin istiqaməti istisna deyildir. Müqayisələr göstərir ki, bütün səviyyələrdə nəzərdə tutulan əməkdaşlıqlar məzmun və məqsədcə bir-birini tamamlayır. Elm sahəsində əməkdaşlıqda isə AMEA-nın rolu danılmazdır. Bu kontekstdə daha bir məsələ aktuallaşır.

Azərbaycanın ali elmi təşkilatı beynəlxalq əməkdaşlıqda multilaterallığa ciddi əməl edir. Yəni ölkənin strateji inkişaf kursu əsasında müəyyən edilmiş bütün istiqamətlərdə qarşılıqlı faydalı əməkdaşlıq modelinə üstünlük verir. Bu özəllik Qərb, MDB, TDT, Çin və başqa istiqamətlərdə eyni dərəcədə özünü göstərir. Həmin istiqamətlərdə AMEA-nın əməkdaşlıq xəttində ortaq xüsusiyyət birmənalı olaraq Azərbaycanın müstəqil dövlətçilik maraqlarına uyğun olması ilə bağlıdır. Məhz həmin müstəvidə biz AMEA–TDT dövlətlərinin elmi təşkilatları, AMEA–Çin elmi təşkilatlarının əməkdaşlığını müqayisəli təhlil edə bilərik. Burada əsas məqam, Azərbaycan Milli Elmlər Akademiyasının beynəlxalq elmi əməkdaşlıqları ölkənin strateji inkişaf kursunun əsas müddəalarına tam uyğun məzmun və məqsədə qurduğunu ifadə etməkdən ibarətdir.

Nəzəri olaraq məsələ müxtəliflik şəraitində çoxşaxəli əməkdaşlığı ümumi məqsədə çatmaq üçün faydalı olmağın optimal modelini (və ya nümunəsini) tapmaq kimi fəlsəfi xarakterli problemin dərkinə gedib çıxır.

### Çoxistiqamətli elmi əməkdaşlığın faydalılıq əmsalı

Həlelik dünya miqyasında hamı tərəfindən birmənalı qəbul edilə bilən belə bir əmsal mövcud deyildir. Elmi fəaliyyətin qiymətləndirilməsinin rəqəmsallıq dövründə müxtəlif kəmiyyət müəyyənləşdiricisindən istifadə olunur. Lakin bütöv mənzərəni nəticəvericilik aspektində ortaq kriteriyalara görə qiymətləndirməyə fərqli yanaşmalar mövcuddur. AMEA-nın dövlət elmi təşkilatı kimi çoxistiqamətli əməkdaşlıq strategiyasında ilk növbədə dövləti maraqların təmini nəzərə alınmalıdır. Təşkilatın yeniləşmə kursunun mərkəzində məhz bu tezis dayanır.

Sonra, AMEA beynəlxalq elmi əməkdaşlığı bilik və informasiya mübadiləsinin ən son texnologiyaları əsasında qurmalıdır. "Elektron Akademiya", "Elektron Kitabxana", "Gənc Akademiya", Rəyasət Heyəti Aparatının "Elm və təhsil" şöbəsi kimi struktur-funksional elmi fəaliyyət vahidləri həmin məqsədə xidmət edir. Onlar aktiv fəaliyyətdədirlər.

Nəhayət, AMEA-nın beynəlxalq əməkdaşlıq şəbəkəsini yaratmaqla hansı mövzulara önəm verməsi milli maraqlar baxımından əhəmiyyətlidir. Əməkdaşlığın istiqamətləri üzrə imzalanan sənədlər göstərir ki, AMEA ən aktual elmi istiqamətlər və mövzular üzrə əməkdaşlığa üstünlük verir.

Belə alınır ki, akademiyanın elmi əməkdaşlıqda faydalılıq əmsalının keyfiyyət göstəricisi üç başlıca faktorun qarşılıqlı əlaqəsində müəyyənləşə bilər: bunlar dövləti və milli maraqlara xidmət göstərilməsi, təşkilatın daxili struktur-funksional imkanlarının ən müasir texnologiyalar üzrə işləməyə uyğunlaşdırılması və əməkdaşlıq şəbəkəsində aktual mövzuların rəngarəngiliyinin əsas yer tutmasıdır.

Bu, özlüyündə məsələnin mürəkkəb dinamik sistem kimi baxılması anlamına gəlir. Həmin kontekstdə AMEA–Türk dövlətləri elmi təşkilatları və AMEA–Çin elmi təşkilatları əməkdaşlığı xəttinə onların qarşılıqlı əlaqəsində baxmağa imkan verir.

### AMEA–Çin elmi əməkdaşlığı çoxfaktorlu şəbəkə kimi

Öncəki məqalədə tərəflər arasında elmi əməkdaşlığın konkret faktlarının gətirilməsi göstərir ki, AMEA həm məkan, həm də əməkdaşlığın məzmunu aspektində müxtəlifliyə üstünlük verir. Akademiya Çinin müxtəlif şəhərlərində yerləşən elm və təhsil təşkilatları ilə konkret müasir istiqamətlər üzrə əməkdaşlıq sistemi yaradır. Bura Pekin, Hebey əyalətinin Şiszyacjua şəhəri, Honkonq və digərləri daxildir. Bu müxtəliflik əməkdaşlığın müxtəlif elm sahələri üzrə aparılması ilə tamamlanır. Ədəbiyyat, fəlsəfə, sosial elmlər, təbiət elmləri, müasir elmi istiqamətlər əməkdaşlıqda yer alır. Bunlardan başqa, elmi əməkdaşlığın müasir elektron formaları təbdiq olunur (məsələn, virtual laboratoriya).

Bütün bunlar AMEA rəhbərliyi tərəfindən koordinasiya edilir. Təşkil edilən səfərlər, ortaq elmi layihələr, ayrıca, elmi tədqiqat mövzuları bir tərəfdən, Azərbaycan və Çinin böyük mütəfəkkirlərinin qarşılıqlı tanıdılması digər tərəfdən təhsil aspektində əməkdaşlıqla müşayiət olunur. Deməli, söhbət elmi təşkil edilmiş əməkdaşlıq şəbəkəsindən gedir ki, qarşıya konkret məqsədlər qoyulmuşdur.

### AMEA–TDT üzvlərinin elmi əməkdaşlıq şəbəkəsi

Azərbaycan Milli Elmlər Akademiyasının Mərkəzi Asiyadakı türk dövlətlərinin elmi təşkilatları ilə əməkdaşlıq xətti Çin istiqaməti ilə məzmun və məqsədlə uyğunluq təşkil edir. Burada məkan müxtəlifliyi ilə əməkdaşlıq texnologiyalarının müasirliyi və mövzu zənginliyi özünü göstərir. AMEA Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstanın elm və təhsil təşkilatları ilə əməkdaşlığı Çin istiqaməti ilə eyni məntiq əsasında qurur və onu inkişaf etdirir.

I məqalədə bununla bağlı faktların bir qismini gətirmişik. Onlar göstərirlər ki, TDT istiqamətində AMEA daha mürəkkəb əməkdaşlıq şəbəkəsi yaratmışdır. Lakin burada iki incə siyasi və elmi məqamı vurğulamaq gərəkdir.

Məsələ onunla bağlıdır ki, TDT istiqaməti Azərbaycan siyasəti və elmi üçün xüsusi məna kəsb edir. Ona görə ki, Azərbaycan türk dövlətidir və TDT Türk dünyasının sivil, demokratik və liberal əsasda təşkilatlanma formasıdır. Onun ciddi perspektivləri vardır. AMEA da daxil olmaqla hər bir Azərbaycan təşkilatı bu məqamı nəzərə almağa borcludur (məcbur deyil, daxildən gələn tələbatı müqəddəs vəzifə kimi qəbul etməkdir).

Bununla yanaşı, TDT regional təşkilat kimi regionlararası məkanda da fəal olmağı planlaşdırmışdır. Yəni onun istənilən sahədə fəaliyyətində regional miqyasla regionlararası miqyas qarşılıqlı əlaqədə olmalıdır və bir-birini tamamlamalıdır. Bu baxımdan elm sahəsində maraqların uyğunlaşdırılması faktiki olaraq regionlararası konteksti nəzərdə tutur. Bu özəllik elmi əməkdaşlıq prosesində mütləq diqqətə alınmalıdır ki, AMEA məhz həmin məntiqlə fəaliyyət göstərir.

Digər məqam türk dövlətlərinin elmi təşkilatlarının birləşdirici (elmi maraqları), kooridansiyaedici (elmi idarəetmə və elmi yaradıcılığı) və fokuslaşdırıcı (təşkilati olaraq elmi fəaliyyət məqsədlərini) gücü ilə əlaqəlidir. Burada vəziyyət bir qədər araşdırılmalıdır. Çünki ayrılıqda hansısa türk dövlətinin (məsələn, Türkiyənin) müəyyən təşkilatı güclü potensiala və müxtəlif əməkdaşlıq əlaqələrinə malik ola bilər (məsələn, TÜBİTAK).

Ancaq məsələ təşkilat olaraq Türk dünyasını elmi əlaqələndirmə məntiqi ilə regionlararası miqyasda TDT-nin başqa təşkilatlar və dövlətlərlə əlaqələrinin məntiqini uyğunlaşdırmağa gələndə aydın olmayan məqamlar az deyildir. Bu aspektdə indi AMEA qədər birləşdirici, koordinasiyaedici və fokuslaşdırıcı elmi təşkilat kimi gözə dəymir.



AMEA-nın yeniləşmə kursu faktiki olaraq burada nəzəri-konseptual və praktiki-feili aspektləri özündə sintez edərək həm TDT, həm də ondan kənarda olan təşkilatlara proyeksiya edə bilmək fəlsəfəsinə malikdir.

İndi vurğulanan iki incə faktorun kontekstində AMEA–TDT, AMEA–Çin əməkdaşlıq istiqamətlərinin uyğunlaşdırıla bilinmələri imkanlarına baxaq.

### AMEA əməkdaşlıq modeli regionlararası miqyasa proyeksiya nümunəsi kimi

Çin istiqaməti ən azı iki baxımdan AMEA üçün önəmlidir. Birincisi, Çin müasir mərhələdə elmi inkişaf tempi baxımından ən perspektivli məkandır. İkincisi, AMEA-nın TDT üzvləri ilə bağlı əməkdaşlıq formatını daha geniş miqyasa proyeksiya etməsi strateji mahiyyətli zərurətdir. Hər iki istiqamət bir-biri ilə bağlıdır.

Birinci istiqamətin AMEA üçün vacibliyi dünya üzrə ən yeni elmi nailiyyətlər ilə çevik tanış olmaqla izah olunur. Statistik göstəricilərə görə, artıq Çin elmi təşkilatları bir sıra aspektlər üzrə dünyada birinci sıradadırlar.

Məsələn, Çin Elmlər Akademiyası son 4 ildə dalbadal yenilikçilik və innovativlik üzrə reytinqdə ilk sıranı tutur (IBM Şirkəti də daxil ənənəvi aparıcı olan şirkətləri geridə qoymuşdur).

"Nature" jurnalının 2024-cü il üçün tibb və biologiya üzrə müəyyən etdiyi reytinqdə də Çin akademiyaları Harvardı arxada qoyaraq ilk sıraya yerləşmişdir.

Nobel mükafatı laureatı Ə.Səncərin AMEA Rəyasət Heyətində məruzəsi zamanı ifadə etdiyi kimi, 1997-1998-ci illərdə Çin elmi reytinqdə heç ilk onluğa daxil deyildi. Deməli, türklərin çinlilərdən elmlə bağlı öyrənə biləcəyi çox şeylər vardır. AMEA üçün bu, təşkilati formada əməkdaşlığın dinamikasının faydalılıq faktoru üzrə qurulması anlamını verir.

Buradan ikinci istiqamətin əhəmiyyəti avtomatik alınır. Belə ki, qarşıya TDT-ni gücləndirmək məqsədi qoyulmuşdursa, ilk növbədə elmi potensialın buna yönəldilməsi gərəkdir. Müasir dünyada başqa cür qalıcı inkişafa nail olmaq imkansızdır. Deməli, AMEA TDT üzvləri ilə əməkdaşlıq modelini Çinlə əməkdaşlıq nümunəsi ilə harmoniya halına gətirməlidir. AMEA-dan başqa bu işi görə biləcək başqa elmi təşkilat yoxdur. Bunu AMEA-nın yeniləşmə kursunun nəzəri-konseptual özəllikləri ilə praktiki-tətbiqi addımlarının vəhdətində görmək olar. Qalır bu kursu dərindən öyrənib, onun başlıca strateji hədəflərini dərk etmək. Aidiyyətli orqanlar sözdə deyil, əməldə bunu etməlidirlər. Dövlətçilik və müstəqillik naminə!

Bütün bunlar onu göstərir ki, AMEA-nın həyata keçirdiyi və dünyanın müxtəlif regionlarını vahid şəbəkədə "birləşdirməyə" yönəlmiş əməkdaşlıq xətti Çin istiqamətində də strateji əhəmiyyətə malikdir. O cümlədən, AMEA, sözün həqiqi mənasında, elm sahəsində Türk dünyası ilə Çin arasında real və nəticəverici əməkdaşlıq prosesini təşkil edə bilər. Kim bilir, bu, baş Versə, qısa müddətdə türk və çin alimləri birgə olaraq Nobel mükafatı ala bilərlər! Niyə də olmasın?!

*Füzuli QURBANOV,*
*XQ-nin analitiki,*
*fəlsəfə elmləri doktoru*

---

# Şuşalılar doğma yurda ruh cana qovuşduğu kimi qayıdırlar

**Yenidən qurulan, gündən-günə abadlaşan, gözəlləşən mədəniyyətimizin beşiyi, qeyrət qalamız Şuşa tarixinin ən xoşbəxt günlərini yaşamaqdadır. Bir vaxtlar erməni işğalı altında inləyən torpaqlarımızın ətrini duymaq, sorağını almaq arzusu ilə yaşayan şuşalılar indi sevinə-sevinə daimi yaşamaq üçün öz ata-baba yurdlarına qayıdırlar!**



Möhtəşəm qələbələrimizin memarı, Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq oktyabrın 8-də, 44 günlük zəfər dastanımızın 4-cü ildönmü günlərində daha 60 keçmiş məcburi köçkünün həsrətinə son qoyulub, 16 ailə doğma Şuşasına qovuşub. Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin məlumatına görə, bununla da Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində 220 ailənin, yəni 823 nəfərin Şuşa şəhərində daimi məskunlaşması təmin edilib. Bu dəfə də köçürülmə zamanı şəhid ailələri, respublikamızın müxtəlif bölgələrində sanatoriyalarda, yarımçıq tikililərdə çətin şəraitdə yaşayanlar, həmçinin qazilər və müharibə veteranları diqqətdə saxlanılıb.



**Hazırda köç həyəcanları davam edən, yeni, yarlı-yaraşıqlı evlərində yerləşməkdə olan şuşalıların bir neçəsi ilə əlaqə saxlayaraq onların sevinclərinə şərik olduq, xoş təəssüratlarını öyrəndik. Əslən Qərbi Azərbaycandan olan, taleyinə həm qaçqınlıq, həm də məcburi köçkünlük yazılmış Təranə Mamaşova bildirdi ki, illərlə bu xoşbəxt günlərin xəyalı ilə təsəlli tapıb:**

– Mən erməni vəhşiliyinin acılarını iki dəfə yaşamışam. 1998-ci ildə Qərbi Azərbaycandakı əzəli torpaqlarımızdan qaçqın düşdükdən sonra Şuşaya sığınmışdım. 1992-ci ildə isə Şuşasız qaldım. Uzun illər Bakının Sabunçu rayonuda "Qızılqum" sanatoriyasında məskunlaşmışdıq. Daha sonra müvəqqəti olaraq Yeni Ramana qəsəbəsində yeni tikilmiş, müasir standartlara cavab verən binada mənzillə təmin olundum. Yəni, o ağır günlərimizdə hər zaman dövlətimizin qayğısını hiss etmişik və inanmışıq ki, nə vaxtsa mütləq öz doğma yurdlarımıza qayıdacağıq.

**Təranə xanım Şuşada yaşadığı ilk günlərin duyğularını sözlə təsvir etməyin çətin olduğunu söylədi:**

– Şuşadan çıxanda 21 yaşım var idi. İndi 52 yaşında yenidən doğma şəhərimə, öz təzə evimə qayıtmışam. Mənim Allahdan bir diləyim də var: Bu gün Qarabağa, Şərqi Zəngəzura olduğu kimi, nə vaxtsa köç karvanları Qərbi Azərbaycanımıza üz tutsun! Mən Müzəffər Ali Baş Komandanımız İlham Əliyevin müdrik siyasəti, əzmi, qətiyyəti sayəsində hamımızın arzusu olan həmin günlərin də gələcəyinə inanıram!



**Birinci Qarabağ müharibəsi veteranı Taleh Əliyev də Şuşanın daimi sakini olmağın sevincini yaşayanlardandır. Bildirdi ki, işi ilə əlaqədar xeyli müddətdir doğma şəhərindədir, artıq yeni mənzilinə də qovuşub:**

– Hamını gözəl, günəşli Şuşadan, Xankəndidən salamlayıram. Mən Birinci Qarabağ müharibəsi zamanı dörd ildən artıq, demək olar, cəbhənin əksər istiqamətlərində döyüşlərdə olmuşam. Sonra məcburi köçkünlük həyatı yaşadıq. Vaxt var idi, arzulayırdıq ki, torpaqlarımız işğaldan azad edilsin, lap çadırda da yaşamağa hazırıq. Nə çadır? İndi artıq mənim Şuşada öz evim var! Özü də geniş, işıqlı, gözəl! Bu evin qapısı hamının üzünə açıqdır! Bir vaxtlar xalqımız biz məcburi köçkünlərə qucaq açdı, dövlətimiz bizə sahib çıxdı. İndi kim arzulasa bizə qonaq gələ, lap elə günlərlə, aylarla qala bilər. Heç zaman unutmayacağımız bu gözəl günlər üçün dövlətimizə, möhtərəm cənab Prezidentimizə minnətdaram! Bu xoşbəxtliyi bizə qismət edən Allaha şükürlər olsun!

**Şuşada ikiotaqlı mənzillə təmin olunmuş Hüseynovlar ailəsi də sevinc içindədir. Onlar üçün hər cür şəraitin yaradıldığını deyən Məryəm Hüseynova Şuşanın havasının, suyunun insana sanki yeni bir həyat bəxş etdiyini bildirdi:**

– Məcburi köçkün kimi Yevlax şəhərində məskunlaşmışdıq. Əlbəttə, Azərbaycanımızın hər guşəsi bizim üçün əzizdir, doğmadır, ancaq Şuşa bir başqadır. Burada hər şey o qədər gözəldir ki! Mənzillər, binalar, yaradılan şərait. Ən əsası da yenidən qurulan Şuşa! Biz bu günləri illər boyu arzulamışıq. Allah şəhidlərimizə rəhmət eləsin, Müzəffər Ali Baş Komandanımızı, xalqımızı, ordumuzu qorusun! Yaşadığımız xoşbəxt anlar üçün Vətənimizin azadlığı naminə əməyi olan hər bir kəsə borcluyuq!

... Şuşa hər doğma sakininə qovuşduqca, çöhrəsi açılır, gözəlliyi bərq vurur. Hər gələni, gedəni, həmişəlik qalanı tərəfindən əzizləndikcə, tərifləndikcə, ağrısı-acısı canından çıxır, nazlı gəlin kimi cilvələnir. İllər boyu dodaqları "Şuşa" kəlməsinə təşnə şuşalıları yenidən öz qoynunda xoşbəxt gördükcə, Şuşa da xoşbəxt günlərinə geri dönür! Əbədi olsun, "baş tacı"mız, "üzük qaşı"mız!

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

# Yurda təpər, yağıya çəpər igid

## *19 yaşlı şəhidin dastanlaşan həyatı*

**İş stolumun üstündə bir kitab var. Üzqabığındakı çərçivədən hərbi geyimdə elə şəkil kimi bir oğlan baxır. Onun çatma qaşları, işıqlı gözləri, zil qara saçları var. Gəncliyin ən gözəl, qaynar illərini yaşadığı şübhəsizdi... Amma fonda payızın kövrək çağıdı. Saralmış, torpağa vida nəğməsi oxuyan yarpaqlar xəzələ dönüb... Arxa səhifədə isə zəif şölə saçan şam və avtomat silahının şəkli verilib.**



Kitabıın ilk səhifələrinin birində qəhrəmanın əsgər geyimində ayaqüstü şəkli verilib. Şəkil baharda, ağacların çiçək yağışında çimdiyi günlərdə çəkilib. Fotoşəklin altında istiqlalal şairimiz Xəlil Rza Ulutürkün bu misraları yazılıb:

**İtib-batmaq üçün yaranmamışam,**
**Dünənəm! Bu günəm! Gələcəyəm mən!**
**Bir gün bu dünyadan getsəm də, nə qəm!**
**Dünyaya təzədən gələcəyəm mən.**

Kitabı oxuduqca kövrəlirəm, gözümün önündə əsərin qəhrəmanı, Qarabağ uğrunda döyüşlərə yerli müdafiə batalyonuna könüllü qoşulmuş 19 yaşlı igidimiz, heç vaxt üzünü görmədiyim Fuad Qərib oğlu Əsədovun siması canlanır.

### Ömür yolu

Fuad 1972-ci ildə Cəbrayılın Quycaq kəndində, Qərib həkimin ailəsində dünyaya gəlib.1979-cu ildə ilk dəfə kənd məktəbində parta arxasında əyləşib. 7-ci sinfi bitirdikdən sonra rayon mərkəzindəki Sovet İttifaqı Qəhrəmanı Cəmil Əhmədovun adını daşıyan orta məktəbdə təhsilini davam etdirib. Ailəsinin yaşayış yerini dəyişdirməsi ilə əlaqədar 9-cu sinifdən akademik Mehdi Mehdizadə adına məktəbə gedib və orta təhsilini orada başa vurub. Fərəflidir ki, məktəb illərində Fuad özünün çoxcəhətli istedada malik olduğunu sübut edib. Belə ki, o, doqquzuncu sinifdə oxuyarkən Göyçay şəhərində keçirilən Cənc memarların Ümumrespublika Müsabiqəsində diploma layiq görülüb və dincəlmək üçün fəal və nümunəvi şagird kimi "Artek" pioner düşərgəsinə göndərilib.

1989-cu ildə Azərbaycan İnşaat Mühəndisləri İnstitutunun memarlıq fakültəsinə qəbul olunub...

### Fuadın yazdıqları və rəsmləri

Hansı yaşda olsan, harada yaşasan da ayaq açıb, maya bağladığın el-oba sənə hər yerdən şirin gəlir. İllər ötdükcə sən o yeri qəlbində qiymətli bir sənəd kimi qoruyub saxlayır, əzizləyirsən. Bəzən yuxularında o yerə qayıdır, uşaqlığını, o yerin dağını, düzünü, bulağını, mehriban insanlarını görürsən. Fuadın tələbəlikdə yazdığı gündəlikləri oxuduqca, az öncə söylədiklərimizin şahidi oluruq. O, "Bu, mənim kəndimdir" başlıqlı yazıda qeyd edir ki, "bu kənd bütün varlığı ilə qəlbimə hopub. Bu kənd mənim doğma hisslərimin məkanı, müəllimim, arxam, ümid yerim, şirin yuxularım, həyata baxışımdı. Bu kənd mənim iç dünyamdı. İlk məhəbbətim də burada dünyaya göz açıb, ilk qəzəbim, nifrətim, hiddətim də. Bu kəndi varlığım qədər sevirəm... Bəlkə elə bu, adi Vətən sevgisidir?"

O, yazılarında Quycaq kəndindəki məktəbi, "Quzey kəhriz"i, "O tay bağ"ı, "Miri evinin ocağı"nı, "Sofular kəhrizi"ni, qocaman Çinarı, "Qarı bağ"ı, "Sarı yal"ı, "Narlı yoxuş"u tez-tez xatırlayır, o yerlərlə bağlı xatirələrini söyləyir. Bu kəndin müxtəlif xasiyyətə malik adamları - masabəyi Şikar müəllim, sürücü Məhyəddin, İsaq kişi, Əmirxan kişi və başqaları da onun uşaq dünyasının daimi qəhrəmanlarıdır. Şəmsə nənənin, Əsəd babanın nəvə arzuları yaddaqalan ifadələrlə təsvir olunub.

Fuadın bədii yaradıcılığı zəngindir. Onun Cəbrayıl haqqında düşüncələri bir lirik şeirə bənzəyir. Bu yazıda sözlər elə "hörülüb" ki, sanki bir gül çələngidir. Bu, əlbəttə, gənc Fuadın doğma yurda dərin sevgisindən, söz sənətinə bələd olmasından xəbər verir: "Qaya kimi möhkəm, qartal kimi qürurlu, çinar kimi əzəmətli, kəhriz suyu kimi saf, şirin, ürək sərinlədən, savab iş görən Xüdafərin körpüsü kimi həsrətliləri qovuşduran, "Dəyirman dərəsi" kimi ruzulu, Ağatlı oğlan kimi fədakar, işə yarayan, Hacı Qaraman, Qurban təpəsi kimi inam, yeridir buranın insanları. Azərbaycanın hər guşəsi gözəldir. Bu gözəlliklər içərisində Cəbrayılın öz yeri var. Cəbrayılı mən cüssəcə böyük olmayan, görkəmcə yığcam, zahirən gözəl, mənəviyyatca zəngin insanlara bənzədirəm. Mən Cəbrayılı sevirəm. Axı o, mənim Vətənimdir".

Bu, 17, 18 yaşlı bir gəncin fəhmi, yaşantılarıdır. Onun şeirlərində də bu sevgi, istək ürək ovsunlayır:

**Sultan çinar, xan çinar,**
**Göylərə qalxan çinar.**
**Asimandan boylanıb**
**Dünyaya baxan çinar.**

**Ay çinar, uca çinar,**
**Əsrdən qoca çinar.**
**Uzanıb budaqların**
**Boynumu quca çinar.**

Şerin son bəndi isə belədir:

**Düşmənə sipər çinar,**
**Pis gözə çəpər çinar.**
**Çətinliyə düşəndə**
**Qəlbimə təpər çinar.**

Fuad Əsədovun "Səngər", "Dağdağan", "Şuşanın işğalı", "Qatar", "Burda hər addımda mənim izim var" şeirləri də onun elə-obaya, doğma ocağa sevgisindən xəbər verir.

Kitabda müxtəlif illərdə Fuadın doğmalarına və əzizlərinin ona yazdığı çoxsaylı məktublar var. Bu yazılar, sanki, təcrübəli bir yazarın qələmindən çıxıb.

O, çətin bir sənətə – heykəltaraşlığa könül vermişdi. Bunun üçün həm də rəssam olmaq lazım gəlirdi. Elə buna görə də Fuad uşaqlıqdan Azərbaycanın memarlıq abidələrini, qalalarını diqqətlə öyrənməyə çalışır, eyni zamanda gördüklərini kağıza köçürürdü. Memarlıq fakültəsində oxuduğu illərdə qrafik və sulu boya ilə çəkdiyi rəsmlər cizgilərin harmoniyasına və rəng həllinə görə uğurlu işlərdir.

### Xocalı faciəsi dönüş nöqtəsi oldu

1992-ci ilin fevralında ermənilərin xalqımıza qarşı törətdiyi Xocalı faciəsi Fuadın taleyində döniş nöqtəsi olub. Onda Fuad 3-cü kursda oxuyurdu. O, bu qırğından sonra Milli Orduya yazılmaq üçün Bakı şəhərində hərbi komissarlığa müraciət edib. Hərbi komissarlıqdan rədd cavabı alsa da, fikrindən dönməyib. Sonra bir neçə dəfə Milli Ordunun yerli müdafiə batalyonunun rəhbərliyinə müraciət edib və istəyinə nail olub. 24 mart 1992-ci ildə ərazi milli müdafiə taborunun hərbi komissarı H.Yusifova ünvanlıdığı ərizəsini Fuad Əsədov bu sözlərlə bitirib: "Bu ərizəmlə Sizdən məni ən qaynar nöqtələrə göndərmək üçün sərəncam verməyinizi yazılı surətdə xahiş edirəm". Bu ərizədən sonra onu ən qaynar nöqtələrdən olan Qışlaq kəndinə göndəriblər...

### Həmişə öndə gedirdi

Yazıçı-publisist, könüllü Cəbrayıl bataliyonunun taqım komandiri Əli Çərkəzoğlu o günləri göz önünə gətirərək Fuad haqqında belə dedi:

– Onun cəbhəyə gedişinə və könüllülər sırasına qoşulmasına, ilk növbədə, valideynləri, təhsil aldığı universitetin rəhbərliyi, daha sonra hərbi komissarlıq mane olmağa çalışmışdı. Könüllülər batalyonunun rəhbərliyi də onu qayıdıb təhsilini davam etdirməyi məsləhət görmüşdü. O, bu barədə "Komandirə məktub" adlı şeirində də yazıb. Ancaq Fuad inadı ilə bütün maneələri aşmış və bizim sıralarımıza qoşulmuşdu. İlk günlərdən o, cəsarətli döyüşçü olduğunu sübut etmişdi. 19 yaşı olsa da, güclü, yetkin bir insan idi. Fuad həm də istedadlı idi –şeir yazırdı, gözəl rəsmlər çəkirdi, ədəbiyyatı, sənəti yaxşı bilirdi. Bəzən ətrafındakı özündən on yaş böyüklərə məsləhətlər verirdi. Bundan əlavə, arabir ədəbi söhbətlər edir, döyüşçilərə Viktor Hüqonun "Səfillər"indən, L.Tolstoyun "Hərb və Sülh"ündən, M.Dostoyevskinin "Cinayət və cəza"sından danışırdı. Hamı ona maraqla qulaq asırdı. Bu, onun ziyalılığının, çox mütaliə etməsinin göstəricisi idi.

Çox fədakar idi, döyüşdə heç nədən çəkinmədən öndə gedirdi.Yeri gəlmişkən deyim ki, belə insanlara hər yerdə ehtiyac var. Onun bu cəsarəti, fədakarlığı digər könüllülərə inam, mənəvi dəstək verirdi. Onu da deyim ki, belə əsgərlər hər hansı əməliyyatın uğurla başa çatmasında həlləedici rol oynayırlar. Fuad belə oğul, belə igid idi.

Yaxşı xatırlayıram. Biz Şayaq əməliyyatına gedəndə üzü yoxuşa, dağın zirvəsinə doğru qalxırdıq. Hər kəs üstündə olan yükdən əlavə, digər cəbhədaşı ilə ortaq döyüş sursatı daşıyırdı. Fuad da eləcə. Döyüşə mən rəhbərlik edirdim, amma mən də həmin yükü aparırdım. Lakin mənim yoldaşım bir az çəlimsiz olduğu üçün silah-sursatı çox çətinliklə aparırdı. Buna görə də çox vaxt yükü mən aparmalı olurdum. Sən demə, Fuad mənə göz qoyurmuş. Arada mənə yaxınlaşıb dedi ki, komandir, icazə verin o silahları da mən aparım və dönə-dönə xahiş etdi, mən qıymadın...

Fuad balamız yaşasaydı, gözəl memar olacaqdı, rəssam olacaqdı, şair olacaqdı bilmirəm. Ancaq əminəm ki, o yaşasaydı, gözəl mükəmməl bir insan olacaqdı, Vətənə vicdanla xidmət edəcəkdi, insanlara gərəkli ziyalı olacaqdı...

Onu heç kim səngərə məcburi göndərməmişdi, amma cəsurluğu, bacarığı ilə qəhrəman əsgər adını qazanmışdı. Ona Azərbaycanın Milli Qəhrəmanı adının verilməsi üçün təqdimat olmuşdu. Fuad bu ada layiq idi. Amma o vaxt Müdafiə Nazirliyində də qarışıqlıq idi. Deyilənə görə, sənədləri haradasa itirilmişdi. Belə oğullarımızın layiqincə mükafatlandırılması heç vaxt gec deyil.

### Son döyüş

1992-ci il iyun ayının 28-də Hadrut rayonunun Sur kəndi uğrunda şiddətli döyüş başlanmışdı. Deyilənə görə, Fuad bütün gecəni pulemyotun arxasında yuxusuz qalmış, komandirin onu dəyişmək təkidinə baxmayaraq, inadından dönməmişdi. Fuad bu döyüş zamanı 12 nəfər dostu ilə ön mövqeyə çıxmışdı. Düşmən onların qarşısında tab gətirməyərək geri çəkilirdi.... Qəfil düşmən gülləsi onun ürəyinə sancılır...

### Əsgər dostu Sevindiyin xatirələrindən

Mən onun cəsurluğuna, qorxmazlığına, döyüş zamanı göstərdiyi şücaətə heyran qaldım. Fuad bu döyüşdə bir neçə əsgərimizin həyatını xilas elədi. Düşmən snayperi onu izləyirmiş. Sur kəndi ermənilərdən azad olunan ərəfədə düşmən snayperi Fuadın Vətən eşqi ilə çırpınan qəlbini susdurdu. O, canından çox sevdiyi Vətən yolunda şəhid oldu. Fuadın şəhid olması xəbəri bütün əsgər və zabitləri sarsıtdı. Düşmənə qarşı nifrətimiz birə-min artmışdı. Artıq heç nəyə baxmadan hücuma keçdik və bir həmlədə Sur kəndini ermənilərdən azad etdik.

### Fuadı heç vaxt görməsəm də...

Nə vaxtdır ki, bir atanın azadlıq aşiqi olan qəhrəman oğlu haqqında yazdığı "Fuad dünyası" kitabı stolumun üstündədir. Tez-tez Fuadın sanki hər zaman mənə göz qoyan vüqarlı baxışları ilə üz-üzə dayanıram. Onun işıqlı çöhrəsi çox doğma gəlir mənə. Elə bilirəm ki, yaş fərqimiz olmayıb, biz eyni kənddə, eyni məhəllədə doğulmuş, boya-başa çatmışıq. Uşaqlığımız bir yerdə keçib. Məktəb yollarımız da bir olub.

Artıq qəhrəman oğullarımız Ali Baş komandan İlham Əliyevin rəhbərliyi ilə qəsb olunmuş torpaqlarımızı azad edib. Müstəqil Azərbaycan Respublikası böyüyür, inkişaf edir, yeni-yeni uğurlara imza atır, dünya birliyində layiqli yerini tutmağa çalışır. Düşmənin viran qoyduğu şəhər və kəndlərimiz yenidən, daha müasir formada inşa edilir. Cəbrayıl rayonu da indi geniş tikinti-quruculuq meydanını xatırladır. Bu günlərdə Prezidentimizin iştirakı ilə yenidən tikilən Cəbrayıl şəhərinin açılış mərasimi keçirildi. Neçə-neçə cəbrayıllı doğma ocaqda yeni mənzillərə köçdü....

Bu inkişafda gənclərimizin fədakarlığı, elmin son nailiyyətlərinə əsaslanan yeni texnologiyalara yiyələnmələri böyük rol oynayır. Düşünürəm ki, Fuad Əsədov o gənclərlə çiyin-çiyinədir. Harada geniş inşaat işləri görülür, ən yaxşı memarlıq abidələri ucaldılır, həmin əsərlər Fuadın layihələridir. Bir sözlə, Azərbaycanımızın hər bir uğurunda onun da layiqli payı var.

Azərbaycan növbəti dəfə Zəfər bayramını keçirməyə hazırlaşır. Milli Ordumuz daim möhkəmlənir, öz döyüş hazırlığını gücləndirir. Elə bilirəm ki, bugünkü qəhrəman əsgərlərimizin sırasında cəsur Fuadımız da var. Çünki Vətənimizin bütövlüyü, torpaqlarımızın şərəflə qorunması onun ən böyük arzusu idi...

Mən Fuadı heç vaxt görməmişəm. Lakin elə bilirəm ki, o, hər zaman bizimlə yanaşı addımlayır. Axı o, şəhiddir. Şəhidlər isə heç vaxt ölmirlər! Onların ruhu həmişə bizimlə yanaşıdır – bu torpağın bərəkəti, bu yurdun ruhu, işığı kimi.

***Səməd MƏLİKZADƏ***

**Qələbələr qazanılsa da, müharibələrin ağrı-acıları ürəklərdə yaşayır. Ölkəmizdə şəhid ailələrinə təskinlik üçün igid Vətən oğullarının xatirələrinin əbədiləşdirilməsi məqsədilə zəruri tədbirlər həyata keçirilir. 23 dekabr 1997-ci ildə Ümummilli lider Heydər Əliyevin imzaladığı qanunla bir vəzifə olaraq Respublika "Xatirə Kitabı" Redaksiyasına tapşırılıb ki, döyüşlərdə həlak olan soydaşlarımız haqqında ensiklopedik məlumatları toplayıb nəşr etdirsin.**

# Şəhidlik salnaməsi – "Xatirə kitabı"

Respublika "Xatirə kitabı" redaksiyasının baş redaktoru Nəzakət Məmmədova ilə söhbətimizdə xatırladıq ki, bununla bağlı, ümumilikdə, 20 cildlik kitab buraxılıb. Xalqımızın verdiyi itkilər bəlli edilir, tarixləşdirilir, müharibənin vurduğu yaralar fakt kimi əbədiyyətə ünvanlanır. Müsahibimiz şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi yönündə daha nə kimi işlər görüldüyü barədə sualımızı da ətraflı cavablandırdı:



– Əvvəla, xüsusi vurğulayım ki, ölkə rəhbərliyi şəhid xatirəsi kimi məsələyə çox həssas yanaşır. Elə 27 sentyabr Anım Günündə Azərbaycan Prezidenti İlham Əliyevin Bakıda inşası davam etdirilən Zəfər parkında olması bu ehtiramın nəticəsidir. Həmin kompleksin ərazisində şəhidlərimizin xatirəsini yaşatmaq məqsədilə möhtəşəm Zəfər muzeyi də yaradılır.

Təbii ki, müharibə olum-ölüm məsələsidir, itkisiz başa gəlmir. Həm II Dünya müharibəsində, həm də sonrakı hərbi qarşıdurmalarda, Əfqanıstanda və Çernobıl faciəsində, 20 Yanvar və Xocalı hadisələrində, Qarabağ savaşında olan can itkilərimizi xatirə kimi yaddaşlara hopdurmaq, silinməz tarixə çevirmək üçün, şübhəsiz, vacib addımlar atılmalı idi və həmin şərəfli missiya bizə həvalə edilib.

Düzdür, keçmiş İttifaq dövründə II Dünya müharibəsində həlak olan, itkin düşən döyüşçülər haqqında ensiklopediya çapa hazırlanırdı. O zaman nəşrin Azərbaycan üçün nəzərdə tutulmuş 20 cildindən cəmi 3-ü çap edilib. Biz işə başlayanda fəaliyyətimizi yalnız bunlarla məhdudlaşdırmadıq. Gərgin iş prosesi və araşdırmalar nəticəsində aşkar etdik ki, xalqımızın qəhrəman oğul və qızlarının adları təkcə SSRİ-nin şəhər və rayonlarının tarixində öz əksini tapmır, Avropa ölkələrində də bu qəhrəmanlıqlar salnamə kimi səciyyələnir. Növbəti cildlərdə onlardan, eləcə də sonrakı hərbi qarşıdurmalarda, Qarabağda şəhidlik zirvəsinə ucalmış, itkin düşmüş vətəndaşlarımızdan bəhs etmişik.



Bu gün də redaksiyamızın əsas qayəsi həmvətənlərimizin döyüş yollarını, qəhrəmanlıqlarını, həlak olduqları, itkin düşdükləri yeri və s. araşdırmaq, doğru-dürüst məlumat əldə etmək və onların xatirələrinə vəfa borcumuzu yerinə yetirməkdir. Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının İşçi Qrupu ilə birgə araşdırmalar sayəsində minlərlə soydaşımız barədə ictimaiyyətə bəlli olmayan həqiqətləri üzə çıxarmışıq. "Xatirə kitabı: 44 gün – tarixi Zəfər" kitabının cildlərinə ərazi bütövlüyümüz uğrunda canından keçmiş şəhidlərimiz haqqında məlumatlar daxil edilib. Eyni zamanda, biz "Bakı-Xəbər" qəzeti ilə birgə layihə əsasında "Şəhidlər ölməz, Vətən bölünməz!" seriyasından bir neçə kitab buraxmışıq.

Redaksiyanızın sifarişi ilə sənədli qəhrəmanlıq filmləri də çəkilir. Bir neçə ay əvvəl Nizami Kino Mərkəzində "Vətən daşı... və ya 44 günün dastanı" layihəmiz əsasında çəkilmiş növbəti filmlər nümayiş olunub. Bu filmlər Vətən müharibəsində şəhid olmuş Murad Əsədov, Dəyanət Əliyev, Toğrul Abbasov və Mətləb Quliyevin şərəfli həyat və döyüş yolunu özündə əks etdirir. Ümumilikdə, bu layihə çərçivəsində 8 film çəkilib.

Son tədbirlərimizə gəlincə, Anım Günü ərəfəsində redaksiyamız Mingəçevir Dövlət Dram Teatrında "44 gün – Tarixi zəfər" adlı kitabın ilk cildlərinin, həmçinin Vətən müharibəsi şəhidləri Əli və İslam Əhmədov qardaşlarından bəhs edən "Şəhid dağı", Musa və Tural Həsənov qardaşları haqqında yazılmış "Gəl, birlikdə köçək dünyadan..." adlı kitabların təqdimatını keçirdi. Orada, eləcə də Şəkidə, Cəlilabadda, Biləsuvarda kitablarımız şəhid ailələrinə hədiyyə edilib.

Bir neçə gün əvvəl başa çatmış X Bakı Beynəlxalq Kitab Sərgisində isə "Azərbaycan Respublikası Xatirə kitabı"nın IV cildinin xüsusi buraxılışının təqdimatı keçirildi. Kitabda həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlarımız haqqında əhatəli materiallar dərc edilib. Oradakı çıxışımda mən xalqımıza böyük Zəfər bəxş edən oğullarımızın adlarının əbədiləşdirilməsinin Respublika "Xatirə kitabı" redaksiyasının ümdə işi olduğunu bildirdim. Redaksiyanın bu prosesi daim öz üzərində bir məsuliyyət kimi hiss etdiyini, davamlı araşdırmalar apardığını və ənənəni hazırda da davam etdirdiyini vurğuladım. Əməkdaşımız Hikmət Məlikzadə, şair İlham Qəhrəman, Ombudsman aparatının əməkdaşı Azadə Novruzova, Əqli Mülkiyyət Agentliyinin əməkdaşı Amaliya Qəmbərova, şəhid Aydın Abdullayevin atası Əmirsoltan Abdullayev, gənc ifaçı Amin Əsgərli də çıxışlarında gördüyümüz işləri təqdir etdilər. Eyni zamanda "Qərbi Azərbaycan şəhidləri" kitabının çapına "Xatirə Kitabı" Redaksiyasının böyük dəstək göstərdiyi vurğulandı. Kitabların nüsxələri ziyarətçilərə hədiyyə olundu.




Vətən uğrunda canından keçən, şəhidliyə qovuşan, qanlı cəbhələrdə itkin düşən insanların yalnız bir şeyə ehtiyacı var – yada salınmaq, xatırlanmaq. Onların ruhu xatirələrə güvənir, anılmaqdan rahatlıq, dinclik tapır. Bu baxımdan Respublika "Xatirə Kitabı" Redaksiyasının çalışmaları həm də savab sayılır.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Kino milli varlığımızın sənətdə canlı təcəssümüdür

**Müsahibimiz Azərbaycan Kinematoqrafçılar İttifaqının sədri, Xalq artisti Rasim Balayevdir.**

Onunla görüşümüz mülayim və günəşli payız gününə təsadüf etdi. İllərin peşə vərdişinə baxmayaraq, içimdə bir həyəcan vardı. Lakin elə ilk anlardan söhbətimiz xoş əhval üzərində kökləndi, o, səmimi, şux zarafatlarıyla həyəcanımı sovuşdurdu. Onun ətrafında həmişə bir doğmalıq, səmimiyyət haləsi dolaşır ki, bu da sənətkarla ünsiyyəti asanlaşdırır.

***– Xoş gördük, Rasim müəllim. Mən bu gün sizinlə müsahibəyə gələndə təsadüfən Andrey Tarkovskinin müsahibələrindən birilə rastlaşdım. Rejissor həmin müsahibəsində deyir ki, “kino bizim erada ölkənin mədəni səviyyəsinin barometridir”. Sizcə, Azərbaycan kinosu cəmiyyətimizdə barometr ola bilirmi?***

– Təəssüf ki, bu suala müsbət cavab verə bilməyəcəyəm. Bilirsiniz, kinomuzun zəifləməsinin müxtəlif səbəbləri var. Biz bir ictimai formasiyadan başqa bir ictimai formasiyaya keçdik, sovet kino strukturu, demək olar ki, dağıldı və yenisi yaranmadı. Azərbaycan öz müstəqilliyini qazandıqdan sonra bütün sahələrdə olduğu kimi, kino sahəsində də müəyyən problemlər yarandı, müharibə, keçid dövrünün çətinlikləri sənəti bir qədər arxa plana atdı. Təsəvvür edin, demək olar ki, 6 il heç bir film çəkilmədi. Halbuki əvvəllər ilə səkkiz film çəkilirdi. Nəsildən-nəslə ötürülən estafet sanki qırıldı.

“Azərbaycanfilm” kinostudiyasında vaxtilə 1200 adam çalışırdı, o adamlar maddi çətinliklər ucbatından hərəsi bir tərəfə getdi və beləliklə, struktur çökdü. Biz vaxtında o strukturu saxlaya bilmədik, ona görə də bu gün əziyyət çəkirik. Bilirsiniz ki, Qarabağ problemi bir yara kimi həmişə bizi ağrıdırdı. Şükürlər olsun, Ali Baş Komandanımız İlham Əliyevin rəhbərliyi ilə biz düşmən tapdağı altında qalmış torpaqlarımızı işğaldan azad etdik.

Bu gün Qarabağımız yenidən dirçəlir, o yerlərə həyat qayıdır. Dövlətimiz bu işlərlə məşğuldur. Bununla yanaşı, mədəniyyət sahəsi də inkişaf etməkdədir. Mən cənab Prezidentlə görüşərkən o, dedi ki, kinonun inkişafı üçün nə lazımdırsa, biz edəcəyik. Bizim də üzərimizə düşən vəzifə Zəfərimizi özündə əks etdirən filmlər ərsəyə gətirməkdir. Sənət adamlarının üzərinə bu baxımdan böyük məsuliyyət düşür.

Kino sahəsində müəyyən qədər dirçəlmə başlayıb, buzlar əriyir. Amma vəziyyətin düzəlməsi üçün zamana ehtiyac var. Mədəniyyət Nazirliyində Kino Agentliyi yaranıb, onların fəaliyyətilə bağlı xoş xəbərlər eşidirik. Deyirlər ki, çox yaxşı ssenarilər var və bu ssenarilər ekranlaşdırılacaq. Belə düşünürəm ki, artıq kinonun tənəzzül dövrü geridə qalıb. Bizim ali məqsədimiz Azərbaycan kinosunu yeni yola çıxarmaq, Azərbaycan tamaşaçılarını yenidən kinoteatra qaytarmaqdır. Tədricən işlər qaydasına düşməyə başlayır. Bu da bizi sevindirir.

Xoşbəxtlikdən, hörmətli mədəniyyət nazirimiz Adil Kərimlinin Azərbaycan kinosuna xüsusi hörməti və məhəbbəti var. Sizin sualınıza qayıdıram, kino elə bir sahədir ki, ona məhəbbətin, sevgin olmasa, o heç vaxt barometrə çevrilə bilməz. Şükür ki, bu sahəyə rəhbərlik edən adamların kinoya böyük sevgisi var. Mən özüm də çox tələsirəm. İstəyirəm ki, kinomuzun yenidən dirçəlməsini və inkişafını görüm.

***– Bəs Azərbaycan Kinematoqrafçılar İttifaqı bu sahədə hansı işləri görür?***

– Bizim İdarə Heyətimiz, katibliyimiz var. Biz birbaşa film sifarişçisi deyilik. Amma Mədəniyyət Nazirliyinə, Kino Agentliyinə tövsiyə xarakterli təkliflər edə bilərik və edirik. Bax, bizim aramızda belə bir ümumi işbirliyi var. Gənc və istedadlı rejissorlar üçün şərait yaradılmasına çalışırıq ki, onlar özlərini göstərə bilsinlər, bununla da yeni və tamaşaçını razı salan sanballı filmlər çəkilsin. Təhsil alan hər bir rejissora özünü ifadə edə bilməsi üçün meydan lazımdır ki, o, öz imkanlarını realizə edə bilsin. İttifaqın nizamnaməsi var və biz də o nizamnaməyə uyğun olaraq fəaliyyət göstəririk.

***– Bugünlərdə Azərbaycan Kinematoqrafçılar İttifaqı kinonun inkişafı üçün Dövlət proqramının qəbul edilməsi ilə bağlı bəyanat yaydı. Bu bəyanat aidiyyəti qurumlara ünvanlanmışdı və onları bu sahədə işbirliyinə çağırırdı. Reaksiyalar oldumu?***

– Bilirsiniz, sovet dönəmində rejissor filmi təhvil verdikdən sonra maaşından əlavə 7 min rubl qonorar alırdı. Sovetlər ölkəsinin böyük kino prokatı vardı. Ən zəif film belə maliyyə xərcini çıxara bilirdi. İndi bu sistem də işlək deyil. Bu gün rejissora çox cüzi miqdarda qonorar verilir ki, bu da onu heç cür qane edə bilməz. Təkcə maliyyə məsələsi deyil, bir sıra problemlər var ki, aradan qalxmalıdır, kino mexanizmi bu günün tələblərinə cavab verməlidir.



Elə etmək lazımdır ki, nə ssenaristin, nə rejissorun, nə operatorun, nə də bu sahədə çalışan hansısa bir işçinin hüquqları tapdanmasın. Onlar normal qonorar müqabilində çalışmalıdırlar ki, ortaya keyfiyyətli iş qoya bilsinlər. Çox xoşdur ki, dövlətimiz kinoya xüsusi diqqət ayırır. Mən inanıram ki, bu diqqət və qayğı sayəsində yeni gələn nəsil Azərbaycan kinosunun dirçəlməsinə və inkişafına nail olacaq.

***– Rasim müəllim, son dövrlər bəzi filmlər ortaya çıxdı ki, həmin filmlərdəki aşırı dərəcədə açıq-saçıqlıq, vulqarizm nümunələri müəyyən narazılıq doğurdu. Siz də etirazınızı bildirmişdiniz. Necə düşünürsünüz, bu üsul kino estetikasına nə dərəcədə uyğundur?***

– Sizə bir məsələni deyim. Sovet dövründə bir senzura vardı, bəzən biz o senzuradan şikayət edirdik. Amma bu gün elə hallarla rastlaşırıq ki, mən düşünürəm, yox, senzura olsun. Milli mentalitetimizə uyğun olmayan nələrinsə ekrana gətirilməsi yolverilməzdir. Ümumiyyətlə, sənət bir ibrət məktəbidir. Yazıçı elə əsər yazmalıdır ki, oxucu o əsəri oxuyub mənən zənginləşsin, eləcə də teatr, kino insanın mənəviyyatına xidmət etməlidir. Bəs insan necə formalaşır? Oxuduğu kitablar, baxdığı filmlər onu yetişdirir, şəxsiyyətə çevirir.

Seriallarımıza baxırsan, 300–400 seriya davam edir, amma bilmirsən məqsəd nədir, ideya nədir. Bu adam bu serialı çəkməklə nə demək istəyir? Bu, aydın deyil. Mən bunun səbəblərini özüm üçün aydınlaşdırmışam. Onlar düşünür ki, necə edək, reytinq qazanaq. Bilirsiniz, reytinq xatirinə tamaşaçıların zövqünü korlamaq olmaz. Heç olmasa, o serialları yayımlayan telekanallarda bədii şura olsun, onlar baxsınlar ki, nəyi efirə vermək olar, nəyi olmaz. Əks halda o seriallar, yaxud filmlər gənclərin tərbiyəsinə mənfi təsir göstərəcək.

***– Son illərdə yaxşı mənada diqqətinizi çəkən hansısa film olubmu?***

– Bu suala da cavab verməyə çətinlik çəkirəm. Məni qane edən, sözün əsl mənasında hadisəyə çevrilən bir filmə rast gəlməmişəm. Əvvəllər Azərbaycanda tamaşaçılar kinoteatrlara üz tutardı. Gərək elə kino ərsəyə gətirəsən ki, tamaşaçı məcbur olub kinoteatra getsin. İndi hamı oturub evdə, filmlərə telefon vasitəsilə baxır. Siz bir filmə telefonda baxın, bir də böyük ekranda baxın, yerlə göy qədər fərq görəcəksiniz. Zalda işıqlar sönür və sən özünü bilavasitə ekrandakı hadisələrin içində hiss edirsən. Telefon isə o effekti vermir.

Mən xatırlayıram, müstəqilliyimizin ilk illərində biz Avropaya film festivalına getmişdik, baxırdım ki, insanlar axın-axın kinoteatrlara gəlir. Bizdə bu ənənə sovet dövründə var idi, bu gün yoxdur. Təəssüf ki, Azərbaycan kinosu haqda yanlış fikir formalaşıb. Bəziləri düşünürlər ki, bunlar nə çəkəcək, çəkdiklərini görürük də. Bütün bunlar sizin dediyiniz o sənətdən, kino estetikasından uzaq, söyüş üzərində qurulan filmlərin sayəsində yaranıb. Kinonun nüfuzunu özünə qaytarmaq lazımdır. Buna da zaman lazımdır. Bunlar 1 günə, 2 günə həll olunan məsələlər deyil. Mən çox nikbinəm, inanıram ki, yaxın gələcəkdə biz sizinlə kinomuzun uğurları haqqında danışa biləcəyik.

***– Tamaşaçılar sizi Nəsimi, Babək, Beyrək obrazları ilə sevdi. Bu obrazlar sizin sənət pasportunuza çevrildi. Sonralar Azərbaycan kinosunda müxtəlif xarakterli obrazlar yaratdınız. Son dönəm iki tarixi şəxsiyyətin obrazlarını canlandırdınız. “Sübhün səfiri” filmində Mirzə Fətəli Axundzadəni, “Cavid ömrü” filmində isə Hüseyn Cavidi. Bu obrazlar bir aktyor kimi sizi qane etdimi? Tamaşaçı reaksiyaları necə oldu?***

– Keçmiş dövrlə indiki dövr arasında böyük fərqlər var. Bu gün dediyiniz filmlər kinoteatrda nümayiş olunmadığı üçün mən fikir bildirməyə çətinlik çəkirəm. Çünki tamaşaçı münasibəti kinoteatrda görünür. Bilirsiniz ki, hər iki filmin ssenarisini Xalq yazıçısı Anar yazıb. Onun çəkdiyi “Üzeyir ömrü”, “Qəm pəncərəsi” filmləri bu gün də tamaşaçılar tərəfindən sevilə-sevilə baxılır. Bunlar maarifləndirici filmlərdir, tamaşaçını, xüsusən gənc nəsli maarifləndirmək baxımından son dərəcə əvəzsizdir. “Sübhün səfiri” və “Cavid ömrü” filmi də bu səpkili filmlərdir. Bu da fərqli bir yanaşmadır. Bildiyimə görə, Anar müəllim böyük dramaturqumuz Cəfər Cabbarlı haqqında da bir ssenari yazıb. İnşallah, o film də çəkilər.

Çox təəssüf ki, bəziləri, xüsusən gənc nəsildən olanlar klassiklərimizi o qədər də yaxşı tanımırlar. Düşünürəm ki, Mirzə Fətəlini, Cavidi dərindən tanımayan adamlar o filmlərə baxıb çox şeyləri öyrənə bilərlər. Mən bir aktyor kimi üzərimə düşən vəzifəni yerinə yetirməyə çalışmışam. Müxtəlif təbəqənin insanları ilə görüşəndə görürəm ki, həmin filmlərə baxanlar öz razılıqlarını bildirirlər. O filmlərdə tərbiyəvi əhəmiyyət daşıyan mesajlar var.

***– Yaxın zamanlarda tamaşaçılar sizi yeni filmdə görə biləcəklərmi?***

– Bir-iki təklif var. Amma mən hələlik razılıq verməmişəm. Elə bir obraz olmalıdır ki, məni qane etsin, düşünüm ki, hə, mən bu rolu məmnuniyyətlə oynayaram. Hələ ki, belə bir obraz yoxdur. Çox istərdim ki, növbəti təkliflərdən hansısa məni qane etsin və mən o filmə çəkilim.

***– Rasim müəllim, maraqlı söhbət üçün sizə təşəkkür edirəm.***

***Söhbətləşdi:***
***Kənan HACI***

# Kamal Abdullanın hikmət dünyası

**Bugünlərdə “Everest” nəşriyyatında AMEA-nın həqiqi üzvü, Xalq yazıçısı, akademik Kamal Abdullanın “Seçmələrin seçməsi – qranulalar” adlı kitabı işıq üzü görüb.**




Müəllif özü fikir cövhərləri barədə yazır: “İllərdən bəri yazdığım müxtəlif şeirlərin, esselərin, pyeslərin, hekayə və romanların, publisistik məqalələrin və elmi əsərlərin, verdiyim intervülərin hər birinin içində yer almış və bu gün də öz məzmunu, tutumu, forması ilə diqqətimi çəkən misralar, cümlələr günlərin bir günü sanki dil açıb mənə dedilər ki, bizim bir-birimizdən zaman və məkanca ayrılığımıza son qoy və bizi bir-birimizin yanında yerləşdir. Sən görəcəksən ki, bu zaman biz tamamilə yeni bir cazibədə zühur etmişik. Onlar, qeyri-səlis məntiq dili ilə desək, içində olduqları mətnin qranulaları (ilkin vacib hissəcikləri) idi. Qranula, başqa cür ifadə etsək, cümlədən (mətndən) bütün artıq hissələri siləndən sonra yerdə qalan cövhərdir.”

Beləliklə, Kamal Abdullanın bir neçə cövhər–qranulasını oxucuların diqqətinə çatdırırıq:

***Yağışlar yağar Allaha sarı,***
***Yağışlar yağar dərgaha sarı,***
***Yağışlar yağar üzüyuxarı***
***Üzüaşağı yağmaz yağışlar.***

***

Anar nəsrinin doğmalığı Bakı küçələrinin hər tinində, az qala, yaddan çıxmaq istəyən, amma heç cür yaddan çıxmayan xatirələrin doğmalığıdır.

***

Dədə Qorqud: “Ol qızın üç canavər qalınlığı, qaftanlığı vardı.” Qanturalı Sarı donlu Selcan xatuna yetişmək üçün üç vəhşi heyvana qalib gəlməli idi. Vüsala bundan sonra yetişmək, qaftanları bir-bir çıxarmaq mümkün olardı. Azərbaycan ədəbiyyatının ən parlaq metaforası!

***

***Vaxt gələcək ağrımız***
***örtüləcək çiçəklə,***
***Bütün yaralarımız yenidən bitişəcək.***
***Hər şey qurtaracaqdır***
***xoşbəxt bir gələcəklə***
***- Soldu nar çiçəkləri,***
***indi nar yetişəcək.***

***

“Kitabi-Dədə Qorqud”da Bəkil oğlu İmranın həlak etmək istədiyi kafir ondan soruşur: “Yigit, aman. Sizin dinə nə derlər? Dininə girdim”. Yaxud başqa bir boyda Uruz yaxınlaşmaqda olan yağı barədə atasına sual edir: “Yağı nəyə derlər, baba?” Yenə də bir başqa boyda Dəli Domrul Əzrayıla sorur: “Ya bəs can verən, can alan Allah taalamıdır?” Bütün bu “sadəlövh suallar” bu gün, ən azından, təbəssüm doğursa da, əslində, hadisələrin cərəyan etdiyi vaxtın çox uzaq qədimliyə aid olduğunu göstərir. Belə ki, bu suallar yarandıqları vaxt müstəqim şəkildə verilir və anlaşılırdı.

***

Qəti hökmlərə ehtiyatla yanaşmaq lazımdır. Onların gözlənilməz keçmişləri ola bilər.

***

Ciddi arxeoloqlar deyir ki, Şliman, əslində, Troyanı yox, tapmaq istədiyini, yəni arzu etdiyini tapmışdır.

***XQ***

# Azərbaycanlı alimlər Macarıstan simpoziumunda

**Azərbaycanlı alimlər Macarıstanın Eger şəhərində təşkil olunan Dünya Radiasiya Kimyaçılarının Zirvə Toplantısında iştirak ediblər.**

Yarım əsrdən çoxdur ki, hər 4 ildən bir Macarıstanda Atom Enerjisi üzrə Beynəlxalq Agentliyin dəstəyi ilə keçirilən bu simpoziumda 40-a qədər ölkədən – ABŞ, Kanada, Yaponiya, Niderland, Avstriya, Rusiya və digər ölkələrdən gəlmiş alimlərin 82 məruzəsi dinlənilib. Azərbaycanı bu mötəbər məclisdə Elm və Təhsil Nazirliyinin Radiasiya Problemləri İnstitutunun baş direktoru, AMEA-nın müxbir üzvü İslam Mustafayev və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Nüvə tədqiqatları departamentinin şöbə müdiri Zaur Xəlilov təmsil ediblər.

İslam Mustafayevin “Azkarbonlu radiasiya-kimyəvi proseslər” adlı plenar məruzəsi onun rəhbərlik etdiyi institutda son 40 ildə aparılmış tədqiqatların nəticələrinə həsr olunub. Azərbaycan aliminin çıxışı simpozium iştirakçılarının böyük marağına səbəb olub. Həmyerlimiz çoxsaylı sualları da ətraflı cavablandırıb.



***XQ***

# Keçəni əsərə çevirən rəssam

**O, işini sevə-sevə görür. Peşəkarcasına yanaşdığı sənət növlərinin hamısının mayası hobbidən yoğrulub. Sənəti haqqında danışanda üzü-gözü gülür, həlim simasına nur qonur. Həmsöhbətimiz Sumqayıtın incəsənət aləmində hamının yaxşı tanıdığı keçəçi-rəssam və dizayner Günel Hüseynovadır.**



Söhbətimiz zamanı o, Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının bakalavr pilləsini, sonralar magistraturasını yaxşı qiymətlərlə bitirdiyini bildirdi. Günel hələ uşaq yaşlardan dekorativ tətbiqi sənətin bəzi növləri – toxuculuq, xalçaçılıq, muncuq işi və s. ilə məşğul olub, akademiyada oxuyarkən isə biliklərini daha da təkmilləşdirib və sevdiyi sənətin başqa növlərini də öyrənməyə fürsət tapıb:

– Akademiyanı bitirdikdən sonra bu sahə ilə daha peşəkar səviyyədə məşğul olmaq qərarına gəldim. Köklərimə bağlı olduğum üçün milli dəyərlərimizə çox önəm verirəm. Araşdırmalar apararkən təsadüfən qarşıma keçə sənəti haqqında məlumat çıxdı və bu, mənə çox maraqli gəldi. Daha dərindən maraqlananda bunun unudulmuş sənət növü olduğunu gördüm və başqa bir tərzdə yenidən tanıtmaq istədim. Bu, mənim üçün bir tapıntı oldu əslində. Başladım müxtəlif tərzdə, daha geniş səkildə, daha fərqli üslubda işləməyə.

Bəli yaradıcılıq psixologiyasının əsasını təşkil edən də elə novatorluq, daimi axtarış, yeniləşmə tələb edən fəaliyyətdir. Bütün bunlar inkişafın daim qaynayan çeşməsidir. Günel də incəsənəti insanın mənəvi aləminin, onun həyata bədii estetik münasibətinin ifadəsi sayır. Əl işləri ilə tanış olduqca bir daha gördük ki, xoş ahəngli rənglərin bir-birini təqib etdiyi kompozisiyalar onun özəl yaradıcılıq üslubundan, düşüncəsindən, kövrək duyğularından xəbər verir. Rəssamın hazırladığı sənət əsərləri sadə, lakin təsirli kompozisiya quruluşuna əsaslanır. Onun işlətdiyi rənglər səssiz və istidir.

Yaratdığı əsərlərdə milli motivlərdən istifadəyə üstünlük verən, müasirliklə tarixiliyi özündə birləşdirən yeni əsərlər yaratmağa çalışan keçəçi rəssam və dizayner Günel Hüseynova Bakı Mühəndislik Universitetində pedaqoji fəaliyyətini də davam etdirir.

***Ə.RZAYEVA***

Yeni nəşrlər

# “Dünya dinlərində cinayət və cəza”

**Azərbaycan Respublikasının Əməkdar hüqüqşünası, Rusiya Elmlər Akademiyasının üzvü, professor İlham Rəhimovun xaricdə populyarlıq qazanmış “Dünya dinlərində cinayət və cəza (tarixi, dini, hüquqi və fəlsəfi aspektlər)” kitabı müəllifin öz Vətənində də işıq üzü görüb. Azərbaycan oxucuları da bu dəyərli əsərlə ana dilimizdə tanış olmaq imkanı qazanıb.**



Akademikin bu əsəri ilk dəfə 2023-cü ildə Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində nəşr edilmiş və böyük elmi-ictimai əks-səda doğurmuşdur. Bu da təsadüfi deyil. İlham Rəhimovu qonşu Rusiya ilə, Sankt-Peterburq ilə bağlayan qırılmaz tellər çoxdur. Soydaşımız bir vaxt Rusiyanın məşhur Leninqrad (indiki Sankt-Peterburq) Dövlət Universitetinin hüquq fakültəsində ali təhsil almış, cinayət hüququ kafedrasında əyani aspiranturanı bitirmiş və hüquq elmləri namizədi adı almışdır.

Kitab 6 fəsildən ibarətdir. Burada cinayət və cəza institutları müxtəlif dünya dinlərinin, o cümlədən, iudaizm, xristianlıq, islam, hinduizm, buddizm və konfutsiçiliyin prizmasından geniş təhlil olunur. Alim kitabın ilk səhifələrindən öz oxucu elektoratını qarşıya qoyulmuş problemin tarixi dərinliyinə dəvət edərək yazır: “Uca Yaradanın ilk mesajından – Beş kitabdan sonra cinayət və cəza institutu dəyişməyə başladı”. Bu xəbərdarlıq təsadüfi xarakter daşımır. Müəllif bununla öz oxucularına onları kitabda hansı intellektual dərinliyə çəkdiyini qabaqcadan hiss etdirməyə çalışıb.

Cinayət hüququnun dini əsaslarının formalaşması barədə ətraflı məlumatdan sonra, müəllif daha bir zəruri cəhəti də ayrıca qeyd edərək yazır: “Din cinayət və cəzanın fəlsəfi məsələlərini elmdən, xüsusilə də fəlsəfədən fərqli olaraq özünəməxsus şəkildə izah etməyə çalışır”. Həmin “özünəməxsusluqlar” kitabdakı müxtəlif fəsillərdə obyektiv və dərin elmi təhlillər ilə əsaslandırılıb.

Kitabın ilk fəsli “İudaizm: Cinayət–Günah–Cəza–Əvəzçıxma” adlanır. Burada bəşəriyyət tarixinin ilk kitab dini İudaizm təsadüfən birinci sıraya qoyulmayıb. Görünür, Osvalt Şpinkler “Həyat-tarixlə, bilikdə-təbiətlə bağlıdır” fikrində yanılmamışdır. Akademik İlham Rəhimovun orjinal tədqiqatında istifadə etdiyi zəngin elmi, ədəbi materiallar əsasında “Tövratın bir dini-kulturoloji fakt kimi hüquq elmində və İlahiyyatdakı yeri” dəqiq arqumentləşdirilib və izah edilib. Məsələn, müəllif tanınmış alimlərdən V.G.Bespalkonun fikrinə istinad edərək yazır: “Tövrat nəinki uzaq keçmişdə zəngin hüquqi və tarixi material anbarıdır, həm də uzun müddət geniş xalq kütlələlərinin hüquq mədəniyyətini, onların hakimiyyətə və qanunlara, cinayətlərə və cəzalara münasibətini formalaşdıracaq bir Kitabdır.” Bundan sonra Peyğəmbər Musanın Qanunu ilə Şərq cinayət məcəllələrinin geniş əlaqələri, bağlantıları ətraflı şərh edilib.

Cinayət və cəza institutlarına, yəni cinayət qanunvericiliyinə gəlincə, müəllif onun inkişaf tarixini mərhələlərə bölərək ətraflı təhlil edir. Bu mənada, induizmdə cinayət və cəza institutlarının “mərhələli” təhlili çox diqqətəlayiq interpretasya üsulu olaraq seçilib. Məsələn, patriarxlar dövrü (e.ə. XVI–XV əsrlər) – Birinci mərhələ; çıxış dövrü (e.ə.XIII əsr) – İkinci mərhələ; hakimlər dövrü (e.ə. XII–XI əsrlər) – Üçüncü mərhələ; çarlar dövrü (e.ə. XI–VI əsrlər)- Dördüncü mərhələ; nəhayət, Babil əsri və sürgündən sonrakı dövr (e.ə. VI–IV əsrlər) – Beşinci mərhələ olaraq təsnif olunub.

Dinlərin inkişaf tarixində bu məsələlərə belə mərhələli yanaşma günümüzün bir sıra problemlərinin də daha ədalətli həllində aktualdır. Xüsusilə, “Şərq böhranı” kimi problemin ədalətli həlli bu coğrafiyada qədim dinlərin cinayət və cəza institutlarına, yəni cinayət qanunvericiliyinə daha diqqətli yanaşma tələb edir. Odur ki, professor İlham Rəhimov Peyğəmbər Musanı hüquq fəlsəfəsi tarixində ilk məşhur filosof hesab edən görkəmli hüquqşünas P.Barenboymun fikrini genişləndirərək yazır: “Əhdi-Ətiqin ilk beş kitabı – yəhudilik, xristianlıq və islam hüquq sistemlərinin bütün ən mühüm postulat və normalarının qaynaqlandığı hüquq fəlsəfəsinin başlanğıcıdır”. Beləliklə, müəllif də bu polemik düşüncələrində çox doğru və haqlı nəticəyə gəlir: “Nəticə etibarı ilə, P.D.Barenboymun iddia etdiyi kimi, cinayət hüququ fəlsəfəsi “Beş kitab” ilə başlayır və Musa peyğəmbər tarixə məlum olan ilk hüquq filosofu və buna görə də cinayət hüququnun filosofudur”. Həqiqətən, əgər Sokrat siyasi fəlsəfənin banisi sayılırsa, onda nədən e.ə. VI əsrdə köçürücülər tərəfindən sonuncu tamamlama işləri aparılmış “Əhdi-Ətiq”i – Beş kitabı qorunan Musa peyğəmbər hüquq fəlsəfəsinin atası sayılmasın?”

Əsərdə bu cür problematik suallar az deyil. Əminəm ki, bu sual və cavablar kitab ictimaiyyətimizin fikri inkişafında xüsusi rol oynayacaq. Hüquq sahəsini və onun tarixini e.ə. IV əsrdən, yəni deduktiv məntiqi əməliyyatların yunan Aristoteldən başlayan düşüncə qanunları ilə əsla məhdudlaşdırmaq olmaz. Qədim yunan filosofunun deduktiv məntiqini dünya və bəşər idrakı çoxdan aşıb keçmişdir. Akademik də, görünür, bu maraqlı və orijinal araşdırma mövzusuna xeyli polemik yanaşıb. Bu münasibət həm müəllifin, həm də kitabın uğurlu tərəflərindən biridir. “Dünya dinlərində cinayət və cəza” kitabı müasir dövrümüzdə qlobal hadisələrə münasibətdə geopolitik gərginliyin artdığı şəraitdə qələmə




alınmışdır. Daimi oxucuları və dostları olaraq biz İlham Rəhimovdan tarixə, dinə və hüquqa məhz belə polemik yanaşmanı gözləyirdik.

Kitabda dünya dinlərindən Xristianlıq və İslama da xüsusi yanaşılaraq onların müasir dövrlə müqayisədə düzgün başa düşülməmiş bəzi ehkamları və hökmləri hüquq və ədalət prizmasından ətraflı təhlil edilib. Dini yalnız ədəbiyyatçıların və teoloqların məqsədli mövqeyindən yanaşaraq izah etmək, əlbəttə, yanlışdır. Odur ki, akademik İlham Rəhimovun yeni yanaşma tərzi təqdirəlayiqdir.

Tirajı az olan bu qiymətli kitaba geniş oxucu marağı, böyük diqqət yönələcəyinə şübhə ola bilməz. Müəllifə yeni yaradıcılıq uğuru və elmi fəaliyyətində növbəti nailiyyətlər arzulayırıq!

İlham Rəhimov ismi bizim qalib ölkəmiz və xalqımız üçün həmişə ehtiramla səslənib. Xüsusilə, böyük tarixi hadisələrlə dolu olan müasir çağımızda ülviyyət və məhəbbətimizin ifadəsi üçün “Dünya dinlərində cinayət və cəza” kitabı humanist bir çağırışdır.

Sonda kiçik bir xatırlamamı da oxucularla bölüşmək istərdik: Bu uğurlu əsərin müəllifi hələ 2005-ci ildə Azərbaycan və Rusiya arasında dostluq əlaqələrinin və əməkdaşların möhkəmləndirilməsi sahəsində gördüyü işlərə görə Rusiya Fedrasiyasının 2-ci dərəcəli “Böyük Pyotr” ordeni ilə təltif olunmuşdur. O ilk azərbaycanlıdır ki, bu ordenə layiq görülmüşdür. Bu xidmətləri ona öz müzəffər Vətənində, müstəqil Azərbaycan Respublikasında və onun qədirşünas xalqında böyük hörmət, ehtiram və məhəbbət doğurmuşdur. Ünlü alimimiz İlham Rəhimovu 2021-ci ildə Azərbaycan Prezidenti İlham Əliyev hüquq sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə “Şöhrət”ordeni ilə təltif edib.

“Dünya dinlərində cinayət və cəza” kitabı bizim sülhsevər, ədalətsevər xalqımızın və haqq dünyamızın dərin tarixi qatlarına nüfuz etməyimiz yolunda mənəvi çıraqdır. Bu kitab ölməz şairimiz Nizami Gəncəvi ilə başlamış “Xeyir və Şər” dialoqumuzu davam etdirdiyimizə əyani sübutdur. Bu əsər, eyni zamanda, bizim müzəffər xalqımızı Avropa hüquq məkanında qısqanclıqla görənlərə qarşı vaxtında verilmiş tutarlı bir cavabdır.

***Dilafət HACIYEV,***
***hüquqşünas***

Səhiyyədə yenilik

# İnfeksion xəstəliklərin müayinəsi də tibbi sığorta ilə aparılacaq

**İcbari Tibbi Sığorta Agentliyindən XQ-yə verilən məlumata görə, infeksion xəstəliklərin erkən diaqnostikası icbari tibbi sığorta ilə aparılacaq. Xəbərdə bildirilir ki, bu xəstəliklər, adətən, patogen mikroorqanizmlərin, o cümlədən virus, bakteriya və göbələklərin orqanizmə daxil olması ilə inkişaf edir. Onlar bədəndə sürətlə yayılaraq müxtəlif orqan və toxumalara zərər verə bilər.**

Yoluxucu xəstəliklər tənəffüs yollarından tutmuş həzm və qan dövranı sisteminə qədər geniş sahələrə təsir göstərə bilər. Bu xəstəliklərin erkən mərhələdə aşkarlanması və vaxtında müalicəsi onların ağırlaşmasının və yayılmasının qarşısını almaqda təsirli rol oynayır, epidemiya və pandemiya riskini isə azaldır.

Yoluxucu xəstəliklərin diaqnostikasını dəqiq və etibarlı şəkildə aparmaq üçün bir neçə üsuldan istifadə olunur. İcbari tibbi sığortanın Xidmətlər Zərfinə də bir sıra infeksion xəstəliklərin diaqnostikası üçün funksional diaqnostika və laborator müayinələr daxildir. Bu müayinələr vasitəsilə həmin xəstəliklərin dəqiq diaqnostikasını aparmaq, patogen mikroorqanizmləri müəyyən etmək, onların yayılma mərhələsini dəyərləndirmək və bədənin immun cavabını öyrənmək mümkündür.

İTS çərçivəsində bakterial, virus, göbələk və parazitar infeksiyaların aşkarlanması məqsədilə aparılan müxtəlif laborator müayinələr xəstəliyə səbəb olan mikroorqanizmlərin növünü dəqiq şəkildə müəyyən edir. Məsələn, qanın, sidiyin, nəcisin və digər bədən mayelərinin analizləri ilə xəstəliyin mənbəyini aydınlaşdırmaq və infeksiyanın necə yayıldığını öyrənmək mümkün olur.

İnfeksion xəstəliklərin diaqnostikasında kompüter tomoqrafiyası və rentgen müayinələri mühüm yer tutur. Xüsusilə, tənəffüs yolları infeksiyalarında bu üsullar ağciyərlərdə yaranan patologiyaların, o cümlədən pnevmoniya kimi ağırlaşmaların vaxtında aşkarlanmasına kömək edir. KT müayinəsi orqanların strukturunu detallı şəkildə göstərir, iltihabi proseslərin və digər xəstəlik əlamətlərinin dəqiq lokalizasiyasını təmin edir. Rentgen müayinəsindən isə tənəffüs yollarının zədələnməsi dərəcəsini qiymətləndirmək və orqanizmdə inkişaf edən infeksiyaların təsirini aşkar etmək üçün geniş istifadə olunur.

Bu diaqnostik vasitələr sayəsində dəqiq diaqnozun qoyulması müalicə prosesini sürətləndirməyə imkan yaradır. İnfeksion xəstəliklərin aşkarlanmasında qanın antigen və antikor testləri vacib rol oynayır və geniş tətbiq olunur. İcbari tibbi sığorta hesabına aparılan bu testlər, xüsusilə Hepatit B, Hepatit C, İİV (İnsanın İmmunçatışmazlığı Virusu) və digər qan yolu ilə keçən infeksiyaların diaqnostikasında mühüm rol oynayır. Antigen testlər infeksiyaya səbəb olan mikroorqanizmlərin spesifik zülallarını aşkarlayaraq xəstəliyin mövcudluğunu təsdiqləyir. Antikor testlər isə orqanizmin həmin infeksiyaya qarşı yaratdığı immun cavabı müəyyən edir. Bu da xəstəliyin keçmişdə baş verdiyini və ya hazırda fəal fazada olub-olmadığını göstərir.




İcbari tibbi sığorta ilə göstərilən bu xidmətlər tibbi göstəriş əsasında TƏBİB-in tabeliyindəki dövlət tibb müəssisələrində, Səhiyyə Nazirliyinin elmi-tədqiqat institutlarında və göndəriş əsasında İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin müqavilə bağladığı özəl tibb müəssisələrində gerçəkləşdirilir.

***Zərifə HÜSEYNOVA***
***XQ***

# Naxçıvanda “GreenFest” festivalı keçiriləcək

**İqlim dəyişmələri ilə mübarizəyə qlobal müstəvidən yanaşan Azərbaycan 11–22 noyabr tarixlərində bütün dünyanın maraqla gözlədiyi COP29-a evsahibliyi edəcək. Prezident İlham Əliyevin rəhbərliyi ilə mötəbər tədbirin ölkəmizdə yüksək səviyyədə keçirilməsi üçün bütün zəruri tədbirlər görülür, lazımi infrastruktur yaradılır. Dövlət başçısı tərəfindən “yaşıl enerji zonası” elan edilən Naxçıvan Muxtar Respublikasında da iqlim dəyişikliyi ilə mübarizə, təhlükəsiz və dayanıqlı enerji mənbələrindən səmərəli istifadə sahəsində innovativ layihələr icra olunur, müxtəlif tədbirlər keçirilir.**




COP29 və “Yaşıl dünya naminə həmrəylik ili” ilə əlaqədar olaraq Naxçıvan şəhərində keçiriləcək “GreenFest” festivalı da mahiyyət etibarı ilə həmin tədbirlərin davamıdır. Oktyabrın 26-sı saat 11:00-da Naxçıvan şəhərindəki “Saat Meydanı” İstirahət Kompleksində başlayacaq tədbirdə ekoloji sərgilər, startap təqdimatları, müxtəlif əyləncəli fəaliyyətlər, oyunlar təşkil olunacaq, mövzuya uyğun stendlər nümayiş olunacaq. Rəsmilərin də iştirakı ilə önəmli məsələlərin panel müzakirələri, o cümlədən maarifləndirici, təşviqedici aksiyaların və digər fəaliyyətlərin icrası nəzərdə tutulub.

Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin Səlahiyyətli Nümayəndəliyinin dəstəyi, Naxçıvan Muxtar Respublikasının Ekologiya və Təbii Sərvətlər, Ədliyyə, Gənclər və İdman, Təhsil nazirlikləri, Naxçıvan Şəhər İcra Hakimiyyəti, Dövlət Energetika Xidməti və Naxçıvan Dövlət Universitetinin birgə təşkilatçılığı ilə keçiriləcək tədbirin məqsədi əhalinin diqqətini ekoloji problemlərin birgə həllinə yönəltmək, muxtar respublikanın təbii resurslardan səmərəli istifadə imkanlarını və yaşıl enerji potensialını nümayiş etdirmək, eyni zamanda, COP29 və “Yaşıl dünya naminə həmrəylik ili”nə töhfə verməkdir.

***Səbuhi HƏSƏNOV***
***XQ***

**Naxçıvan**

# SOSİAL XƏBƏRLƏR




## 9 ayda 800 milyon manat müavinət

**Bu ilin yanvar–sentyabr aylarında Dövlət Sosial Müdafiə Fondu tərəfindən 496 min nəfərə sosial müavinət, 400 min nəfərə Prezidentin aylıq təqaüdü ödənilib. Bu barədə “XQ”-yə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən bildiriblər.**

Qeyd edilir ki, həmin dövrdə əhaliyə sosial müavinətlər üzrə 800 milyon manat, Prezident təqaüdləri üzrə 511 milyon manat ödənilib. 9 ayda 113 min, sosial ödənişlərin elektron təyinatına başlandığı 2019-cu ildən 683 min müavinət və təqaüd təyinatı e-sistem üzərindən proaktiv qaydada həyata keçirilib.

## 300 min şəxsə məşğulluq dəstəyi

**Dövlət Məşğulluq Agentliyi yanvar – sentyabr aylarında 303 min 300 şəxsi fəal məşğulluq tədbirləri ilə əhatə edib. Onlardan 124 min şəxs münasib işlərlə təmin edilib, 11 min 900 şəxs isə kiçik ailə təsərrüfatlarını yaratmaları üçün özünüməşğulluq proqramına cəlb olunub.**




Bu ilin 9 ayında həmçinin 12 min 200 işsiz üçün peşə hazırlığı kursları təşkil edilib, 155 min 200-dək şəxsə peşəyönümü xidmətlər göstərilib.

## Səfir uşaqlarla görüşüb

**Ukraynanın ölkəmizdəki səfiri Yuri Qusev Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyinin Qəbələ Uşaq Reabilitasiya Mərkəzində olub.**

Səfir mərkəzdə reabilitasiya kursu keçən ukraynalı uşaqlarla görüşüb. Qeyd edək ki, son günlərdə Ukraynada müharibədən əziyyət çəkmiş daha 30 nəfər ukraynalı uşaq agentliyin təşkilatçılığı ilə ölkəmizə gətirilərək sosial-psixoloji reabilitasiya xidmətlərinə cəlb edilib. Bundan əvvəlki 5 qrupla birlikdə ümumilikdə 180-dək ukraynalı uşaq ölkəmizə gətirilib və sosial-psixoloji reabilitasiya xidmətləri ilə təmin olunub.

Uşaqların reabilitasiya prosesi ilə tanış olan Y.Qusev burada yaradılan reabilitasiya infrastrukturunu yüksək qiymətləndirərək, uşaqlara göstərilən xüsusi diqqət və qayğıdan məmnunluğunu ifadə edib. Uşaqlara 10 günlük reabilitasiya proqramı çərçivəsində tibbi, eləcə də sosial-psixoloji reabilitasiya xidmətləri göstərilir.

***Z.BƏŞİRQIZI***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Aşqabadda Putinlə Pezeşkianın görüşü




**Dünən Türkmənistanın paytaxtı Aşqabadda türk dünyasının dahi mütəfəkkiri və şairi Məhtimqulu Fəraqinin 300 illik yubileyi böyük təntənə ilə qeyd edilib. Türkiyə, Rusiya, İran, Pakistan və digər dövlətlərin liderləri və nümayəndələri tədbirdə iştirak etmək üçün Aşqabadda işgüzar səfərdə olublar.**

"Anadolu"nun məlumatına görə, yubiley toplantısı çərçivəsində "Zamanlar və sivilizasiyalararası münasibət - sülhün və inkişafın əsası" mövzusunda beynəlxalq forum keçirilib. Türkiyə Böyük Millət Məclisinin sədri Numan Kurtulmuş ədalətli qlobal sistemin yaradılması üçün region ölkələrinin və xalqlarının səylərini səfərbər etməyin zəruriliyini bəyan edib.

Rusiya Prezidenti Vladimir Putin "Zamanlar və sivilizasiyalararası münasibət – sülhün və inkişafın əsası" forumunda çıxışı zamanı deyib ki, ümumbəşəri sülh və hərtərəfli inkişafı yalnız hər bir xalqın fikrini nəzərə almaqla təmin etmək olar.

Tədbir çərçivəsində Rusiya prezidenti və İran lideri Məsud Pezeşkian arasında görüş olub. Putin İranla münasibətlərin Rusiya üçün prioritet xarakter daşıdığını bildirib: "Biz beynəlxalq arenada fəal işləyirik və dünyada baş verən hadisələrə verdiyimiz qiymətlər, adətən, çox yaxın olur. Əminəm ki, bu gün də bu barədə danışacağıq".

Putin qeyd edib ki, İran ŞƏT və BRİCS-in tamhüquqlu üzvüdür. O, Məsud Pezeşkianla Kazanda BRİCS sammiti çərçivəsində ikitərəfli görüşünün planlaşdırıldığını da söyləyib. Rusiya KİV-in məlumatına görə, bu, RF və İran dövlət başçılarının ilk görüşüdür. Putin Pezeşkianı Rusiyaya rəsmi səfərə dəvət edib. İran prezidenti dəvəti qəbul edib.

Rusiya Prezidenti Pakistan lideri Asif Əli Zərdari ilə də görüşüb və bir-birini ölkələrinə səfərə dəvət ediblər. Hər iki dövlət başçısı ikitərəfli əlaqələri bütün sahələrdə intensivləşdirmək niyyətlərini təsdiqləyiblər. Bu barədə Putini səfərdə müşayiət edən Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov məlumat verib.

"Putinin Pakistan prezidenti ilə qısa söhbət etmək imkanı olub. Əvvəlcə onlar Rusiya və Pakistana rəsmi səfərlər üçün qarşılıqlı dəvət mübadiləsi aparıblar. Biz iki ölkənin bütün sahələrdə ikitərəfli əlaqələri fəallaşdırmaq niyyətini, siyasi maraqlarını təsdiqlədik", – deyə Kremlin rəsmi nümayəndəsi jurnalistlərə bildirib.

***P.ƏMİRCANOV***
***XQ***

# Nobel Sülh mükafatını bu il Yaponiya təşkilatı aldı

**2024-cü ilin Nobel Sülh mükafatına Yaponiyanın "Nihon Hidankyo" təşkilatı layiq görülüb. Norveç Nobel Komitəsinin "nobelprize.org" rəsmi saytı xəbər verir ki, bu qurum mükafata nüvə silahının törətdiyi humanitar fəlakətlər haqqında məlumatların yayılmasında mühüm rol oynadığına və nüvə silahına qarşı beynəlxalq kampaniyalarda fəal iştirakına görə layiq görülüb.**




Xatırladaq ki, "Nihon Hidankyo" 1956-cı ildə Xirosima və Naqasakinin bombardmanı zamanı zərər çəkmiş insanlar tərəfindən yaradılıb. Onun üzvləri dünya ictimaiyyətini nüvə silahından istifadənin dəhşətli humanitar nəticələr doğurduğu barədə geniş şəkildə məlumatlandırmaqla məşğul olur, Yaponiyaya atom bombasının atılmasından sonra sağ qalanlara hüquqi və tibbi məsələlərdə köməklik göstərirlər.

***Ə.PAŞA***
***XQ***

Ekran qarşısında düşüncələr

# Hər yerdə savad...

**Kəndimizdə Maarif adlı yeni ailə qurmuş bir gənc çox sevdiyi ailəsini, təzəcə dünyaya göz açmış oğlu Savadı qoyub müharibəyə gedir.**



Qonşu kənddən olan bir əsgərlə səngərdə yanaşı uzanıb almanların növbəti hücumunu dəf edərkən Maarif öz kəndlərini, oğlunu xatırlayaraq inildəyir:

– Ay Savad, ay Savad…

Qonşu kənddən olan əsgər Maarifin nə demək istədiyini başa düşmür və deyir:

– Nə savad, savad salmısan, bura savad yeri deyil. Müharibədə savadlı da ölür, savadsız da...

...İndi hər gün hansısa klinikanı "klinikaların klinikası" deyə reklam edəndə, hava haqqında məlumatı "filan şirkət təqdim edir" deyəndə, istər-istəməz, yuxarıdakı əhvalat yada düşür. "Klinikaların klinikası" deyəndə qalan klinikaların aşağılandığını başa düşmək, hava məlumatını hansısa şirkətin sponsorluğu ilə təqdim olunduğunu anlamaq bu qədərmi çətin və savad tələb edən işdir?

Hər gün televizya ekranlarında özünə "peşəkar aparıcı" deyənlərin nə gəldi, necə gəldi dediyini danışdığını eşidir və üstünü də vurmuruq: "Mahnının söz yazarı" və yaxud "mahnının söz müəllifi". Mahnının sözlərinin müəllifi demək daha doğru deyilmi? Yaxud yerindən duran, dünən efirə çıxanların hamısını "sənətkar" adlandırmaq nə dərəcədə doğrudur? Piyadaya "piyadaçı", xadiməyə "xadiməçi", narahatlığa "narahatçılıq" deyənləri necə peşəkar adlandırmaq olar?

Doğrudanmı, indi bizim ekranımız, efirimiz o vəziyyətə düşüb ki, ən elementar məsələləri belə düzgün çatdıra bilmir...

Son vaxtlar yenicə çap olunan şeir kitablarının əksəriyyətinin üz qabığında müəllifin şəkli dərc olunur. Axı bu, müəllif haqqında olan kitab deyil, iri planda olan şəkli üz qabığına vurmaq hansı mənanı daşıyır? İndiyə qədər görmüşük ki, müəllif haqqında kitabın ya annotasiyasında, ya da üz qabığının sonuncu səhifəsində məlumat xarakterli bir neçə cümlə olar. Üz qabığının birinci səhifəsində isə kitabın məzmunu ilə bağlı rəsm və ya fotoşəkil verilər.

Son vaxtlar, az qala, bütün müğənnilərin repertuarına daxil etdiyi bir mahnı var:

**Yenə gəldi yaz ayları,**
**Bülbül gülə naz eyləyir...**

İndiyə qədər həmin mahnını ifa edənlərdən biri də oxuduğunun fərqinə varmayıb: necə yəni bülbül gülə naz eyləyir? Hamı bilir ki, poeziyada bülbül – aşiq, gül - məşuq rəmzi olaraq işlədilir. Onda necə ola bilər ki, bülbül gülə, yəni aşiq məşuqa naz eləsin?

Yaxud neçə illərdən bəri kllasik mahnılardan birində səslənir:

**Kətan köynək, nazik bədən**
**Gördüm, xumar oldum.**

Əslində, burada söhbət bədənin nazik olmağından deyil, köynəyin nazikliyindən gedir, yazılı mətndəki vergülə əhəmiyyət verilməməsi nəticəsində mahnıda tamamilə yanlış fikir ifadə edilir:

**Kətan köynək nazik, bədən**
**Gördüm xumar oldum…**

Fransız mütəfəkkiri Furye deyib ki, iş elə gətirər ki, əslində, Fransa Akademiyasının həqiqi üzvü olmağa layiq birisi Paris küçələrində araba ilə kömür daşıyar. Televiziya aparıcılarının danışıq tərzini, naşir və kitab müəlliflərinin çap məhsullarını, bəstəkar və müğənnilərin sözlə işləmək bacarığını görəndə fransız mütəfəkkirin bu sözlərini xatırlamamaq olmur.

***Süleyman QARADAĞLI***

# Buzlaqların əriməsi Şimal Dəniz Yoluna işləklik gətirir




**(əvvəli 1-ci səhifədə)**

Qeyd edilir ki, bu dəniz yolu ilə, əsasən neft, qaz, kömür, metallar, taxta-şalban, taxıl və s. kimi müxtəlif mallar daşınır. Ötən il şimal marşrutu ilə rekord həcmdə – 36 milyon ton yük daşınıb ki, bunun da yarıdan çoxu mayeləşdirilmiş təbii qaz olub. Yük daşımalarının həcmi 2024-cü ildə 71 milyon ton, 2024–2035-ci illərdə isə 1,8 milyard ton olacaq".

Marşrutun iqtisadi baxımdan səmərəli olduğunu "Bloomberg" də qəbul edir: "Yaxın gələcəkdə daha çox tanker Qırmızı dəniz marşrutundan yayınmaq və yükləri alıcılara daha sürətlə çatdırmaq üçün Şimal Dəniz Yolundan istifadə etməyi seçəcək. Hər il bu marşrutla yük daşımalarının həcmi artacaq".

"Foreign Policy" nəşrindəki başqa bir məqalədə isə qeyd olunub ki, dəniz ölkələri əsrlər boyu Şüveyş marşrutunu Avropa və Asiyanı birləşdirən daha qısa yol kimi görüblər, lakin Arktika bölgəsindəki sərt iqlim şəraiti uzun müddət bu marşrutdan tam istifadəyə mane olurdu. İndi vəziyyət dəyişib. Hazırda Arktikada iqlim dəyişikliyi digər bölgələrə nisbətən 4 dəfə sürətli baş verir. Bir çox Asiya ölkələri artıq həddən artıq yüklənmiş Süveyş kanalına alternativ kimi Şimal Dəniz Yolunu nəzərdən keçirir".

Şimal Dəniz Yoluna maraq göstərən ölkələrdən biri də Azərbaycandır. "Xəzər Dəniz Gəmiçiliyi" QSC (ASCO) xarici sularda fəaliyyətinin genişləndirilməsi və bir bazardan asılılığın aradan qaldırılması istiqamətində davamlı tədbirlər həyata keçirir. Qurumdan verilən məlumata görə, 2014-cü ildə ilk dəfə "Natəvan" və "Üzeyir Hacıbəyli" quru yük gəmilərinin istifadəyə verilməsi ilə xarici sularda fəaliyyət bərpa olunub, sonrakı illərdə bu gəmilərin sıraları genişləndirilib.

Hazırda Qara və Aralıq dənizi hövzələrində ASCO-ya məxsus həm quru yük, həm də tanker gəmiləri yükdaşımalar həyata keçirir. Beynəlxalq aparıcı məsləhətçi şirkət "McKinsey" ilə birgə ASCO-nun 2030-cu ilə qədər dövrü əhatə edən Xəzərdən kənar hövzələrdə fəaliyyətin genişləndirilməsi strategiyası hazırlanıb. Sənədə əsasən, ASCO Qara və Aralıq dənizi hövzələrindən əlavə, Baltik və Şimal dənizlərində də yükdaşıma fəaliyyəti göstərəcək. Bu mənada Şimal Dəniz Yolu Rusiya limanlarından Çinə malların daşınması ilə məşğul olan Azərbaycan şirkətləri üçün sərfəli nəqliyyat infrastrukturudur.

Bundan əlavə, Azərbaycanın və Rusiyanın fəal şəkildə inkişaf etdirdiyi Şimal-Cənub Beynəlxalq Nəqliyyat Dəhlizinin gələcəkdə Şimal Dəniz Yolunu Hind okeanı ilə birləşdirəcəyi gözlənilir. Belə olan halda Azərbaycan şirkətləri yeni marşruta daxil olaraq, onu mənimsəməklə nəinki alternativ və etibarlı təchizat marşrutu əldə edəcək, həm də irimiqyaslı nəqliyyat dəhlizinin inkişafının iştirakçılarına çevriləçəklər. Bu amil dövlət büdcəsinə əlavə vəsait daxil olması ilə yanaşı, iş adamlarının fəaliyyətini stimullaşdıracaq, ölkənin ixrac potensialını artıracaq.

Beynəlxalq nəqliyyat dəhlizlərinin reallaşmasında iştirakı Azərbaycanın qlobal iqtisadiyyata daha sıx inteqrasiyasına, qeyri–neft sektorunun sürətli inkişafına impuls verəcək. Bir sözlə, yeni marşrut nəinki Rusiyanın, həm də ondan istifadə edən ölkələrin iqtisadi inkişafına təkan verəcək.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

Sağlamlıq

# Çətənə – faydası var bədənə

**Elm adamları sübut ediblər ki, çətənə toxumunun tərkibinin 30 faizi yağdır. Toxum Omega-6 və Omega-3 baxımından zəngindir. Çətənə toxumunda E vitamini, fosfor, natrium, maqnezium, dəmir kimi maddələr də çox olduğundan sağlamlıq üçün daha faydalı hesab olunur. Çətənə toxumunun yağı da xeyli faydalı bir qida vasitəsi kimi istifadə oluna bilər.**



**Çətənə tərkibli məhsulların üstünlükləri:**

Çətənə toxumundan müntəzəm istifadə ürək xəstəliklərinə qarşı profilaktik tədbirlərin önündə gəlir. Dünyada ölümə ən çox səbəb olan xəstəliklərdən biri də ürək-damar xəstəlikləridir. Təcrübələr göstərir ki, çətənə məhsulları ürək-damar xəstəlikləri riskini minimuma endirir. Bəzi elmi araşdırmalarla çətənənin autoimmun xəstəliklərə qarşı da mübarizə apararaq ümumi orqanizmin sağlamlığına yaxşı təsir etdiyini və immuniteti artırdığı sübut edilib.

**Bu məhsulların faydaları hansılardır?**

1. Ürək sağlamlığını qoruyur. 2. İltihabəleyhinə vasitədir. 3. Dəri problemlərini aradan qaldırır. 4. Şəkərli diabet riskindən qoruyur. 5. Metabolik sindrom və digər şikayətləri olanlar üçün çox xeyirlidir.

Bu faydalarına görə, mütəxəssislər həkim məsləhəti ilə çətənədən orqanizmə lazım olduğu qədər istifadə etməyi tövsiyə edirlər.

***Z.HÜSEYNLİ***
***XQ***

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi"
Qapalı Səhmdar Cəmiyyəti

*ASCO-nun tabeliyindəki idarələrə tələb olunan avtoşinlərin satın alınması məqsədilə*

MÜSABİQƏ ELAN EDİR

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2024-cü il oktyabrın 18-i saat 17.00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1263.

Ünvan: Bakı şəhəri, Mikayıl Useynov küçəsi 2.

Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi

**Azərbaycan Rəssamlıq Akademiyası**

PUBLİK HÜQUQİ ŞƏXS

*Kafedralarda başa çatacaq vəzifələri tutmaq üçün*

MÜSABİQƏ ELAN EDİR

Memarlıq – 1 ştat, dosent – 1 yer.

Müsabiqə müddəti bu elan dərc edildikdən sonra bir ay keçənədəkdir.

Sənədlər təlimata uyğun olaraq bu ünvana göndərilməlidir.

Ünvan – Bakı, Heydər Əliyev prospekti 58.

***Rektorluq***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 224 (30628) 12 oktyabr 2024-cü il, şənbə

## İdman xəbərləri

### Azərbaycanda basketbol seçməsi



**Ölkəmizdə ilk dəfə olaraq 3x3 basketbol üzrə Dünya kubokunun seçmə mərhələsi keçiriləcək.**

Azərbaycan Basketbol Federasiyası ilə FIBA arasında imzalanmış müqaviləyə əsasən, 2025-ci ilin seçmə mərhələ oyunlarına ölkəmiz ev sahibliyi edəcək.

Mayın 24-25-də Bakıda təşkil ediləcək oyunlarda 6 kişi və 6 qadın milli komandaları əsas mərhələyə vəsiqə qazanmaq uğrunda mübarizə aparacaqlar. Hər iki turnirdə komandalarımız iştirak edəcəklər.

Kişi və qadın kateqoriyalarında seçmə mərhələ oyunlarının ən yaxşı 3 komandası Dünya kubokunun əsas mərhələsində iştirak etmək hüququ qazanacaq.

*L.QURBANOVA*
*XQ*

### Məsut Özil Bakıda futbol akademiyası açacaq



**Almaniya millisinin və İspaniya "Real Madrid"inin sabiq futbolçusu Məsut Özilin Bakıya səfərinin səbəbi bəlli olub.**

Bu barədə türkiyəli professor İrfan Gündüz ulduz futbolçunun Bakıya səfəri ilə bağlı təşkil olunmuş mətbuat konfransında açıqlama verib. O bildirib ki, M.Özilin adını daşıyan futbol akademiyalarından biri də Azərbaycanda olacaq.

Qeyd edək ki, Türkiyə əsilli veteran yarımmüdafiəçi "Real Madrid"dən başqa, İngiltərənin "Arsenal" və ölkəsinin "Fənərbağça" komandalarının da formasını geyinib. O, 2014-cü ildə Almaniya millisinin heyətində Braziliyada keçirilmiş Dünya çempionatının qalibi olub.

## Ötənlərimiz – itənlərimiz

# İlk "kupça" 210 il əvvəl Gəncədə verilib

### *Hətta Nizami Gəncəvinin də "qiyamətə qədər"adlı mülk sənədi olub*

**Yəqin ki, bir çoxu bilmir ki, əmlakın ilk qeydiyyatı, alqı-satqı, "kupça" dediyimiz sənəd Azərbaycanda ilk dəfə Gəncədə verilib.**



Açıqlayaq. 1814-cü il mayın 19-da Yelizavetpol müvəqqəti dairə məhkəməsinin qeydiyyat kitabında ilk əmlak qeydiyyata alınıb. Yalnız bundan 2 il sonra, 1816-cı il dekabrın 22-də Bakıda və onun ətrafında yaşayan əhalinin daşınmaz əmlakının siyahıya alınmasına başlanılıb. 1832-ci ildə isə proses Abşeron yarımadası da daxil olmaqla Şimali Azərbaycanın bütün ərazisini əhatə edib. Hər iki siyahıyaalmada məqsəd daşınmaz əmlakları vergiyə cəlb etmək olub. Daşınmaz əmlakın qeydiyyatı ilə bağlı rəsmi reyestr kitabları isə ilk dəfə Çar Rusiyası dövründə, 1868-ci ildə formalaşdırılıb. Amma maraqlıdır ki, Rusiyanın özündə ilk kupça Gəncədən 78 il sonra, yəni 1892-ci ildə verilib. Açıq göy rəngli xüsusi kağıza yazılan, gizli işarələri olan kupça (o vaxtlar "qala-kupça" adlanırdı-H.Q.) Vladimir quberniyasından olan Timofey Antipin tərəfindən həyat yoldaşına bağışlanan sənəddir.




Təəssüf ki, Gəncədə 1814-cü il mayın 19-da ilk əmlak qeydinin şəhadətnaməsi əlimizdə yoxdur. Amma Yelizavetpol dairə məhkəməsinin qeydiyyat kitabı bu günə kimi qorunub saxlanılır və bu kitab da yalnız 18 may 1814-cü ildən 31 dekabr 1815-ci ilədək olan bir dövrü, yəni cəmi 1 il 7 ayı əhatə edir. Məlumat üçün bildirək ki, ölkəmizdə daşınmaz əmlakın rəsmiləşdirilməsi ilə bağlı 1814-cü ildə rus çarının Gürcüstanda yerləşən səlahiyyətli nümayəndəsi - canişinin sərəncamı ilə Yelizavetpol (Gəncə) müvəqqəti dairə məhkəməsi yaradılmışdı. Dairə məhkəmələri mübahisələrin həlli ilə yanaşı, əmlakın qeydiyyatı ilə də məşğul idi. Elə Azərbaycanın ilk notariusları da məhz adıçəkilən məhkəmələrin tərkibində fəaliyyət göstərib və 1918-ci ilə qədər mülkiyyət hüquqlarının qeydə alınmasında iştirak ediblər. Deməli, ilk notariusların da tarixi Gəncə ilə bağlıdır.

Notariuslar daşınmaz əmlaka dair hüquqları 2 kitaba qeyd edirdilər. Bu kitablardan biri "Mülk kitabı" adlanırdı. Kitablarda qeydin başlanma və qurtarma ili göstərilir, bu səhifə və qeydə alınan nömrə həm mülk kağızına, həm də notariusda aparılan ikinci kitaba – "Mülk işlərinin reyestri kitabı"-na yazılırdı. Başqa sözlə, "Mülk işlərinin reyestri kitabı"nda vətəndaşa verilmiş qeydiyyat şəhadətnaməsinin (ona "Qəbalə kağızı" deyilirdi) hansı reyestr nömrəsi ilə, hansı səhifədə və neçənci ildə qeydə alındığı göstərilirdi. Mülkiyyət kağızları rus və ərəb dillərində tərtib olunur, mülkiyyətçiyə o vaxtkı pulla 1 manat 25 qəpiyə başa gəlirdi. Bunu mülkiyyət kağızının üzərinə vurulan möhürdən də görmək mümkündür.

Gəncədə mülklərin qeydə alınmasının tarixi daha qədimlərə, 1000 il bundan əvvələ kimi gedib çıxır. Məsələn, Goranboyun Həmənli kəndinin bir zamanlar Atabəylər dövlətinin hökmdarı Məhəmməd Cahan Pəhləvan tərəfindən dahi şair və mütəfəkkir Nizami Gəncəviyə hədiyyə edilməsi barədə çoxlu faktlar var. Arxeoloqlar adıçəkilən ərazidə Nizami dövrünə aid xeyli sayda maddi-mədəniyyət qalıqları, məmulatlar, metal əşyalar, ictimai binaların qalıqlarını aşkar ediblər. Kənd şairə verildikdən sonra Qızıl Arslanın göstərişi ilə bu kəndə 5 kilometr uzunluğunda saxsı borularla su xətti də çəkilib. Aparılan qazıntılar nəticəsində göstərilən bütün obyektlər aşkarlanıb. Kəndin məhz dahi şairə bağışlanan yaşayış məntəqəsi olması şübhəsizdir. Yeri gəlmişkən, bəzi tədqiqatçılar Həmənli kəndinin Qazax rayonundakı həmənlilər nəslindən olan adamların adı ilə bağlanmasını iddia edirlər ki, bunun da elə bir ciddi əsası yoxdur. "Həmənli", "həmin" sözünün həmən sözü kimi işlənməsindən yaranan sözdür. Adamlar tarix boyu Şeyx Nizaminin getdiyi, dəfn olunduğu yerlərə baxmağa həmişə cəhd ediblər. Görünür, Nizamidən söhbət düşəndə tez-tez "həmin kənd" ifadəsini işlədiblər və sonralar Həmənlikənd kimi dialektdə qalıb. Əlbəttə, mövzumuz kəndin adının araşdırılması deyil. Məqsədimiz Gəncədə əmlak sahibinə verilən sənədlərin neçə yüzilliklər qabağa getməsini oxucuya çatdırmaqdır.

Qeyd edək ki, Gəncədə, eləcə də Azərbaycanda əmlak münasibətlərinin tarixi çox qədimdir və tarix boyu hökmdarlar nəzarət etdikləri ərazilərin sakinlərindən vergi toplayıblar. Bəzən isə xüsusi qərarla hansısa kənd vergidən azad olunub, başqa sözlə, vergilər kəndin yeni sahibinə ödənilib. Həmdünyan (indiki Həmənli) kəndi böyük şairə bağışlanarkən hökmdarın bununla bağlı ayrıca fərmanı olub və burada göstərilib ki, adıçəkilən kənd "qiyamətə qədər" şairə məxsus olacaq və kənd sakinləri vergiləri büdcəyə yox, şairə ödəyəcəklər. Yəni, Həmdünyan Nizaminin özəl mülkü olub.

Nizamiyə bəxş edilən kəndin vəziyyəti haqda "Xosrov və Şirin" poemasında məlumat verilib. Əsərdə Həmdünya "gəlirindən artıq onun xərci" olan, "yarımca ağac"lıq kənd kimi təsvir olunur. Şairin yazdığına görə, hətta bəzi şəxslər "Bir xaraba kəndə layiqdir məgər?" sözləri ilə şahın şairə belə balaca və baxımsız kəndi bağışlamasını kinayə ilə qarşılayıblar. Buna cavab olaraq, Nizami kəndin



təbii sərvətlərindən yazır:

***Bir həmdim yaxşıdır beş-on kənddən, bil.***
***İş və əkin varsa o kənddə əgər,***
***Mənim hər sözümdən behişt göyərər.***
***Dənli sünbülü var, o kəndin, nə qəm,***
***Mən də salxım-salxım dürr gətirmişəm.***
***Gur meşəsi vardır, söyləsən bu dəm,***
***Var qəmari uddan mənim yüz meşəm.***

...Gəncəni sirli-soraqlı, kəşf edilməmiş bir adaya bənzətmək olar. Elə bir adaya ki, hər daşı, torpağı, tarixi şəxsləri bundan sonra da öyrənilməli, üzə çıxarılmalı, bütün dünyaya tanıdılmalıdır.

Demək olar ki, hər bir ailənin rastlaşdığı mülk sənədinin hələ neçə əsr qabaq Gəncədə verilməsi bu sirrin bir zərrəsidir...

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri,***

**Gəncə**

## Maraq dünyamız

# Boliviyada narıncı göl



***Boliviyadakı riflərin və sahil qumlarının dənizdən ayırdığı Kolorada laqunası (sonradan ayrılmış su hövzəsi) bu ölkənin ən gözəl və görməli məkanlarından biridir. Məmləkətin cənub-qərbindəki bu gölün ərazisi kiçik olduğuna görə turistlər onun "başına dolana" bilirlər. Suyu olduqca duzlu və özünəməxsus rəngdə – narıncıdır. Fəsillər dəyişəndə sumağı rəngdə də görünür. Alimlərin fikrincə, suyun bu rəngdə olmasının səbəbi bəzi mineral çöküntülərin və rəngli mikroorqanizmlərin çox olmasıdır.***

Gölün səthində ağ ərazilər də var. Bu isə natrium maddəsinin müxtəlif duzlarla reaksiyasından alınan müvəqqəti çalarlardır. Sahil boyu sumağı rəngli qayalıqlar görünür. Xeyli aralıda isə gözəl dağ silsiləsi uzanıb gedir.

Kolorada laqunası həm də qırmızı flaminqoların çox olduğu məkandır. Onlar gölün bütün sahilləri boyu məskunlaşıblar. Bəzi turistlər buraya qeyri-adi rəngli gölə tamaşa eləmək üçün gəlirsə, digərləri də gölün rənginə uyğun "geyinmiş" flaminqoların rəqsini görmək istəyirlər.

*İ.QAÇAYEV*

# Yağış, duman və külək...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 12-də Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın ayrı-ayrı yerlərində intensivləşəcəyi, şimşək çaxacağı ehtimalı var. Axşam tədricən kəsiləcək. Şimal-şərq küləyi əsəcək. Gecə 15-18°, gündüz 19-23° isti olacaq.**

Atmosfer təzyiqi 762 mm civə sütunu, nisbi rütubət gecə 75-85, gündüz 60-65 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 20-25°, dağlarda gecə 3-8°, gündüz 10-15° isti olacaq.

*Q.QASIMOV*
*XQ*

***✓ 2024-cü il oktyabrın 11-də Bakı Şəhər 38 saylı Notariat Ofisində İsakova Rəhilə Yahya qızı tərəfindən Balayeva Arzu Ramiz qızına verilmiş və reyestrdə 7E –9811 nömrə ilə qeydiyyata alınmış baş etibarnamə itdiyi üçün etibarsız sayılır.***

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov Yavər Təhməzovaya qardaşı

**FƏXRƏDDİN MÜƏLLİMİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

"Xalq qəzeti"nin kollektivi Elbrus Təhməzova həyat yoldaşı

**TAMELLA XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

**ÜNVANIMIZ:**
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2319
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV

Çapa imzalanmışdır 00:00